Xalqın qəzeti!

# Xalq qəzeti

№ 235 (30929) 4 noyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Milli Akademiya Azərbaycanın misilsiz mənəvi sərvətidir

## Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib

*Prezident İlham Əliyev tədbirdə çıxış edib*



**Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley yığıncağında iştirak edən xarici qonaqlarla görüşdü.

Sonra Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

**– Hörmətli xanımlar və cənablar!**
**Hörmətli qonaqlar!**
**Hörmətli alimlər!**

Mən sizi Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Akademiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər.

Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər.

*(ardı 2-ci səhifədə)*

## Ermənistan Azərbaycan qazının idxalçısına çevrilə bilər



**Ermənistan, nəhayət, 30 ildən artıq davam edən işğalçılıq siyasətinin ölkəyə heç bir fayda gətirmədiyini, əksinə, siyasi və iqtisadi baxımdan ciddi fəsadlara yol açdığını dərk edib. Rəsmi İrəvan anlayır ki, bu yanlış istiqamət Ermənistanı regionda təcrid vəziyyətinə salıb və inkişaf perspektivlərini məhdudlaşdırıb.**

*(ardı 15-ci səhifədə)*



## Türkiyənin İraqda su layihələri

**İraqla Türkiyə arasında imzalanan yeni saziş iki ölkə münasibətlərində strateji dönüş nöqtəsi kimi qiymətləndirilir. Razılaşmaya əsasən, İraqda həyata keçiriləcək su infrastruktur layihələri türk şirkətləri tərəfindən icra ediləcək və bu layihələr neft satışından əldə olunan gəlirlər hesabına maliyyələşdiriləcək. Bu mexanizm həm iqtisadi, həm də siyasi baxımdan mühüm əhəmiyyət kəsb edir.**

*(ardı 15-ci səhifədə)*

## Azərbaycan elminin strateji hədəfləri



Səhifə ⇨ 5

## Hindistanın strateji oyunu



Səhifə ⇨ 6

## Tomas Freylixin qələti



Səhifə ⇨ 6

## "AnewZ" regionun səsini dünyaya çatdıran media platformasıdır



Səhifə ⇨ 7

## Azərbaycan-Türkiyə: terrorsuz Türk dünyası strategiyası



Səhifə ⇨ 8

## Gürcüstan "Avronest"i şantajda təqsirləndirir



Səhifə ⇨ 8

# 9 ayda qeyri-neft ixracı 2,6 milyard dollar olub

Səhifə ⇨ 12

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib





*(əvvəli 1-ci səhifədə)*

Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni, yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də Akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı.

Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni, Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı. Bir çox addımlar atıldı. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilmişdir və burada yerləşən, bu akademiya şəhərciyində yerləşən binaların təmiri aparıldı. Buraya, elmə aidiyyəti olmayan, akademiyanın bəzi binalarını zəbt etmiş qurumlar buradan çıxarıldı. Yeni böyük elmi kitabxana inşa edilmişdir. Milli Ensiklopediya üçün yeni bina inşa edilmişdir. Elmi-tədqiqat institutlarının, dediyim kimi, təmiri və avadanlıqlarla təchizi təmin edilmişdir.

Elm Fondu hələ 2009-cu ildə yaradılmışdır. O vaxt bu Fondun yaradılmasının əsas məqsədi Azərbaycan alimlərinə maddi dəstək vermək, elmin inkişafına qrantlar çərçivəsində təkan vermək idi. Elmin inkişafı üzrə Milli Strategiya qəbul edilmişdir. “Elm haqqında” Qanun qəbul edilmişdir, Dövlət Proqramı qəbul edilmişdir. Yəni, görülmüş bütün işləri sadalamaq üçün çox vaxt lazımdır. Sadəcə olaraq, bunu bildirməliyəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir.

Mən 10 il bundan əvvəl - Akademiyanın 70 illiyində bax bu salonda alimlər qarşısında çıxış etmişdim və çalışırdım ki, bu 10 il ərzində ölkə qarşısında duran bütün başqa vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyimi göstərim. Bu gün bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm. Çünki son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir. Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur.

Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır.

Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür. Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun.

Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni, təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır.

Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni, "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik.

Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni, bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” adı verilmişdir və bu istiqamətdə də addımlar atılır. Azərbaycan alimlərini burada yenə də fəal olmağa dəvət edirəm.

Digər vacib məsələ kibertəhlükəsizliklə bağlıdır. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara bu il məruz qalmışdır və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır. Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni, virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir.

Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir. Əlbəttə ki, eyni zamanda, bizə qarşı kiberhücumlar təşkil edən ölkələr, ya tərəflər, ya qurumlar cəzasız qalmamalıdır. Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik.

Bu gün bildiyiniz kimi, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda, bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda, mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər. Eyni zamanda, dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və biz öz hərbi imkanlarımızı artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndiririk, öz tələbatımızı böyük dərəcədə ödəyirik.

Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda, Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik.

Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni, bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda, özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır.

Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik.

İqtisadi müstəqillik, təbii olaraq, siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni, bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək.

Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni, bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir. Çünki yenə də demək istəyirəm ki, bu gün dünyada qaydalar tamamilə dəyişib.

Beynəlxalq təşkilatlar, yəni, onların bir çoxu iflic vəziyyətindədir. Onların qərarları icra edilmir. Necə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 30 il icra edilməmişdir. Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, hələ bundan sonra 100 il də icra edilməyəcəkdi. Beynəlxalq təşkilatların nüfuzu böyük dərəcədə aşağı düşüb. Bu gün güc amili dünyada aparıcı amildir. Yəni, bugünkü dünya budur və belə olan halda təhlükəsizlik, müdafiə potensialı, hərbi güc əsas məsələdir. Əlbəttə ki, güclü iqtisadiyyat, maliyyə resursları olmadan bunu əldə etmək mümkün olmayacaq.

Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Burada da Azərbaycan ön sıralardadır. Bu gün Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri çox genişmiqyaslıdır. Təkcə Qarabağda və Şərqi Zəngəzurda son 5 il ərzində 30-dan çox su elektrik stansiyası inşa edilmişdir. Onların toplam generasiya gücü 300 meqavatdan çoxdur. Günəş və külək elektrik stansiyalarının inşası gedir. Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyuldu. O stansiyaların yanında 240 meqavat gücündə üçüncü Günəş elektrik stansiyası inşa edilir. Bütövlükdə 2030-cu ilə qədər Günəş, külək və su elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir. Azərbaycan alimlərini burada da fəal olmağa dəvət edirəm.

Geoloji kəşfiyyat işləri xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni, bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni, əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm, dövlət strukturlarına da göstəriş verirəm. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var - qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır.

Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir.

Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar.

Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi.

Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir.

Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib



**(əvvəli 2-ci səhifədə)**

On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm.

Qeyd etdiyim kimi, bir neçə gündən sonra biz tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik. Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək.

Mən sizi, bütün Azərbaycan xalqını həm Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə, həm də qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

***AZƏRTAC***

# YAP və Azərbaycan Milli Konservatoriyasının Zəfər Günü şənliyi




**Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının Azərbaycan Milli Konservatoriyası ilə birgə təşkil etdiyi 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.**



Tədbirdən əvvəl rəssam-monumentalist Çingiz Abasovun “30 il və 44 gün” tablosunun təqdimatı olub.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edib.



O bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan bu gün regionun çoxtərəfli əməkdaşlı məkanına çevrilməsində maraqlıdır: "Dövlət başçısının qeyd etdiyi kimi: “Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu”. Bu gün yeni reallıqlar fonunda sülh müqaviləsinin imzalanması və kommunikasiyaların bərpası regional təhlükəsizlik kontekstində strateji gündəliyin önəmli tərkib hissəsidir".

Milli Konservatoriyanın rektoru, Əməkdar incəsənət xadimi Kamilə Dadaş-zadə qeyd edib ki, hər bir xalqın tarixində elə əlamətdar gün var ki, onu “əsrə bərabər gün” hesab etmək olar: “Azərbaycan xalqının həyatında belə məqamlardan biri, heç şübhəsiz ki, 2020-ci ilin 8 noyabr gününə təsadüf edir. Lakin düşünürəm ki, öz tarixi əhəmiyyəti və mənəvi yükü etibarilə həmin günü bir əsrə deyil, “əsrlərə bərabər gün” adlandırmaq olar”.

Sonra tədbirdə şəhid İsmayıl Kərimlinin atası Ceyhun Kərimov çıxış edib. “Bu gün biz Böyük Qələbəmizin 5-ci ildönümünü qeyd edirik. Artıq beş ildir ki, 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımız işğaldan azad olunub, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Zəfər Günü möhtəşəm bir əsərdir və hər bir böyük əsər kimi bu Zəfərin də öz memarları var”.

Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Anar Mirzəyev qeyd edib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra “30 il və 44 gün” tablosunun müəllifi rəssam Çingiz Abasov çıxış edib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.

***XQ***

# Daş Salnamə Muzeyində “Suyun sirri” pantomim tamaşası



**Daş Salnamə Muzeyində “Bakıya Uçuş. İncəsənət həftəsonu: Gələcəyi İNDİ Duy” incəsənət festivalı üçün xüsusi hazırlanan “Suyun sirri” pantomim tamaşası təqdim olunub.**



Tədbirdə iştirak edən “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva səhnə əsərini izləyiblər.

Tamaşanın mövzusu incəsənət festivalının əsas elementi kimi seçilən su üzərində qurulub. Xalq artisti, pantomim aktyoru Pərviz Məmmədrzayevin müəllifi olduğu layihə insan və su arasındakı əbədi bağlılığı təsvir edir.

Pərviz Məmmədrzayevlə yanaşı, layihəyə 7 aktyor cəlb edilib. Tamaşada səssiz, lakin dərin ifadələrlə insanların çox çətinliklə həyatın mənbəyi hesab olunan suyu axtarmaları səhnələşdirilib.

Layihənin məqsədi Bakını qlobal səviyyədə əks-səda yaradan, bir şəhər olaraq ənənə və müasirliyi birləşdirən, müxtəlif fikirləri bir araya gətirən və gələcək nəsillərə ilham verən mədəniyyət paytaxtı kimi təqdim etməkdir.

***XQ***

# “Nəfəs – söz və səsin vəhdəti”





**YARAT Müasir İncəsənət Mərkəzində “Bakıya uçuş. Art Weekend. Gələcəyi İNDİ duy” (Fly to Baku. Art Weekend. Sense the Future NOW) təşəbbüsü çərçivəsində həyata keçirilən “Nəfəs – söz və səsin vəhdəti” adlı növbəti layihənin təqdimatı olub.**

Tədbirdə “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Festival üçün xüsusi olaraq SÖZ multidisiplinar mərkəzi tərəfindən hazırlanmış immersiv performans mistik musiqini, sufi poeziyasını və insan səsinin gücünü bir araya gətirib. Səhnədə Savalan və Çardaq qruplarının ifasında səslənən etnik melodiyalar və melodramatik deklamasiya mənəvi vəhdət, dərinlik və təfəkkür atmosferi yaradıb.

Performansın fəlsəfəsindən danışan N.Həsənzadə qeyd edib ki, layihə mistik musiqi, poeziya və insan səsinin gücünü birləşdirir.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən “Art Weekend” festivalı ilk dəfə olaraq Bakıda reallaşır.

***XQ***

# İsa Həbibbəyli:
# Azərbaycan Milli Elmlər Akademiyası 80 il ərzində çətin, məsuliyyətli və şərəfli yol keçib



**Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycan Milli Elmlər Akademiyasının miqyası və missiyası" mövzusunda məruzə ilə çıxış edib.**

O bildirib ki, Akademiyamızın 80 illiyi Azərbaycanda akademiya quruculuğunun təxminən 800 ilə yaxın böyük bir epoxasının məntiqi yekunu və sabaha doğru inkişafının hərəkətverici qüvvəsidir. Planetimizin birinci akademik elmi qurumu bizim eradan əvvəl IV əsrdə fəaliyyət göstərmiş Platon Akademiyasıdır. Afrika qitəsində 1137-ci ildə yaradılan Efiopiya Akademiyası bizim eranın ilk akademik qurumu hesab edilir. Azərbaycanda isə ilk dəfə 1259-cu ildə Nəsirəddin Tusi tərəfindən yaradılan Marağa Rəsədxanası ilə universal elmi fəaliyyətlə məşğul olan elmi-tədqiqat müəssisəsinin bünövrəsi qoyulub. Bundan bir müddət sonra meydana çıxmış Təbriz Darüş-Şəfa Akademiya şəhərciyinin salınması ilə Azərbaycan akademiya quruculuğunda bir addım da irəli getmişdir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Azərbaycan Milli Elmlər Akademiyası 80 il ərzində çətin, məsuliyyətli və şərəfli yol keçib. Akademiyanın 1969-1982-ci illər dövrü ölkəmizin elm tarixinə Heydər Əliyev mərhələsi, yaxud intibah dövrü kimi daxil olub. Bu illərdə Akademiyada müxtəlif elm sahələri üzrə elmi məktəblər yaranıb, elmimiz Sovet İttifaqının hüdudlarını aşaraq dünyada tanınıb.

Natiq daha sonra bildirib: "Ulu Öndər SSRİ-nin yüksək rəhbərliyinə irəli çəkildikdən sonra bu inkişaf tempi, təəssüf ki, qorunub saxlanılmayıb. Hətta müstəqilliyin başlanğıc illərində Akademiyanı ləğv etmək haqqında bəyanatlar səsləndirilib. Ona görə də 1983-1993-cü illər Elmlər Akademiyasının tənəzzül və böhran dövrü hesab olunur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə respublikanın digər sahələrində olduğu kimi, Akademiyada da böyük dirçəliş prosesləri başlanıb, ölkə maraqları ön mövqeyə çəkilib. Ulu öndərin 2001-ci il 15 may tarixli sərəncamı ilə Akademiyaya "Milli Elmlər Akademiyası" statusu verilib. 1993-2003-cü illər elm tariximizə Milli Elmlər Akademiyası quruculuğu mərhələsi kimi daxil olub".

AMEA rəhbəri bildirib ki, Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 2003-cü ildən başlanan möhtəşəm inkişaf dövründə Akademiyanın fəaliyyəti iki mərhələyə ayrılır:

1. Modernləşmə və innovasiya dövrü (2003-2021-ci illər);

2. Yeniləşmə və islahatlar mərhələsi (2022-ci ildən).

Hazırda Milli Elmlər Akademiyası Dünya Akademiyaları Cəmiyyətinin bərabərhüquqlu üzvü kimi Azərbaycan elmini beynəlxalq miqyasda təmsil edir. Ölkəmizin inkişafına, xüsusən xalqımızın milli-mənəvi dirçəlişinə öz töhfələrini verməkdə davam edir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında ölkə rəhbərliyinin elm və təhsil sahəsinə göstərdiyi yüksək diqqət və qayğıdan danışıb. O, ulu öndər Heydər Əliyevin Azərbaycan elm və təhsilinin müasir əsaslar üzərində formalaşmasında və bu sahələrin strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində oynadığı müstəsna rolu diqqətə çatdırıb. Vurğulayıb ki, bu siyasi və ideoloji xəttin Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi nəticəsində son illərdə ölkəmizin elm və təhsil sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafın məntiqi nəticəsi kimi, ölkənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elm və təhsil infrastrukturunun yenidən qurulması istiqamətində mühüm addımlar atılır.

Emin Əmrullayev çıxışında Azərbaycanın bir dövlət olaraq qarşısında dayanan geniş imkanlardan bəhs edib. Bildirib ki, ölkəmiz mövcud elmi, intellektual və texnoloji potensialını səmərəli şəkildə səfərbər etməklə qısa müddət ərzində regionun lider ölkəsinə çevrilmək imkanına malikdir. Bu məqsədlə insan kapitalının inkişafı, innovasiyaların dəstəklənməsi və rəqəmsal transformasiyanın sürətləndirilməsi istiqamətində həyata keçirilən siyasət ölkənin gələcək inkişafına mühüm töhfə verəcək.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxışında deyib ki, AMEA və Azərbaycan Yazıçılar Birliyi mənəviyyatın iki qanadı, onu yüksəyə qaldıran ocaqlardır. Fəxr edirik ki, 80 illik yubileyini qeyd etdiyimiz Milli Elmlər Akademiyasının qurucuları sırasında Azərbaycan Yazıçılar Birliyinin iki üzvü Səməd Vurğun və Mirzə İbrahimov da yer almışlar.

O qeyd edib ki, akademik İsa Həbibbəyli AMEA-nın prezidenti seçilməsindən sonra iki qurum arasında əməkdaşlıq əlaqələri daha da genişlənib: "Müstəqilliyimizin bərpası ilə humanitar sahəyə yenidən qayıtmalı olduq. Çünki sovet ideologiyası tariximizi, dilimizi, ədəbiyyatımızı yadlaşdırma siyasəti həyata keçirirdi. Şadıq ki, bu gün Azərbaycan ədəbiyyatının tarixinin başlanma dövrü kimi "Kitabi Dədə Qorqud" dastanı qəbul edilir".

AMEA-nın 80 illik yubileyinə həsr olunmuş yığıncaq təbrik çıxışları ilə davam edib.

***XQ***

## Azərbaycan UNESCO-nun qərarını alqışlayır

### *15 dekabr "Dünya Türk Dilləri Ailəsi Günü" elan edilib*




**Azərbaycan Xarici İşlər Nazirliyi UNESCO-nun 15 dekabrı "Dünya Türk Dilləri Ailəsi Günü" elan etməsini alqışlayıb.**

Bu barədə nazirliyin "X" hesabında məlumat verilib.

"Özbəkistanın Səmərqənd şəhərində keçirilən UNESCO-nun 43-cü Baş Konfransında qəbul edilən tarixi qərara əsasən, 15 dekabr "Dünya Türk Dilləri Ailəsi Günü" elan olunub. Bu tarix, Orxon-Yenisey abidələrinin – bütün türk dillərinin ortaq köklərini və paylaşılmış tarixi irsini əks etdirən ən qədim yazılı abidələrin oxunmasının ildönümünə təsadüf edir.



Azərbaycan bu mühüm qərarı zəngin dil irsimizin qeyd olunması, qlobal mədəni müxtəlifliyin təşviqi və Türk dünyası daxilində əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində əlamətdar addım kimi alqışlayır", – məlumatda deyilir.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənistan hərbçiləri insanlıq əleyhinə cinayətlər törədiblər

## *Prokurorlar dövlət ittihamını müdafiə ediblər*

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 3-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında çıxış üçün dövlət ittihamını müdafiə edən prokurorlara söz verilib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışında bildirib ki, bir ilə yaxın müddət ərzində 100-ə yaxın məhkəmə iclası keçirilib. 500 saatdan artıq müddət ərzində sənədlər və sübutlar tədqiq olunub. Hazırkı məhkəmə qarşısında duran təqsirləndirilən şəxslər qeyd edilən çoxsaylı cinayətlərin törədilməsində iştirak etmiş şəxslərin yalnız bir qismidir.

Diqqətə çatdırılıb ki, ümumilikdə təqsirləndirilən şəxslər şərti olaraq 15 fəslə bölünmüş, Ermənistan dövləti və onun formalaşdırdığı cinayətkar birlik tərəfindən 1988-ci ildən etibarən 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində törədilmiş cinayətlərdə onların fəaliyyətini əhatə edən dövrlərə müvafiq şəkildə bilavasitə və ya dolayı yolla iştirak etməkdə ittiham olunurlar.

V.Əliyev ittiham çıxışının 6 hissədən ibarət olduğunu bildirib. Əvvəlcə Azərbaycan Respublikasının suveren ərazilərinin işğalını ehtiva edən cinayətkar niyyətin yaranmasını və cinayətkar birliyin ilkin mərhələdə formalaşdırılmasını təsdiqləyən sübutlar elan edilib. Dövlət ittihamını müdafiə edən prokuror cinayətkar birliyin hüquqi anlayışını izah edib, daha sonra cinayətkar birliyin formalaşdırılmasını təsdiq edən sənədləri və sübutları elan edib.

Bildirilib ki, məhkəmə iclasında tədqiq edilmiş digər sənədlərlə də cinayətkar birliyin rəhbərlərinin əsas məqsədinin nəyin bahasına olursa-olsun Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsinin ərazisinin Azərbaycanın tərkibindən ayrılmasına nail olmaq, həmin əraziləri işğal etmək olması təsdiq edilib.

İttiham tərəfi cinayətkar birliyin yaradılma əsaslarının ideoloji və tarixi ardıcıllığını da diqqətə çatdırıb. Bildirilib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyində çalışan şəxslər, cinayətkar ideyaların həmin dövrdə təbliğat və təşviqatçıları, habelə ideoloqları Balayan Zori Hayki, Kaputikyan Silva Barunakovna, Muradyan İqor Maratoviç, Manukyan Vazgen Mikaeli, Manuçarov Arkadi Manveli, Qukasyan Arkadi Arşaviroviç, Melik-Şahnazaryan Levon Qrantoviç, Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Babayan Samvel Andraniki, Sefilyan Jirayr Simonoviç, Balasanyan Vitali Mikaeli, Karapetyan Arkadi Muradoviç, Petrosyan Qeorqi Mikaeli və qeyriləri, habelə öz qulluq mövqelərindən cinayətkar məqsədləri üçün istifadə etməkdən ötrü keçmiş SSRİ-nin rəhbərliyində müxtəlif vəzifələrdə təmsil olunan erməni və ya ermənipərəst şəxslər ciddi rol bölgüsünə əsaslanan sabit mütəşəkkil cinayətkar qruplar və onların sabit birliyini, yəni cinayətkar təşkilat yaratmaqla açıq şəkildə fəaliyyət göstərməyə başlayıb.

Onlar Ermənistan cəmiyyətində Azərbaycan xalqına qarşı milli-etnik nifrət və düşmənçiliyə əsaslanan "Miatsum" ("Birləşmə") adlandırdıqları ideyalar ətrafında cinayətkar təşkilatda birləşiblər.

Daha sonra Azərbaycan Respublikasının suveren ərazilərinin işğalı, işğal dövründə törədilmiş soyqırımı və əhalinin məhv edilməsi, terror və digər cinayət faktlarını təsdiq edən sənədlər və sübutlar diqqətə çatdırılıb. Vurğulanıb ki, Ermənistanın Azərbaycana qarşı apardığı silahlı münaqişə beynəlxalq hüquq baxımından təcavüzkar müharibə kimi qiymətləndirilməlidir.

Bildirilib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın suveren əraziləri uzun müddət işğal altında saxlanılıb. İşğalın planlı şəkildə həyata keçirilməsi və davam etdirilməsi Ermənistan dövlətinin rəsmi strukturları, silahlı qüvvələri və qeyri-rəsmi silahlı birləşmələrinin vahid strateji plan və rəhbərlik altında fəaliyyət apardığını göstərir. Bu, Ermənistan siyasi-ideoloji mühitində uzun illər formalaşdırılmış və "böyük Ermənistan" konsepsiyası ilə əsaslandırılan ekspansionist ideologiyanın bir təzahürü olub. Təcavüzkar müharibə nəticəsində 1988-1994-cü illər ərzində Azərbaycan Respublikasının 12 şəhəri, 18 qəsəbəsi, 895 kəndi olmaqla cəmi 925 yaşayış məntəqəsi işğal edilib.

Prokuror Xankəndi şəhərinin və Kərkicahan qəsəbəsinin işğalı, Xocalı rayonunun işğalı və Xocalı soyqırımı, helikopterlə silah daşınması, Meşəli qətliamı və digər hissələri də ittiham çıxışında diqqətə çatdırıb.

İttiham çıxışını Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov davam etdirib. O, ittiham çıxışının Şuşa şəhərinin işğalı və Malıbəyli-Quşçular kəndlərinin əhalisinin qismən məhv edilməsi, Kərki kəndinin (Naxçıvan Muxtar Respublikası) işğalı, Qazax rayonunun Bağanis-Ayrım, Aşağı Əskipara, Yuxarı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı kəndlərinin işğalı, Bağanis-Ayrım kəndinin əhalisinin qismən məhv edilməsi, Xocavənd rayonunun işğal olunması və Qaradağlı kəndinin əhalisinin qismən məhv edilməsi, 1991-ci il noyabrın 20-də vertolyotun vurulması, Goranboy rayonunun Ballıqaya və Gülüstan kəndlərinin əhalisinin qismən məhv edilməsi ilə bağlı hissələrini elan edib.

Qeyd olunub ki, təcavüzkar plana uyğun olaraq 1992-ci il mayın 8-də Ter-Tadevosyan Arkadi İvanoviçin Ermənistandan aldığı tapşırıq və göstərişlərə söykənmiş rəhbərliyi ilə Şuşa şəhərinə şimal-qərb, şimal, şimal-şərq və şərq tərəfdən olmaqla 4 istiqamətdən ayparaşəkilli (nalvari) hücum olub, şəhər işğal edilib.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev Ermənistanın apardığı təcavüzkar müharibənin gedişində Kəlbəcər, Tərtər rayonunun bəzi kəndləri, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının işğal edilməsi, Ağdaban və Comərd kəndləri ərazisində, həmçinin Kəlbəcər-Laçın avtomobil yolunun üzərində yerləşən strateji əhəmiyyətli "Tunel" adlandırılan mövqenin ələ keçirilməsi, həmin ərazidə əhalinin və Başlıbel kəndinin əhalisinin məhv edilməsi, eləcə də 2016-cı ilin Aprel döyüşləri ilə bağlı olan hissələri məhkəmə iştirakçılarının diqqətinə çatdırıb.

Bildirib ki, təqsirləndirilən şəxslər müstəqil Azərbaycan dövlətinə qarşı Ermənistan tərəfindən aparılmış təcavüzkar müharibənin və işğal siyasətinin "qəhrəmanları" kimi təqdim edilsələr də, əslində, beynəlxalq hüquq baxımından müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərdir.

Daha sonra prokuror təqsirləndirilən şəxslərin Azərbaycanın suveren ərazilərinin işğal edilməsində iştirakı ilə əlaqədar bəzi məqamları qeyd edib.

Dövlət ittihamını müdafiə edən prokuror Təranə Məmmədova isə ittiham çıxışının 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuza hücumu (Tovuz döyüşləri), habelə 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarını (Gəncə, Mingəçevir, Bərdə, Tərtər və s.) atəşə tutması, nəticədə insanların qətlə yetirilməsi, yaşayış evlərinin, infrastrukturun məhv olması və s. ilə bağlı hissələrini diqqətə çatdırıb.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev ittiham çıxışının təcavüzkar müharibənin gedişində törədilmiş zorakılıqla yoxa çıxarma, əsir və girov götürülərək işgəncələrə məruz qoyma faktları, ərazilərin minalanması, mina partlayışları yolu ilə təcavüzün davam etdirilməsi faktları, təcavüzkar müharibənin gedişində törədilmiş terrorçuluq cinayət faktları, muzdlu döyüşçülərdən istifadə edilməsi faktları üzrə olan hissələrini elan edib.

Habelə, təcavüzkar müharibənin davamı kimi işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırılma, Azərbaycan Respublikasının işğal edilmiş suveren ərazilərində hakimiyyətin zorla ələ keçirilməsi və qanunsuz idarəçilik rejiminin tətbiq edilməsi, Azərbaycan Respublikasının hərbi arsenalına ziyan vurulması və silah-sursatın, hərbi texnikanın və digər avadanlıqların işğal edilmiş ərazilərə daşınması və yerləşdirilməsi ilə bağlı cinayətlər, Azərbaycan Respublikası iqtisadiyyatına qəsdən ziyan vurulması və işğal olunmuş ərazilərdə terrorçuluğun maliyyələşdirilməsi faktları üzrə olan hissələr də elan edilib.

İttiham tərəfinin çıxışları zamanı məhkəmə zalındakı monitorlarda müvafiq fotoşəkillər, xəritələr, rəqəmlər və s. nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 6-da davam etdiriləcək.

***XQ***

# Azərbaycan elminin strateji hədəfləri

## *Dövlət siyasəti və intellektual gücün yeni fəlsəfəsi*

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə Prezident İlham Əliyev tərəfindən səsləndirilən fikirlər dövlətin gələcək inkişaf modelinin fəlsəfi və ideoloji manifestidir. Prezident İlham Əliyevin bu çıxışı həm tarixi yaddaşla gələcəyin texnoloji arxitekturası arasında körpü salır, həm də elmin milli güc konsepsiyasında mərkəzi yerini bir daha təsdiqləyir. Burada vurğulanan əsas xətt ondan ibarətdir ki, Azərbaycanın modern dövlətçilik mərhələsində dayanıqlı inkişafın əsas resursu artıq təbii sərvətlər deyil, intellektual potensial və insan kapitalıdır.**



Əgər sovet və postsovet modernləşmə mərhələlərində əsas prioritet sənaye və enerji infrastrukturunun formalaşdırılması idisə, XXI əsrin ikinci onilliyindən etibarən Azərbaycanın modernizasiya strategiyası intellektual və texnoloji inkişafa yönəlir. Prezidentin çıxışında "tükənən sərvət – təbii resursdur, tükənməz sərvət isə intellektual potensialdır" fikri bu siyasətin konseptual ifadəsidir. Prezidentin bu yanaşması milli təhlükəsizlik və geosiyasi müstəqilliyin yeni fəlsəfəsini müəyyənləşdirir. Çünki artıq dövlətin strateji suverenliyi onun intellektual müstəqilliyindən və texnoloji gücündən asılıdır.

Azərbaycan elminin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu bu kontekstdə tarixi başlanğıc nöqtə kimi dəyərləndirilir. 1970-ci illərdə aparılan elm-sənaye inteqrasiyası, elmi-tədqiqat institutlarının genişləndirilməsi və gənc mütəxəssislərin xaricə göndərilməsi siyasəti milli elmin struktur əsaslarını yaratdı. Heydər Əliyev modeli müstəqillik dövründə İlham Əliyev tərəfindən yeni çağırışlara uyğunlaşdırılaraq postsənaye və rəqəmsal modernləşmə konsepsiyasına çevrildi.

Prezidentin çıxışında diqqətçəkən mühüm məqam ondan ibarətdir ki, Azərbaycan artıq elmi inkişafı dövlətin davamlılığının təminat mexanizmi kimi təqdim edir. Texnoloji inkişaf və elmi innovasiyalar burada həm iqtisadi, həm də geosiyasi faktor kimi qiymətləndirilir. Hərbi sənaye kompleksində özəl sektorun iştirakına icazə verilməsi, lisenziyalaşdırma və yerli istehsalın genişləndirilməsi elmi potensialın praktik tətbiqinə xidmət edən yeni modeldir.

Eyni zamanda, bu yanaşma Azərbaycanın qlobal texnoloji iyerarxiyada yerini yenidən müəyyənləşdirmək cəhdidir. Müasir beynəlxalq münasibətlər sistemində "bilik geosiyasəti" anlayışı ön plana çıxır: süni intellekt, kvant texnologiyaları, enerji innovasiyaları artıq hərbi və siyasi gücdən ayrılmazdır. Azərbaycan da məhz bu reallığa cavab olaraq elmi resurslarını milli təhlükəsizlik, sənaye istehsalı və bərpaolunan enerji kimi istiqamətlərdə səfərbər edir. Prezidentin alimləri bu sahələrə fəal qoşulmağa çağırması həm dövlət strategiyasının çevikliyini, həm də onun uzunmüddətli viziyonunu əks etdirir.

AMEA-nın 80 illik tarixi dövlətin gələcək intellektual transformasiyasının başlanğıcı kimi təqdim olunur. Akademiyanın elm sistemindəki rolu, müasir elmi texnoparkların, innovasiya mərkəzlərinin yaradılması istiqamətindəki çağırışlar, dövlət-sahibkar-alim üçbucağının formalaşdırılması zərurəti artıq elmi fəaliyyətin akademik çərçivədən çıxaraq milli iqtisadiyyatın funksional dayağına çevrildiyini göstərir.

Xüsusilə, Prezidentin Qarabağ və Şərqi Zəngəzurda geoloji kəşfiyyat işlərinə alimlərin cəlb edilməsi çağırışı həm iqtisadi, həm də siyasi baxımdan simvolikdir. Yeni texnologiyalarla aparılan geoloji tədqiqatlar regionun iqtisadi xəritəsini yenidən formalaşdıracaq və Azərbaycanın resurs idarəçiliyində müasir elmi metodların tətbiqini təmin edəcək.

Çıxışda xüsusi yer tutan bərpaolunan enerji siyasəti elmin iqtisadi dəyərləndirilməsinin ən parlaq nümunəsidir. Qarabağda, Şərqi Zəngəzurda və Cəbrayılda günəş, külək və hidroenerji layihələrinin 2030-cu ilə qədər 6 min meqavata çatdırılması hədəfi elmin tətbiqi və istehsalın inteqrasiyasının konkret göstəricisidir.

Prezident İlham Əliyevin çıxışında Vətən müharibəsinin strateji elmi və texnoloji hadisə kimi dəyərləndirilməsi Azərbaycan dövlət düşüncəsində elmin və müdafiə sənayesinin yeni inteqrasiya mərhələsinə keçidi göstərir. Müharibə dövründə pilotsuz uçuş aparatlarının tətbiqi ilə bağlı ifadə — "bunun təməlini biz qoymuşuq" – Azərbaycanın texnoloji müstəqilliyə keçidinin siyasi manifesti kimi səslənir. Postmüharibə dövründə Azərbaycan üçün əsas məsələ əldə edilmiş bu texnoloji bilik kapitalını yalnız müdafiə sahəsində deyil, həm də elmi-tədqiqat, sənaye və iqtisadiyyatın bütün sahələrinə inteqrasiya etməkdir. Prezidentin "elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır" fikri, əslində, ölkənin yeni inkişaf modelini formalaşdıran konseptual yanaşmadır. Burada dövlət başçısının elmi yalnız akademik məkanla məhdudlaşdırmaması, onu iqtisadiyyatın real sektorlarına yönəltmə çağırışı, elmi-intellektual potensialın praktik dövlət gücü resursuna çevrilməsi strategiyasını ehtiva edir.

Müharibədə tətbiq olunan pilotsuz texnologiyalar göstərdi ki, Azərbaycan elmi artıq qlobal trendlərin istiqamətini müəyyən edən bir gücə çevrilməkdədir. Prezidentin "bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür" ifadəsi, əslində, milli elmi innovasiya sisteminin siyasi legitimləşməsidir – yəni dövlət səviyyəsində elmi istehsalın və texnoloji innovasiyanın prioritet elan olunmasıdır.

Digər tərəfdən, "dövlət strukturlarına göstəriş verirəm ki, alimlərlə daha sıx işləsinlər" çağırışı, Azərbaycanda idarəetmənin elmi əsaslara söykənməsi üçün institusional mexanizmlərin yaradılmasına yönəlmiş siyasi iradədir. Burada məqsəd elmi tədqiqatların real sosial-iqtisadi nəticələr doğurması, dövlət qərarlarının isə analitik və innovativ təməldə formalaşdırılmasıdır.

Prezidentin "Azərbaycan tarixi təhrif olunub" fikri postsovet məkanında gedən ideoloji mübarizənin mahiyyətini açır. Ermənistanın uzun illər ərzində apardığı saxtalaşdırma siyasəti, toponimlərin dəyişdirilməsi və mədəni irsə yönəlmiş təcavüz cəhdləri geosiyasi məqsəd daşıyırdı. Azərbaycanın cavabı isə fərqli idi – tarixi həqiqətin geosiyasi təbliği konsepsiyası formalaşdırıldı. Tarixi xəritələr, arxiv sənədləri və etnoqrafik sübutlar artıq təkcə elmi tədqiqat obyekti deyil, milli təhlükəsizlik faktoruna çevrildi.

Prezidentin "daha çox elmi əsərlər, bukletlər, sərgilər hazırlanmalıdır" çağırışı mahiyyətcə ideoloji silahlanma proqramıdır. XXI əsrdə informasiya müharibələrinin əsas cəbhəsi hərbi deyil, intellektual sahədir. Ermənilərin yaratdığı "alternativ tarix" modelinə qarşı Azərbaycan həm də konseptual diskurs formalaşdırmaq mərhələsinə keçib. Tarixşünaslıq, toponimika, arxeologiya və dilçilik sahələrində yeni elmi məktəblərin formalaşması artıq milli təhlükəsizliyin ideoloji sütununa çevrilir. Prezidentin "Biz öz torpaqlarımıza tanklarla yox, avtomobillərlə qayıtmalıyıq" ifadəsi bu kontekstdə dərin strateji mənaya malikdir. Qayıdış burada mənəvi və sivil xarakter daşıyır. Müharibədən qalib çıxmış dövlətin mədəni legitimliyə əsaslanan siyasət yürütməsi regionda yeni diplomatik psixologiyanın əsasını qoyur. Prezidentin mesajı həm daxili, həm də xarici auditoriyaya ünvanlanıb — Azərbaycan xalqına tarixi ədalətin bərpa olunduğu inamını möhkəmləndirir, Ermənistana isə qayıdışın labüdlüyünü, lakin onun sülh yolu ilə reallaşacağını nümayiş etdirir. Çıxışın mərkəzi xəttini təşkil edən dil məsələsi isə strateji təhlükəsizlik komponentidir. "Təmiz, saf, ədəbi Azərbaycan dili" anlayışı milli kimliyin qorunması ilə birbaşa bağlıdır. Qloballaşma və informasiya axınları şəraitində dilin yad təsirlərdən təmiz saxlanılması milli suverenliyin intellektual formasıdır.

Əslində, bu çıxışda Prezident İlham Əliyev tarix, dil və mədəniyyət məsələlərini vahid dövlətçilik konsepsiyasına inteqrasiya edir. "Azərbaycan xalqının



dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır" fikri postmüharibə dövrünün ideoloji bünövrəsini təşkil edir. Burada dövlət gücü sadəcə iqtisadi və hərbi parametrlərlə deyil, intellektual potensial və ideoloji davamlılıqla ölçülür. Tarixi tədqiqatların genişlənməsi, elmi diplomatiyanın inkişafı və mədəni diplomatiyanın beynəlxalq müstəviyə çıxarılması Azərbaycanın dünya miqyasında mövqeyini gücləndirir.

Beləliklə, Azərbaycan Prezidentinin AMEA-nın 80 illiyi münasibətilə tədbirdəki konseptual çıxışında səsləndirdiyi tezislər Azərbaycan elminin tarixində yeni mərhələnin başlanğıcını simvolizə edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qayıdışımız Ermənistan xalqını və dövlətini qorxutmamalıdır

## *Çünki Prezident İlham Əliyev təminat verir*

**Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında bir sıra tarixi həqiqətləri açıqlamaqla, Ermənistan cəmiyyətinə də mesaj vermiş oldu. Yazımızda bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**



Məlum olduğu kimi, ümumən erməni cəmiyyətinin ayrı-ayrı təbəqələrində Azərbaycanın guya Ermənistanı işğal etmək istədiyinə dair fikir var. Əlbəttə, bu kimi sərsəmliklər erməni cəmiyyətinə xaricdən də ixrac olunmaqdadır. Məqsəd bəllidir: Azərbaycanlılarla ermənilər arasında münaqişə məntiqini qorumaq. Tam aydındır ki, bəzi qüvvələr bu məntiqi özlərinin Cənubi Qafqaz planlarının gələcəyi üçün müstəsna alət kimi görürlər.

Prezident İlham Əliyev isə çıxışında sadə reallığı ortaya qoyaraq bildirdi ki, Azərbaycan əhalisi ölkə hüdudlarından kənarda da yaşayır: "Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar".

Prezident İlham Əliyevin üzərində dayandığı vacib nüans azərbaycanlıların heç vaxt separatizm xəstəliyinə düçar olmadıqlarıdır. Ölkəmizin lideri bu fikri ilə əslində fərqi anladır. Yəni, ermənilərdən fərqli olaraq, azərbaycanlılar nəinki separatizm, habelə təfriqə və nifaq yolu tutmurlar və tutmayıblar. Əksinə, "Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq".

Bunları qeyd edən Prezident İlham Əliyev nəticəyə gəlir və Ermənistana başlıca mesajı çatdırır: "Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır", - deyən ölkəmizin liderinin vaxtilə səsləndirdiyi "Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq" fikrini təkrarlaması da xüsusi anlam daşıyır. Anlam Azərbaycanın Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının dinc məqsədə söykənməsidir.

Ermənilərin Cənubi Qafqaza köçürülmə xalq olduğunu bilirik. Onu da bilirik ki, vaxtilə çar Rusiyası tərəfindən həyata keçirilmiş köçürmə siyasəti etnik və dini tərkibi dəyişmək məqsədi daşıyıb. Sonrakı dövrün hadisə və proseslərini də unutmuruq. Söhbət dinc azərbaycanlılara qarşı törədilmiş amansızlıqlardan, onların üzləşdikləri zülm və iztirab səhnələrindən gedir.

Məlumdur ki, həm rus, həm də Qərb imperializmi ermənilərin əli ilə türk dünyasını bir-birindən ayırmaq kimi mənfur planı həyata keçirmiş və istəyinə çatmışdı. Plan isə kifayət qədər əhatəli olmuşdu ki, Prezident İlham Əliyev çıxışında bununla bağlı da fikirlərini səsləndirib: "Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə göllüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib".

Bəli, Prezident İlham Əliyevin təbirincə desək, İrandan və Şərqi Anadoludan Cənubi Qafqaza etnik və dini tərkibi dəyişmək üçün gətirilmiş ermənilər eyni zamanda, yer adlarımızı, toponimlərimizi dəyişdirdilər. Məsələn, Ağkilsəmiz Lusakunk, Gölkəndimiz Norasat, Basarkeçərimiz Vardenis, Zəngəzurumuz Sünik oldu. Daha neçə-neçə bu kimi misallar gətirmək mümkündür. Onu da deyək ki, yer adlarımızın və toponimlərimizin dəyişdirilməsi azərbaycanlıların Ermənistandakı ata-baba yurdlarından deportasiyası ilə paralel şəkildə aparıldı. Proses yalnız kənd adlarını deyil, coğrafi obyektləri, hidronimləri (çay, göl adları) və oronomları (dağ, zirvə, təpə adları) da əhatə etdi. Dövlətimizin başçısının vurğuladığı, daha doğrusu, elm ictimaiyyəti qarşısında müəyyənləşdirdiyi vəzifə isə budur: "Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik".

Təbliğ və tədqiq etməli, eyni zamanda, mövcud istiqamətdəki elmi əsərlərin sayı çoxaldılmalı, sərgilər, təqdimatlar keçirilməli, tarixi xəritələrin dərci həyata keçirilməlidir. Bütün bu tədbirlər ona görə reallaşdırılmalıdır ki, əsl həqiqətlər aşkara çıxsın, həmçinin, bir daha unutqanlığımızın acı nəticələri ilə üzləşməyək.

Sonda bir daha deyək ki, Azərbaycana gələcəyə baxır. Məqsədimiz Cənubi Qafqaz coğrafiyasında sülhün və əminamanlığın, dinc birgəyaşayışın qərarlaşması, bölgəmizin münaqişələrdən, ziddiyyətlərdən, qanlı qarşıdurmalardan uzaq sülh və rifah məkanına çevrilməsidir. Bu məkanda ədalət əbədi zəfər mahiyyətini qorumalıdır. Tarixin təbəddülatları fonunda yaranmış Ermənistan dövləti də otuz ildən artıq davam etmiş işğalçılığa deyil, haqq-ədalət prinsiplərinə əsaslanmalıdır. Onun başqa çıxış yolunun olmadığını 44 günlük müharibə də göstərdi, savaşdan sonra yaşananlar da.

Ən sonda onu da deyək ki, Prezident İlham Əliyevin yuxarıda diqqətə çatdırdığımız fikirlərinə təminat kontekstindən də yanaşmaq mümkündür. Dövlətimizin başçısı tarixi faktları, müasir Azərbaycan dövlətinin yanaşmasını açıqlamaqla, eyni zamanda təminat verir. Erməni cəmiyyəti bu barədə də düşünməli və dərk etməlidir ki, Prezident İlham Əliyevin verdiyi təminat həm də Ermənistan dövləti üçün gələcək mövcudiyyət paktıdır. Mövcudiyyət isə yalnız qonşularla normal, səmimi münasibətlər şəraitində mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hindistanın strateji oyunu

**Ermənistan hökuməti Hindistanın HAL (Hindustan Aeronautics Limited) şirkəti ilə Su-30MKI çoxməqsədli qırıcı təyyarələrinin alınması üçün tarixi müqavilə imzalamağa yaxındır. Bu barədə "İndian Defense News" saytı məlumat yayıb.**



## Dehlinin İrəvana modern qırıcı təyyarələr verməsi bölgədə gərginliyi artıra bilər

Sayt bunu "vacib strateji inkişaf" adlandıraraq yazır: "Hazırda yekun danışıqlar mərhələsində olan müqavilə Azərbaycanın bu yaxınlarda Pakistan istehsalı olan 40 ədəd "JF-17C Block-III" qırıcı təyyarəsi almasına strateji cavab kimi qəbul edilir. Son illərdə "Pinaka" raket sistemləri, "Swathi" batareya əleyhinə radarlar və tank əleyhinə qabaqcıl sursatlar da daxil olmaqla çoxsaylı silah müqavilələrindən sonra bağlanan bu müqavilə Hindistan–Ermənistan müdafiə əməkdaşlığını dərinləşdirir. "Su-30MKI" qırıcılarının gəlişi Ermənistanın texnoloji cəhətdən təkmilləşdirilmiş "JF-17" təyyarə parkına qarşı çəkindirmə və uzaqmənzilli hava döyüşü imkanlarını əhəmiyyətli dərəcədə artıracaq".

Qeyd edilir ki, Hindistan üçün bu hadisə müdafiə ixracatında böyük irəliləyişdir və "HAL" şirkətinin artan qlobal mövcudluğunu vurğulayır: "Uzun müddətdir Hindistan Hərbi Hava Qüvvələrinin "onurğa sütunu" olan "Su-30MKI" platforması ikiqat "AL-31FP" dartma vektorlu mühərrikləri, qabaqcıl radar dəsti və həm Hindistan, həm də Rusiya istehsalı olan sursatları inteqrasiya etmək qabiliyyəti ilə tanınır. Dəyəri 2,5–3 milyard dollar arasında olacağı gözlənilən müqaviləyə ilk mərhələdə 8-dən 12-yə qədər "Su-30MKI"nin çatdırılması, əlaqəli təlim, yerüstü dəstək və fərdi silah inteqrasiyası daxil ediləcək. Ermənistana təklif olunan variantın Uttam AESA radarı, Astra uzaqmənzilli raketləri və yeni nəsil elektron müharibə sistemləri təchiz ediləcəyi gözlənilir. Bu konfiqurasiya Ermənistana tədarük ediləcək "Su-30MKI" təyyarəsini bu günə qədərki ən qabaqcıl ixrac versiyalarından birinə çevirə bilər".

Təchizatın 2027-ci ilin sonuna qədər başlaması, son təhvilin isə 2029-cu ilə qədər olması proqnozlaşdırılır ki, bu da "HAL"ın Hindistan Hərbi Hava Qüvvələri üçün hazırkı istehsal öhdəliklərinə uyğundur: "Bu satınalma Pinaka çoxlüləli raket buraxıcılarının, Swathi silah aşkarlama radarlarının və tank əleyhinə idarə olunan raketlərin alınması da daxil olmaqla 2020-ci ildən bəri imzalanmış bir sıra Hindistan–Ermənistan müdafiə müqavilələrinin davamıdır".

Qeyd edilir ki, bu addım İrəvanın davam edən regional hərbi əməliyyatlar fonunda (?) Rusiyadan asılılıqdan kənara çıxmaq üçün Hindistan müdafiə texnologiyalarına davamlı etibarını göstərir. O da bildirilir ki, bu müqavilə Hindistanın müdafiə ixracı tarixində ən böyük sazişlərdən biri olacaq və "HAL"ın müasir çoxməqsədli qırıcı təyyarələr istehsalçısı kimi etibarlılığını gücləndirəcək: "Bu, həmçinin Hindistanın Qafqaz bölgəsindəki strateji təsirini gücləndirir və Türkiyə, Pakistan və Rusiyanın iştirak etdiyi dəyişən geosiyasi dinamika fonunda Yeni Dehlini etibarlı təhlükəsizlik tərəfdaşı kimi mövqeləndirir. Strateji planda bu alqı-satqı Bakı və Ankara ilə davam edən gərginlik fonunda (?) İrəvanın müdafiə sahəsində əsas tərəfdaşı kimi Yeni Dehliyə orientasiyasını vurğulayır. Hindistana gəldikdə isə, o, Avrasiya bölgəsində etibarlı silah təchizatçısı statusunu gücləndirir və ənənəvi olaraq Rusiya və Türkiyənin təsiri altında olan hərbi əməliyyatlar teatrında geosiyasi pozisiyasını möhkəmləndirir".

* * *

Hindistanın bu addımı bölgənin təhlükəsizlik arxitekturasında yeni, amma bir o qədər də təhlükəli mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Bu müqavilə Azərbaycanın Pakistandan qırıcı təyyarələr almasına "strateji cavab" kimi təqdim olunur. Lakin əslində, məsələ bundan daha dərin və narahatedicidir. Söhbət Hindistanın Cənubi Qafqazda hərbi balansı pozacaq şəkildə Ermənistanı silahlandırmaqla bölgədəki gərginliyi daha da artırmasından gedir.

Son illər Hindistan–Ermənistan müdafiə əlaqələrinin intensivləşməsi təkcə iqtisadi maraqlarla izah edilə bilməz. "Pinaka" raket sistemləri, "Swathi" radarları və tank əleyhinə idarəolunan raketlərin ardınca indi də çoxməqsədli "Su-30MKI" qırıcılarının Ermənistana verilməsi bu ölkənin silah ixracını genişləndirmək niyyətindən çox geosiyasi məqsədlərə xidmət edir. Hindistan özünü Qafqazda "etibarlı tərəfdaş" kimi göstərməyə çalışsa da, faktiki olaraq, Ermənistanı silahlandırmaqla regionda qüvvələr balansını pozur və sülh prosesinə ciddi zərbə vurur.

İrəvanın bu müqavilə vasitəsilə əldə etməyə çalışdığı əsas məqsəd Azərbaycanın artan hərbi gücü qarşısında yeni hava üstünlüyü formalaşdırmaqdır. Lakin bu, reallıqdan uzaq bir istəkdir. Ermənistan istənilən halda nə iqtisadi, nə də texnoloji baxımdan Azərbaycanın hərbi potensialına yaxınlaşa bilməz. Buna baxmayaraq, Hindistanın bu addımı bölgədə yeni silahlanma yarışını təşviq edir. Azərbaycan Ordusunun modernləşməsi müdafiə və təhlükəsizlik məqsədlərinə xidmət etdiyi halda, Ermənistanın silahlanması revanşist və təxribatçı məqsədlərlə həyata keçirilir.

Hindistanın bu istiqamətdə davranışı həm də onun beynəlxalq mövqelərinə zərər vurur. Özünü "qlobal sülh tərəfdarı" kimi təqdim edən Yeni Dehlinin Cənubi Qafqazda hərbi balansı pozmağa yönəlmiş addımları bu iddianı ziddiyyətə çevirir. Xüsusilə, Ermənistanın təcavüzkar siyasətinin nəticəsi kimi minlərlə azərbaycanlının qətlə yetirilməsi, yüz minlərlə azərbaycanlının öz doğma torpaqlarından didərgin düşdüyü bir tarix fonunda bu ölkəyə müasir qırıcı təyyarələrin satışı mənəvi-əxlaqi və siyasi baxımdan qəbuledilməzdir.

Üstəlik, bu saziş Hindistanın Rusiya ilə strateji əlaqələrinə də müəyyən mənada zərbə vurur. "Su-30MKI" platforması hər nə qədər Hindistan tərəfindən modifikasiya edilsə də, onun bazası rus texnologiyasına əsaslanır. Ermənistanın isə Rusiya ilə münasibətləri son illər ciddi şəkildə gərginləşib. Belə olan halda, Hindistanın Moskvanın narazılığı bahasına bu cür müqaviləyə imza atması həm regional, həm də qlobal səviyyədə balanssızlıq yaradır.

Cənubi Qafqaz regionu artıq kifayət qədər mürəkkəb və həssas siyasi məkandır. Ermənistan–Azərbaycan münasibətlərində sülh hələ tam bərqərar olmayıb, etimad mühiti yeni formalaşır. Belə bir məqamda Hindistanın hərbi satışla prosesə müdaxiləsi vəziyyəti sabitləşdirmək əvəzinə, onu yenidən qarşıdurma xəttinə sürükləyir. Ermənistan rəhbərliyi bu cür sazişlər vasitəsilə öz cəmiyyətinə "təhlükəsizliyə təminat" görüntüsü yaradır, amma əslində, sülhü daha da uzaqlaşdırır.

Yeni Dehlinin bu davranışı digər tərəfdən Türkiyə və Pakistan kimi ölkələrlə münasibətlərinə də mənfi təsir göstərə bilər. Çünki bu ölkələr Ermənistanın silahlandırılmasını regionda balansın pozulması kimi qiymətləndirəcəklər. Hindistanın hərbi ixrac siyasəti bu halda beynəlxalq rəqabətin bir parçasına çevrilir və onun diplomatik neytrallığına xələl gətirir. Əgər Hindistan doğrudan da regional sabitliyin tərəfdarıdırsa, o zaman silah ixracını deyil, diplomatik vasitəçiliyi önə çəkməlidir. Ermənistanı silahlandırmaqla deyil, onu sülh danışıqlarına təşviq etməklə bölgədə nüfuz qazana bilərdi. Lakin hazırkı addım tam əksinə, Hindistanı geosiyasi rəqabətin alətinə çevirir. Nəticə etibarilə Hindistanın "Su-30MKI" qırıcılarının satışına dair planı Cənubi Qafqazda sülhə və sabitliyə xidmət etmir. Bu, İrəvana qısamüddətli təskinlik, regiona isə uzunmüddətli gərginlik gətirəcək. Ermənistanın hərbi gücünü süni şəkildə artırmaqla sülhü təmin etmək mümkün deyil. Əksinə, bu cür addımlar yeni risklər, qarşılıqlı inamsızlıq və silahlanma yarışını daha da dərinləşdirəcək. Hindistan bu yanlış istiqamətdən dönməli, Cənubi Qafqazda diplomatik nizam və qarşılıqlı etimadın qurulmasına töhfə verməlidir. Yalnız bu halda Yeni Dehli həqiqətən də "məsuliyyətli regional oyunçu" statusuna iddia edə bilər.



**Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** XQ-yə açıqlamasında Ermənistanın bu təyyarələrə malik olmaqla nəyisə dəyişə biləcəyini düşünmədiyini bildirdi. Onun sözlərinə görə, əvvəla, "Su-30" təyyarələri çox sürətli olduğundan onları İkinci Qarabağ müharibəsi zamanı döyüş sahəsində istifadə etmək mümkün olmurdu: "Çünki "Su-30"lar daha böyük radiuslu təyyarələrdir. Belə olduğu təqdirdə onun vaxtilə işğal altında olan ərazilərdə istifadəsi uyğun sayılmırdı. Hava məkanına nəzarət isə həmişə olduğu kimi, Azərbaycanın necə deyərlər, əlindədir. Həm təyyarə parkı, həm də son vaxtlar Pakistandan təyyarələrin alınmasına dair yayılan məlumatları da nəzərə alaraq bu fikri açıq və əminliklə söyləyə bilərik. Azərbaycanın Pakistandan 40 ədəd təyyarə aldığı bildirilir. Belə olan təqdirdə bu say Ermənistanın Hindistandan aldığı təyyarələrin sayını 4 dəfə üstələyir".

Müsahibimiz qeyd etdi ki, biz son vaxtlar sülhün bağlanması istiqamətində prosesləri görür, Nikol Paşinyanın da sülhə kökləndiyini müşahidə edirik: "Əgər bu proses davam edərsə, vəziyyətin başqa istiqamətə yönələcəyi də istisna olunmur. Digər tərəfdən, Ermənistanın iqtisadi vəziyyətini nəzərə alaraq bəzi müqavilələrə yenidən baxılması da mümkündür. Hər halda, bununla bağlı fikirlər söylənilir. 3 milyarda yaxın vəsait Ermənistan üçün çox böyük məbləğdir. Paşinyan özü bu yaxınlarda bildirmişdi ki, Ermənistanın böyük orduya ehtiyacı yoxdur. Yaxın gələcəkdə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi bağlansa və diplomatik əlaqələr qurulsa, İrəvanın qırıcı təyyarələrə bu qədər xərc çəkməsi məsələsinə yenidən baxmasını istisna etmək olmaz. Sülhə gedən yolda olsaq da, Ermənistanın silahlanması Azərbaycan dövlətinin diqqətindən yayınmır. Bundan irəli gələn tədbirlər hər zaman görülüb, görülür və görüləcək".

***Səxavət HƏMİD***
***XQ***

# Tomas Freylixin qələti

## *Yaxud alman deputatın "fəlsəfi ermənipərəstliyi"nə sözardı*

**Avropanın nüfuzlu institutlarını təmsil edən elə şəxslər var ki, onlar üçün Cənubi Qafqazda yaşanan proseslər, heç bir halda, maraqlı deyil. Çünki belələri ağızlarını açanda yalnız öz gündəliklərini, daha doğrusu, qabaqlarına qoyulmuş siyasi "şparqalka"ları işə salırlar. Avropa Parlamentinin Almaniyadan olan deputatı Tomas Freylix də bu cür "axsaq düşüncə" sahiblərindəndir.**



Deməli, Freylix Ermənistanın dövlət mediası olan "Armenpress" İnformasiya Agentliyinə müsahibəsində bildirib ki, Avropa İttifaqı erməni xalqını təkcə sözdə deyil, əməldə də dəstəkləməlidir. Buna etirazımız yoxdur. Amma deputatın Ermənistandan danışıb söhbəti Azərbaycan üzərinə gətirməsi böyük qələtdir.

Əlqərəz, Freylixin dediyinə görə, Aİ səhv enerji siyasəti nəticəsində Azərbaycan qazından asılı vəziyyətə düşüb və məhz bu səbəbdən qurum Ermənistanı tam dəstəkləyə, Bakıya təzyiq göstərə bilmir. Üstəlik, o, Aİ-nin Azərbaycana təzyiq göstərməkdə acizliyini Türkiyə amili ilə də əsaslandırmağa çalışıb.

Alman deputat deyib ki, Ankara Aİ üçün hələ də mühüm ölkə olaraq qalır və ikincinin Bakıya qarşı atacağı istənilən addım birincinin etirazı ilə qarşılaşacaq və bu, arzuolunmazdır. Görəsən, alman deputat nə gözləyirdi? Bəlkə başqa cür olmalıdır? Ancaq məsələ bunda deyil. Çünki ölkəmiz mövcud müstəvidə Türkiyənin dəstəyinə ehtiyac duymur. Azərbaycan təkbaşına bütün təzyiq cəhdləri neytrallaşdırmaq imkanındadır.

Amma Freylixin doğru vurğuladığı məqamlar da var. Onlardan birincisi budur ki, Aİ-nin xarici siyasəti kənardan diktə olunur və Avropa suveren deyil. Deputatın fikrincə, qurum əvvəlcə münasibətlərini şaxələndirməli, öz suverenliyini və müstəqilliyini bərpa etməli, mövcud xüsusda Azərbaycan qazından asılılığını azaltmalıdır. Yalnız belə olduqda, Avropanın diplomatiyada və sülh quruculuğunda real rol oynaması mümkündür.

Freylixin yanlışlığına, daha doğrusu, primitivliyinə gəldikdə, o, "köhnə qitə"nin Azərbaycan qazından imtina ilə qazanacağı müstəqilliyi ermənipərəst niyyətlər naminə kökləməyə çağırır. Beləliklə, alman parlamentari sülh quruculuğu təsəvvürünü anti-Azərbaycan mahiyyətə kökləyir. Habelə, özünü Azərbaycanda məhkəməsi davam edən və insanlıq əleyhinə çoxsaylı cinayətlərdə təqsirləndirilən erməni əsilli şəxslərin hamisi qismində göstərməyə çalışır. Hələ bu azmış kimi, yarımçıq tənqidi fəlsəfəyə də baş vurur. Təxminən belə: söhbət Ermənistandan düşəndə, Aİ öz dəyərlərini müdafiə etmək iqtidarında deyil. Cəfəngiyyat olar, ta bu qədəri yox.

Reallıq ondadır ki, təkcə Aİ yox, ümumən "köhnə qitə"nin bir çox qurumları açıqladıqları prinsipləri indiyədək məhz ermənipərəstlik naminə qurban veriblər. İstər 44 günlük müharibədən əvvəlki, istər savaş gedişindəki, istərsə də sonrakı dövrün hadisə və prosesləri belə qurbanvermə səhnələri ilə tam doludur. Diqqət yetirək, əgər əsas bəşəri dəyər insan hüquq və azadlıqlarıdırsa, o zaman Aİ başqa Avropa təşkilatlarıtək otuz ilə yaxın müddətdə dinc azərbaycanlıların hüquqlarına aşkar təcavüz göstərilməsinə – onların doğma yurdlarından qaçqın düşmələrinə, məhrumiyyətlər və çətinliklər içərisində ömür sürmələrinə göz yummuşdu...

Bəli, söhbət məhz Ermənistanı müdafiə olduğu üçün Avropa öz dəyərlərini ayaqlar altına atmışdı. İndi freylixlərin sayəsində həmin dəyərlər tapdalanır. Ən böyük problem bundadır və yaxşı olar ki, alman deputat başqa nə isə axtarmağa çalışmasın. Bu yerdə Freylixin doğru vurğuladığı ikinci məqama keçid alaraq bildirək ki, o, Qərb dünyasının problemlərindən danışarkən, "biz öz dəyərlərimizi bütün dünyaya zorla qəbul etdirməyə çalışırıq, halbuki belə yanaşma işləmir. Çünki insanlar özlərinə dərs keçilməsi ilə razılaşmırlar" şəklində fikir bildirir.

Əlbəttə, Freylix kimilərinin bizə nəyisə təlqin etməsi yolverilməzdir. Onun fikrinə bir qədər düzəliş edərək, bunu da deyək ki, Avropanın, bütövlükdə Qərb aləminin zaman-zaman öz düşüncəsini dəyər adı altında Azərbaycana sırımağa çalışdığının şahidi olmuşuq. Amma bu cür cəhdlər keçməyib və keçməyəcək.

Dilə gətirdiyi ikinci doğru məqamın qarşılığında Freylixin dediklərindəki növbəti yanlışlıq isə budur ki, o, Qərb dünyasının Ermənistan qarşısında, guya, mənəvi öhdəliyinin olduğunu vurğulayır. Görəsən, öhdəlik nə imiş? Çox düşünməyə ehtiyac yoxdur. Çünki alman deputat cəfəngiyyatını işə salmaq üçün növbə gözləmir və bildirir ki, "erməni xalqı dünyanın ən qədim xalqlarından biridir, Ermənistan xristianlığı qəbul edən ilk ölkədir. Buna görə ona Azərbaycanla münaqişə kontekstində dəstək göstərilməsi mənəvi borcdur".

Həqiqətən, T.Freylixin bildirdikləri çox gülməlidir. Amma o, siyasi klounluğuna ara vermir və nə üçün, hansı məqsədlə ortaya atıldığı barədə rəy formalaşdırır. Beləliklə, alman deputat yuxarıda qeyd etdiyimiz məqamları ona görə gündəmə gətirir, o səbəbdən "fəlsəfəyə" baş vurur ki, Cənubi Qafqazda xristianlara təqib kimi sərsəm ritorikanı tirajlasın.

Bəli, Freylix "Qarabağda xristian dininə aid mədəni mirasın məhv edilməsindən" söz açır. Məhv edən isə Azərbaycan imiş. Sən demə, Ermənistanı qorumaq "mənəvi borcu" məhz bundan qaynaqlanırmış. Amma necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Axı T.Freylix müsahibəsinin sonunda yenidən "Azərbaycanda saxlanılan erməni məhbuslar məsələsi" üzərinə qayıdır. İstər-istəməz, Ermənistan parlamentinin sədri Alen Simonyanın bir neçə gün əvvəl dedikləri yada düşür. O, eynilə Freylix kimi, Bakıda məhkəməsi davam edən şəxslərin azadlığa çıxmalarının rəsmi İrəvan üçün prioritet əhəmiyyət daşıdığını vurğulamışdı. Bundan əvvəl də erməni iqtidarının təmsilçilərinin oxşar bəyanatları olub.

Deməli, alman deputat yarımçıq fəlsəfəyə əsaslanmış anti-Azərbaycan ritorikasını heç də əbəs yerə gündəmə gətirmir. Elə Ermənistanın dövlət agentiyi olan "Armenpress"in ondan müsahibə alması da adi məsələ sayılmamalıdır. Yəni düşünmək mümkündür ki, bütün gedişlər, o cümlədən freylixlərin meydana çıxıb Azərbaycan əleyhinə hədyanlar yağdırmaları Ermənistan rəhbərliyi tərəfindən koordinasiya edilir. Güman edirik, bunun zərərli tendensiya olduğunu Paşinyan iqtidarına təkrarən izah etməyə, durumun sülhə maneçilik törətdiyini anlatmağa ehtiyac yoxdur.

Sonda qeyd edək ki, "sizin xalqınıza kömək göstərməli, 23 məhbusun azadlığı üçün əlimizdən gələni etməliyik" deyən T.Freylix gözəl hekayələr danışmaq niyyətindən uzaq olduğunu da bildirib. Əlbəttə, deputat müsahibəsində dediklərinin, böyük ölçüdə, hekayə olduğunun fərqinə varmayacaq qədər iflic durumdadır. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “AnewZ” regionun səsini dünyaya çatdıran media platformasıdır

**1 il bundan əvvəl ilk ingilisdilli yerli elektron media qurumu, beynəlxalq telekanal kimi fəaliyyətə başlayan “AnewZ” efir məkanında yeni səs, yeni format təqdim etməyi hədəfləyirdi. Qısa zaman kəsiyində telekanal istər beynəlxalq informasiya platformasında, istərsə də onlayn yayım şəbəkəsində kifayət qədər auditoriya toplamağı bacarıb.**

**“AnewZ” beynəlxalq telekanalının icraçı direktoru Rüfət Həmzəyevlə** söhbətimiz arxada qoyduqları birillik efir vaxtı, bu müddətdə əldə etdikləri uğurlar, eləcə də qlobal efir məkanının özünəməxsus prinsipləri və telekanalın yeni planları ətrafındadır.

**– Rüfət bəy, 1 ildir ki, efirdəsiniz. Debüt necə alındı? Bu gün “AnewZ”in beynəlxalq informasiya məkanına daxil olduğunu söyləyə bilərsinizmi?**

– Sualınıza tam əminliklə, birmənalı şəkildə cavab vermək çətindir, həm də bu, təvazökarlıqdan uzaq olar. Amma elə elementlər var ki, – onları indikator da adlandıra bilərik – məhz onlar sualınızı müsbət cavablandırmaq üçün göstərici sayıla bilər. Bu zaman nəyi nəzərdə tuturuq? Misal üçün, çox mühüm bir komponentə nəzər yetirək. Dünyaca məşhur, nüfuzlu xəbər agentliklərinin istinad etdiyi xəbər mənbəyinə çevrilmək faktı telekanalımızın belə yüksək statusda qəbulolunma mərhələsini keçdiyinə dəlalət edir. Yəni deyə bilərik ki, arxada qoyduğumuz bir il ərzində dünyanın aparıcı media qurumları tərəfindən istinad edilən telekanala çevrilmişik. Bunların sırasında “Reuters”, BBC, “Evronews”, “Independent” və başqa tanınmış media subyektləri var. Düşünürük ki, bu amil nail olduğumuz əsas göstəricilərdən biridir. Eyni zamanda, heç kəsə sirr deyil ki, qlobal informasiya məkanında çox güclü rəqabət gedir. Bu rəqabətə davam gətirməkdən ötrü unikal bir forma, ifadə vasitəsi tapmalı idik. “AnewZ”in yaradıcı kollektivinin məqsədi məhz bu istiqamətdə inamla irəliləməkdir.

**– Xəbərin tamaşaçıya, onlayn izləyiciyə unikal formada çatdırılmasından danışdınız. Bir il əvvəl efirə başlayanda qlobal xəbər və analitika sahəsində tamaşaçıya alternativ baxış təqdim edəcəyinizi bildirmişdiniz. Birinci sualımızın davamı kimi, bilmək istərdik, “AnewZ” ötən bir ildə bu missiyanı nə dərəcədə reallaşdırıb?**

– Əvvəlki fikirlərimi bir qədər genişləndirərək, demək istərdim ki, biz bir il əvvəl qarşımıza qoyduğumuz məqsədlərə doğru irəliləməkdə davam edirik. Bəli, biz ortaya fakta və hadisəyə fərqli bir baxış qoymaq, eyni zamanda, regionun səsini dünyaya çatdırmaq istəyirik. Bu missiyanı nə dərəcədə reallaşdıra bildiyimizə gəldikdə isə, düşünürəm ki, təkcə müxtəlif ölkələrdəki müxbir məntəqələrimizi sadalasaq, bunun özü həm təhlil, həm də nəticə üçün bir səbəb ola bilər. Əgər biz Qafqaz regionundan danışırıqsa, hazırda Gürcüstanda müxbir postumuz var, ötən bir il ərzində İrəvanda canlı sorğular keçirmişik. Demək istəyirəm ki, telekanalımız vasitəsilə Qafqazın siyasi nəbzinin, gündəminin dünyaya çatdırılması istiqamətində müəyyən işlər görmüşük. Mərkəzi Asiya bölgəsini, ondan bir qədər geniş coğrafiyanı nəzərdə tuturuqsa, deməliyəm ki, bizim Astanada və Daşkənddə müxbir postlarımız fəaliyyət göstərir. Dünyanın bir çox nüfuzlu media qurumlarının, sözün həqiqi mənasında, əllərinin çatmadığı, yaxud yetişməkdə çətinlik çəkdikləri İran və Əfqanıstanda müxbir məntəqələri qurmuşuq. “AnewZ” gündəlik regiondan operativ xəbərləri verməklə bu ölkələrin səslərini ingilisdilli tamaşaçıya fərqli baxışla çatdırmağa çalışır. Ümumiyyətlə, xəbər sıralamamızda, yaxud gündəmimizdə dünyanın bütün qitələrindən informasiyalar yer alır. Bu iki istiqamət arasında yaradıcı ahəngdarlıq tapmağa, onu geniş auditoriyaya çatdırmağa çalışırıq ki, bunu da ilk növbədə izləyicilər hiss etməlidir. Statistik göstəricilərə nəzər salsanız görərsiniz ki, bizim peyk üzərindən dünyanın 110-dan artıq ölkəsinə yayımımız var. Digital formatda yayımda da digərləri ilə müqayisədə üstünlüyümüzü qeyd edə bilərəm. Bu sıraya, əlbəttə ki, web-saytımızı, sosial şəbəkələri, akkaunt səhifələri, “Yootube” platformasını da əlavə etmək lazımdır. Peyk yayımının statistikasını aparmaq bir qədər çətindir, amma bütün digital platformalarda “AnewZ” bu gün 6 milyon izləyiciyə malikdir. Bu rəqəm böyük və stajlı media subyektlərinin göstəriciləri ilə müqayisədə o qədər də yüksək görünməyə bilər, amma mövcud reallıqları, regionun səsi olduğumuzu nəzərə alaraq, cəmi 1 illik yol keçmiş media qurumu üçün düşünürük ki, ən azı, gələcəyə nikbin baxmağa imkan verir.



**– İnformasiya siyasətinizdə əsas konsepsiyanın xəbərlər, bülletenlər və analitika üzərində qurulduğu məlumdur. Telekanalın efirində həftə ərzində bir neçə siyasi proqram, tok-şou yayımlanır. Analiz və şərhlər üçün mövzuları hansı prinsipə əsaslanaraq seçirsiniz? Bunu telekanalın rəhbərliyi, yaxud ayrı-ayrı fərdlər müəyyənləşdirir, yoxsa kollektiv beynin məhsulu olaraq ortaya çıxır?**

– Bu məsələyə iki cür yanaşa bilərik. Qeyd etdiyiniz kimi, əgər xəbər və bülletenlər prizmasından baxsaq, xəbərə inteqrasiya olunmuş siyasi tok-şou formatı, yəni xəbər bülleteni üstünlük təşkil edir. Bunun içərisində informativ materiallar gedir, eyni zamanda, bir beynəlxalq və bir regional xəbərin dərindən təhlili aparılır. İndiyə qədər bizim gün ərzində beş xəbər-bülletenimiz yayıma gedirdi, bir saatlıq efir məhsulunun içərisində regional mövzuya həsr olunmuş iyirmi dəqiqəlik tok-şou təqdim edilirdi. Bir saatlıq bülletenin digər iyirmi dəqiqəsi isə operativ və aktual dünya xəbərlərinə fokuslanır. “AnewZ”in efir setkasına baxdıqda burada ekspert-analitiklərin sayı, həm də müxtəlifliyi göz önünə gəlir. Gün ərzində 10, 12, bəzən 14 ekspertin mövzulara müxtəlif baxış bucaqlarından şərhləri tamaşaçıya çatdırılır.

**– Telekanalınızda yüksək səviyyəli komandanın formalaşdığından danışılır. Burada dünyanın müxtəlif ölkələrindən, fərqli coğrafiyalardan xeyli əcnəbi jurnalist çalışır. Siz həmin aparıcıların, ekspertlərin seçimində hansı meyarları əsas götürürsünüz?**

– Bu suala cavabı bəlkə də bu formada ifadə etməyimiz doğru olar: yerli və xarici istedadların kompozisiyası. Yəni sözün həqiqi mənasında, biz həm Azərbaycanın media məkanında peşəkarlığı ilə seçilən və gələcəyinə böyük ümidlər bəslənilən, ilk dəfə məhz “AnewZ”in efirində görünən şəxslər var. Digər tərəfdən, dünyanın aparıcı media orqanlarında kifayət qədər zəngin iş təcrübəsinə malik insanların burada çalışmasından söhbət gedir. Onlar müxtəlif ölkələrdən və fərqli media strukturlarından dəvət olunublar. Bunların sırasında “CNN”, “Evronews”, “BBC”, “Əl-Cəzirə”, “TRT WORD” və digərlərinin adlarını çəkə bilərəm. Orada yetişmiş peşəkarlar indi təcrübələrini bizim telekanalda bölüşürlər.

Fərqli ölkələrin təcrübəsini eyni komandada toplamağın, bir növ, sintezə nail olmağın öz üstünlükləri var. Fəaliyyətimizdə yaradıcı ahəngdarlığın formalaşdırılması əsas missiyamızın kollektivin bütün üzvlərinə düzgün və dolğun təqdim olunmasından keçir. Bəli, biz regionun səsi olmağa çalışırıq. Hələlik bu yolun başlanğıcında olsaq da, inanıram ki, irəliyə doğru inamla addımlamağı bacaracağıq.

**– Xəbər bülletenlərinin, analitik verilişlərin, tok-şouların bədii tərtibatının hazırlanmasında innovativ texnologiyalardan, konkret olaraq, süni intellektdən nə dərəcədə və hansı formada istifadə olunur?**

– Həm yaradıcı, həm də texniki prosesə uyğun şəkildə müasir texnologiyaların ən son nailiyyətlərindən birmənalı istifadə olunur. Efir məhsullarımızın hazırlanmasında qlobal trendə çevrilmiş süni intellektin yeddi istiqamətdə seqmentinin tətbiqi var. Bu, daha çox video, eyni zamanda, foto məsələlərinə aiddir. Səs klonlaşdırılmasından tutmuş mətnin redaktəsi, montaj effektlərinə qədər materialların keyfiyyətinin daha da yaxşılaşdırılması xidmətlərindən yararlanırıq. Daha asan, daha əlçatan axtarış formalarının tətbiqini də qeyd etmək istərdim. Qlobal media məkanın səciyyəvi xüsusiyyəti odur ki, müasir auditoriya kontent olaraq qısa, daha çox vizual və qəbulu rahat, əlçatan efiri izləməyə meyillidir. Əslində, buna görə televiziya ilə digitalın arasında müəyyən uyğunlaşma yaratmağa çalışırıq. Buna “digital-force” deyilir. Bütövlükdə digital transformasiyanın bir növü hesab edilir.

**– Aydın məsələdir ki, telemətbəxdən çıxan efir məhsulunun son aqibəti xüsusi əhəmiyyət kəsb edir. Öz məhsulunuzun tamaşaçıya, izləyiciyə operativ çatdırılmasına, efir sürətinə görə “AnewZ”i hansı beynəlxalq media qurumu ilə müqayisə edərdiniz?**

– Maraqlı sualdır və ona tam səmimi cavab verməyə çalışacam. Başda “Evronews” olmaqla, əsas tərəfdaşlarımızla – dünyanın aparıcı media strukturları ilə sıx əməkdaşlıq edirik. İnformasiya mübadiləsi əməliyyat sistemlərinin formasından və tətbiqindən tutmuş kontentə yanaşmaya qədər bütün mərhələləri özündə əks etdirir. Bu barədə yaradıcı heyətlə danışanda, müzakirə aparanda belə bir ifadə işlədirik: kopyalamırıq, amma özümüzə məxsus yeni kontent yaratmağa çalışırıq. Ona görə də, müqayisə aparmalı, hansı mövqedə olduğumuzu müəyyənləşdirməli olsaq, ilkin mərhələ üçün orta səviyyədə qərar tutduğumuzu söyləyə bilərik. Ötən dövr ərzində siyasi gündəmin əsasını təşkil edən xəbərlərin mərkəzində olmağa çalışdıq. Hətta bəzi hallarda efir sürətimiz bəzi aparıcı xəbər mərkəzlərindən daha irəlidə idi...

**– Növbəti sualımız bir qədər fərqli olacaq. Erməni lobbisinin təsir dairəsindəki bəzi qlobal media subyektləri Azərbaycana qarşı dezinformasiya kampaniyasını bu gün də davam etdirirlər. Doğrudur, buna qarşı mübarizə aparılır. İnformasiya müharibəsinin günümüzün reallığı olması faktını rəsmilərimiz də qeyd edirlər. Bu istiqamətdə mübarizənin effektivliyini artırmağın yollarını necə təsəvvür edirsiniz?**

– Ümumiyyətlə, əgər biz Azərbaycan həqiqətlərinin dünyaya, beynəlxalq ictimaiyyətə çatdırılması məsələsindən danışırıqsa, düşünürəm ki, “AnewZ” kimi media platformalarının mövcudluğu, böyüməsi birmənalı şəkildə vacib və labüddür. Efir materiallarımızda regionun səsi olmağı hədəfləyiriksə, balanslı, neytral, bütün tərəflərin mövqeyini özündə əks etdirən xəbərlərin istehsalından söhbət getməlidir. Amma eyni zamanda, onu da fikirləşirik ki, xəbər siyasətində Azərbaycanın haqlı mövqeyinin qlobal auditoriyaya çatdırılması müzakirə predmeti ola bilməz. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, əgər biz regional baxış bucağından danışırıqsa, bunun əyani isbatı kimi İrəvan şəhərində keçirdiyimiz iki sorğunu göstərə bilərik. Sorğulardan birincisini 8 avqust Vaşinqton görüşündən sonra keçirdik.

Erməni respondentlərimiz Zəngəzur dəhlizi ilə bağlı öz fikirlərini telekanalımızın əməkdaşları ilə bölüşmüş, sülh prosesi barədə rəylərini bildirmişdilər. Yəqin izləmisiniz, həmin sorğularda biz erməni cəmiyyətində bu məsələlərə fərqli yanaşmaları olduğu kimi işıqlandırdıq. Məsələyə qlobal baxış sərgiləsək, əlbəttə ki, Azərbaycan həqiqətlərinin müasir jurnalistikanın standartlarına uyğun şəkildə, neytral və balanslı formada çatdırılması beynəlxalq auditoriyanın ölkəmizə olan inamını artıracaq. Hesab edirəm ki, məhz bu istiqamətdə daha səylə çalışmalıyıq ki, Azərbaycanın hansısa formada informasiya blokadasında qalmaması üçün yardımçı funksiyasını da yerinə yetirək.

**– Bir il bundan əvvəl yayıma başlayarkən iddialı açıqlama vermişdiniz ki, məqsədlərinizdən biri Azərbaycanda ingilisdilli peşəkar jurnalistikanın inkişafına töhfə verməkdir. Bu istiqamətdə irəliləyiş varmı?**

– Bəli, belə bir iddiamız var. Amma iddia həm də qarşıya qoyulan məqsədə çatmaq üçün əlavə dəstək sayıla bilər. Ötən bir ildə nail olduğumuz uğurları sadalayım, özünüz nəticə çıxararsınız. Fəaliyyətə başladığımız mərhələdə Azərbaycanın ali təhsil ocaqlarında ingilis dilində təhsil alan tələbə-jurnalistlərin “AnewZ”in müsabiqələrində iştirakını təşkil etmişik. Tələbələrin arasında 3-cü, 4-cü kurs tələbələri vardı ki, onlardan bəziləri üçün bura ilk iş yerinə çevrildi. Bəziləri artıq tam ştat olaraq kollektivimizə üzvlüyə qəbul olundular. Bu, birinci istiqamət oldu. İkincisi, bu yay təcrübə mübadiləsi proqramını reallaşdırdıq. Buna da maraq kifayət qədər böyük idi. Gənclərin iki həftə ərzində xəbərlər, eləcə də digital departamentdə qazandıqları təcrübə, gördükləri iş, yəni ümumi prosesin bir hissəsinə çevrilmələri həvəsləndirici məsələ sayılırdı. Düşünürəm ki, iddiamızı addım-addım, pillə-pillə gerçəyə çevirəcəyik.

**– Sonda “AnewZ”in yaxın perspektivə yaradıcılıq planları, eləcə də Azərbaycan həqiqətlərinin daha geniş auditoriyaya çatdırılması yönündə yeniliklər barədə danışardınız.**

– İl ərzində ona yaxın unikal layihələrimiz var idi ki, onlar özlərində ən müxtəlif istiqamətləri – sənədli filmlərdən tutmuş xüsusi reportaj sistemlərinə qədər ehtiva edirdi. Həmin layihələrdə postmünaqişə dövrünün reallıqlarını, dünyanın gündəmində olan məsələləri işıqlandırmağa çalışdıq. Mövzular müxtəlif, yanaşmalar fərqli idi. Bunlara misal olaraq, İsrail–HƏMAS münaqişəsində “AnewZ” hadisələrin episentrində idi. Bundan başqa, Rusiya–Ukrayna hərbi qarşıdurması ilə bağlı xüsusi reportajlar silsiləsi yayımladıq. Söhbət təkcə münaqişələrdən getmir. Məsələn, Roma Papasının seçkisi zamanı müxbirimiz Vatikanda idi və seçki günü oradan xüsusi reportaj hazırladı. Suriya hadisələrindən bəhs edən ayrıca sənədli filmimiz efirə verildi. Münaqişələrin ağır fəsadlarından biri sayılan, torpaqların minalarla çirkləndirilməsi problemindən bəhs edən orijinal seriyalarımız yayımlandı.

Bu qəbildən olan proqramların davam etdirilməsini nəzərdə tutmuşuq. Yeni mövsümdən (söhbət noyabrın 4-ü başlayacaq efir mövsümündən gedir – red.) etibarən tok-şou seqmentində müəyyən yeniliklərin tətbiqi barədə də düşünürük. Bu, səhər və axşam efirində canlı yayımlanan, özündə bir neçə komponenti birləşdirən saatyarımlıq veriliş olacaq. Digital transformasiya istiqamətində də yeniliklər gözlənilir. Ümumilikdə konseptual baxışda hazırda bir nömrəli prioritetimiz məhz digital transformasiyadır. Digitalizasiyaya dair dünyanın aparıcı nümunələrindən ilhamlanaraq, yaxın perspektivdə onun elementlərinin özümüzə məxsus tətbiqini ortaya qoyacağıq.

**– Rüfət bəy, bir yaşınızı qəzetimiz adından təbrik edir, Azərbaycan naminə gördüyünüz faydalı işlərinizdə sizə yeni uğurlar diləyirik.**

– Yubileyimizdə bizim yanımızda olduğuna görə Azərbaycanın aparıcı və ənənəvi, eyni zamanda, elektron xəbər yayımı istiqamətini də tətbiq edən “Xalq qəzeti”nin kollektivinə təşəkkürümü bildirirəm. Oxucu və izləyicilərə xəbərin ilk və etibarlı ünvanı kimi məhz sizin platformanıza üz tutmalarını tövsiyə edirəm.

*Söhbəti qələmə aldı:*
***İ.HƏSƏNQALA***
***XQ***

## 1 yaşlı “AnewZ”in hədəfləri:

* Azərbaycan və regionun səsini ingilisdilli auditoriyaya çatdırmaq;

* Geosiyasi informasiya mübarizəsində milli maraqları önə çıxarmaq;

* Qlobal xəbər və analitika sahəsində alternativ baxış təqdim etmək;

* Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqin səsini Bakıdan dünyaya yaymaq;

* Beynəlxalq təcrübəli jurnalistləri cəlb etməklə yüksək standartlara nail olmaq.






# Azərbaycan–Türkiyə: terrorsuz Türk dünyası strategiyası

**II məqalə**



### XX əsrdə Azərbaycan dövlətçiliyinə qarşı terror

Keçən yüzil Azərbaycan və azərbaycanlılar üçün xalq, ölkə və dövlət kimi əvvəlki dönəmlərdən daha genişmiqyaslı və pozucu xarakterli zaman oldu. XIX əsrin sonlarında yaradılmış erməni terror qruplarına xüsusi tapşırıq verib, onları antitürk (antiazərbaycanlı) ruhunda vəhşiləşdirən dairələr iki aspektdə çox hiyləgər davrandılar.

Birincisi, özlərinin Türk (Azərbaycan) dövlətçiliyinə olan qatı düşmən mövqelərini ört-basdır etdilər. Onlar pərdəarxasından prosesləri idarə edirdilər.

İkincisi, Qafqaz da daxil olmaqla ənənəvi türk yerləşim məkanlarında etnik ayrı-seçkiliyi körükləyir, onu uzun sürə biləcək qarşıdurma müstəvisinə sürükləyirdilər. Burada başlıca məqsəd regionda həmişə aparıcı olmuş Azərbaycan (türk) dövlətçiliyinin nümunə obrazını təhrif edərək, ümumiyyətlə, bu qövmün dövlət qura bilmədiyi fikri formalaşdırmaqdan ibarət idi.

Üçüncüsü, hərbi və terror təsirləri vasitəsilə ənənəvi Azərbaycan dövləti, mədəni, coğrafi, demoqrafik, dini məkanında "süni erməni mühiti" yaratmaq əsas hədəflərdən idi.

Dördüncüsü, müxtəlif soyqırımı, deportasiya, demoqrafik, mədəni süni mühiti yaratmaq prosesindən türklərdən boşalan məskunlaşma ərazilərində qondarma erməni dövləti quraşdırmağa çalışmaq başlıca siyasi, ideoloji və geosiyasi məqsəd idi.

Beşincisi, bu dağıdıcı prosesin bizim üçün daha faciəvi tərəfi Azərbaycanı ərazi, siyasi məkan, geosiyasi tamlıq və mədəni-demoqrafik yerləşim olaraq Cənub və Şimal hissələrinə böldükdən sonra, xüsusi olaraq Qərbi Azərbaycan probelmini yaratdılar. Qərbi Azərbaycandan soydaşlarımızı dalğa-dalğa müxtəlif bəhanələrlə deportasiya etməklə bütövlükdə dövlətçilik, məfkurəvilik və demoqrafik təkamül ənənələrimizin tarixi ritmini pozdular.

Bu səbəblərdən Qərbi Azərbaycan indi Azərbaycanın müstəqilliyi baxımından tale və qədər məsələsidir. Onun aktuallığı müxtəlif variantlardan seçim etməklə bağlı deyildir – zərurətdir, zamanın tələbidir. Bu anlamda Azərbaycanın dövlətçilik və bütövlük taleyi Qərbi Azərbaycan istiqamətində fəaliyyətimizlə birbaşa əlaqəlidir. O, dövlət və xalq üçün strateji məsələdir.

Vurğuladığımız bu tezislərin ümumi işığında XX əsrdə Azərbaycana qarşı törədilən terror proseslərinə qısaca nəzər salaq.

### XX əsrin ilk iki onilliyi: antiAzərbaycan siyasətinin yeni obrazı

XIX əsrdə başladılan antiAzərbaycan siyasi xətti XX əsrin əvvəllərindən yeni forma və məzmun aldı. Bu, kənar qüvvələrin ciddi dəstəyi ilə yaradılan bir neçə terror dəstələrinin fəaliyyəti aktivləşdirməsi vasitəsilə həyata keçirildi. İlk dalğa 1905-1907-ci illərdə oldu. Sonrakı illərdə bu proses davam etdirildi və 1918-1920-ci illərdə daha sistemli, amansız və əhatəli miqyas aldı. Bu dönəmin əsas xüsusiyyətlərinin tarixi, fəlsəfi və politoloji özəlliklərinə baxaq.

Hər şeydən öncə, erməni terror çətələri azərbaycanlıları deportasiya edir, onları fiziki məhv etməyə çalışır və boşaltdıqları yerlərə kənardan erməniləri gətirirdilər. Bundan dərhal sonra toponimləri erməniləşdirir və oranı "qədim erməni torpağı" elan edirdilər.

Bu təxribatçı və vəhşi addımı dərhal Qərbdə və Rusiyada dəstəkləyir və xəritələrə "qədim erməni torpaqları"nı salırdılar. Erməni terroru 1905-1907-ci illərdə dövlət qura bilmədi, lakin demoqrafik baxımdan xeyli dəyişiklik etdi.

Birinci Dünya müharibəsinin başlaması ilə bu prosesə erməni havadarları yeni məzmun və əhatə verdilər. Xüsusi olaraq Azərbaycanın siyasi-coğrafi və demoqrafik-mədəni məkanında vəhşiliklər, sürgünlkər, deportasiyalar və zorakılıqla ərazi zəbt etmək normaya çevrildi. O dövrdə az qala bunun əksini düşünənləri "sivilliyin düşməni" adlandırırdılar.

Həm Avropa, həm də Rusiya beynəlxalq səviyyədə ermənilərə hər cür dəstək verməklə son 200 ilin ərazi, toponim, mədəniyyət məkanı kimi bizim üçün böyük itkisi olan "Ermənistan" yaratdılar. Onu tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycan ərazilərində qondardılar. Bununla geosiyasi baxımdan iki istiqamətdə proseslərə təkan verdilər.

Birincisi, "Qərbi Azərbaycan" və "Qərbi azərbaycanlılar" terminlərini, anlamlarını, fəlsəfəsini, siyasi dərkini rəsmi gündəmdən çıxarıb "Ermənistan" termini ilə əvəz etdilər. Hətta indi də Azərbaycanın özündə çox az qism "Qərbi Azərbaycan" deyir, əsasən "Ermənistan" sözündən istifadə edirlər.

İkincisi, erməni terrorunu ermənilərin azadlıq uğrunda qətiyyətli mübarizəsi kimi təbliğ və təşviq etdilər. Bununla onun real neqativ tarixi missiyasını pərdələdilər. Sonrakı dönəmlərdə daha vəhşicəsinə Azərbaycan dövlətçiliyinə qarşı terror dalğası yaratdılar.

Üçüncüsü, ədalətsizliyi, antisivilliyi və dövlətə, xalqa qarşı olan terror əməllərini bu cür dəstəkləməklə qapalı siyasi rejim olan SSRİ dönəmində Azərbaycan Respublikasına, xalqına, mədəniyyətinə və ərazisinə qarşı yeni terror dalğalarının meydana gəlməsinə geniş siyasi, rəsmi və "hüquqi" zəmin hazırladılar. Bu mərhələni şərti olaraq üç altdönəmə ayırmaq olar.

### 1922–1939-cu illərdə terror dalğası

Həmin müddətdə Azərbaycana qarşı terror dalğası nəinki səngiməmiş, hətta, yeni-yeni hiyləgər formada yaradılmışdır. Bu müddətdə Ermənistan adlanan qondarma dövlətin ərazisi Azərbaycan torpaqlarının hesabına iki dəfədən çox genişləndirilmişdir. Bunu sovetlər "qardaşlıq", "məzlum erməni xalqına yardım" və başqa ibarəli sözlər altında etmişlər.

Paralel olaraq, Qərbin yaratdığı beynəlxalq təşkilatlarda (Millətlər Liqasında) və SSRİ daxilində hər hansı rəsmi sənədlərdə nə "Qərbi Azərbaycan", nə də "Qərbi azərbaycanlıların deportasiyası" ifadələri yer almamışdır. Heç "Ermənistandan deportasiya edilmiş azərbaycanlılar" ifadəsi də yoxdur. Yəni həmin dönəmdə Qərbi azərbaycanlıların soyqırımı və dəfələrlə deportasiya olunmaları tamamilə inkar edilmişdir. Elə təəssürat yaradılmışdır ki, dünyada "Qərbi Azərbaycan" və "Qərbi azərbaycanlılar" olmamışlar. Deməli, məqsədli şəkildə Qərb və Rusiya imperialist dairələri birləşib Azərbaycan dövlətçiliyini yox etmək istiqamətində fəaliyyət göstərmişlər.

### 1948–1953 və 1988–1993-cü illər: terrorun davamı

Həmin mərhələlərdə Azərbaycana qarşı olan terror hadisələrini birləşdirən siyasi və ideoloji xarakterli məqamlar vardır. Hər iki dönəmdə azərbaycanlıları məskunlaşdıqları yerlərdən minbir əziyyət və zorakılıqla qovmaqla oraları "əzəli erməni torpaqlarına çevirmək" planları həyata keçirilmişdir. 1948-1953-cü illər əsasən Qərbi Azərbaycandan deportasiyaları əhatə edirsə, 1988-1993-cü illərdə ona Qarabağ da daxil edilmişdir. Bu onu göstərir ki, ermənilərin havadarları Azərbaycan dövlətinə və azərbaycanlı kimliyinə qarşı terroru genişləndirmək və ona yeni məzmun vermək planları qurmuşlar. Başlıca niyyət – Azərbaycan dövlətçiliyini zəiflətmək, onun yerində erməni dövlətçiliyini möhkəmləndirməkdən ibarət olmuşdur.

Bununla qısa da olsa, Azərbaycana qarşı yüzillər törədilən teror hadisələrinin ümumi məntiqi, məqsədi və onun reallaşdırılması planlarının strateji aspektini aydınlaşdırmaq imkanı yaranır. Məsələnin bu tərəfinə Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin verdikləri qiymət əsasında baxmaq zəruridir.

### Ulu öndərin ədalətli yanaşması

Azərbaycana qarşı uzun müddət davam edən terrorun dövlətçilik kontekstində ən dolğun və ədalətli, real faktlara əsaslanan siyasi və geosiyasi qiymətini Ulu öndər Heydər Əliyev 2002-ci ildə Goranboy rayonunda yeni salınmış Aşağı Ağcakənd qəsəbəsinin açılışındakı nitqində vermişdir. Heydər Əliyev demişdir: "...1998-ci ildə mən ermənilərin indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı ədalətsiz hərəkətləri, azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiya olunması ilə əlaqədar fərman vermişdim. Bu deportasiyanın 50 illiyi münasibətilə öz fikirlərimi bildirmişdim. Amma bu deportasiya, azərbaycanlıların Ermənistandan deportasiyası ilk hadisə deyildi... Bunu heç kəs inkar edə bilməz...".

Sonra fikirlərinə davam edərək Ulu öndər vurğulamışdır: "1918-ci ildə onlar azərbaycanlılarla ermənilər arasında qanlı vuruşlara şərait yaratdılar. Azərbaycanlıları Ermənistan ərazisində və başqa yerlərdə qırmağa başladılar və qırğın yaratdılar. İndiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar, demək olar ki, o vaxtdan öz doğma torpaqlarını tərk etməyə məcbur oldular. Hər il tədricən Ermənistandan qədim ata-baba torpaqlarını tərk edib Azərbaycanın ərazisinə köçmək məcburiyyətində oldular".

Bu gedişatın nəticəsi o oldu ki, "...getdikcə ermənilər azərbaycanlılara məxsus olan torpağı, Ermənistan adlanan yeri zəbt edəndən sonra orada özlərinə dövlət yaratmağa, əhalinin çoxluğunu təmin etməyə çalışdılar. Buna da nail oldular. Sonrakı dövrdə də Azərbaycana Ermənistan ərazisindən azərbaycanlıların axını davam edibdir".

Deməli, Ulu öndər XX əsrin birinci yarısında Azərbaycana və azərbaycanlılara qarşı olan terror hadisələrinə vahid bucaq altında baxaraq çox mühüm siyasi nəticələr çıxarmışdır. O cümlədən, 1948-ci ildə başlayan növbəti terror dalğasını dəqiq təqdim etmişdir. Heydər Əliyev demişdir: "...1948-ci ildə SSRİ hökumətinin qərarı ilə təəssüflər olsun ki, ovaxtkı Azərbaycan hökumətinin də razılığı ilə – azərbaycanlıları kütləvi olaraq Ermənistan ərazisindən deportasiya etdilər. Özü də çox ağır şəraitdə–insanlara öz mal-mülklərini də yığışdırmağa imkan vermədilər. Dağlıq yerdə yaşayan adamları yük vaqonlarına doldurub, dəmir yolu ilə gətirib Azərbaycanın Muğan, Mil zonasına – çöllərə tökdülər. Məlumdur ki, deportasiya olunanların bəzisi orada qırıldı, bəzisi sonra yenə də müəyyən yollarla öz torpaqlarına, öz evlərinə qayıtdı. Çünki ürəkləri davam gətirə bilmirdi. Böyük bir qismi də Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatına qoşuldu və Azərbaycanda yaşadı".

Vurğuladığı faktların dövlətçilik kontekstində siyasi və geosiyasi nəticələrini də Ümummilli lider dəqiq ifadə etmişdir. Heydər Əliyev aşağıdakı kimi ümumiləşdirici qənaətini ifadə etmişdir: "Beləliklə, get-gedə Ermənistan ərazisində azərbaycanlıların sayı azaldı, azaldı, azaldı. Nəhayət, ermənilər 1988-ci ildə Ermənistan–Azərbaycan münaqişəsini başlayaraq, dərhal azərbaycanlıları Ermənistan ərazisindən tamamilə çıxartdılar...".

Beləliklə, Heydər Əliyev faktiki olaraq XX əsr boyu Azərbaycana qarşı törədilən terror olaylarının ümumi məzmun və məqsəd xarakterli olduğunu tam dəqiqliklə ifadə etmişdir. 1905-ci ildən başlayan bu proses həmişə öncədən xüsusi hazırlanmış və konkret məqsəd daşıyan planlar əsasında həyata keçirildiyini aydın ifadə etmişdir. Yəni bu terror birbaşa Azərbaycan dövlətçiliyinə, xalqımıza, mədəniyyətimizə, ərazimizə və etnik kimliyimizə qarşı yönəldilmişdir.

Təbii ki, özlüyündə böyük məsələdir və onun mənfi hallarının aradan qaldırılması yalnız düzgün strateji kurs sayəsində mümkün ola bilər. O cümlədən bu məsələyə imperialist dairələrin bütövlükdə Türk Dünyasına qarşı əsrlərlə həyata keçirdikləri pozucu siyasətin kontekstində baxmaq zəruridir. Problemin bu tərəfi üzərində geniş dayanmaq lazım gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Beynəlxalq siyasətdə hər jestin, hər sözün və hətta seçilən məkanın mənası olur. Məhz bu baxımdan, İrəvanda keçirilən "Avronest" Parlament Assambleyası Avropa İttifaqı (Aİ) ilə Gürcüstan arasında həssas olan münasibətlər körpüsünün təməl sütunlarını sarsıdan diplomatik zəlzələnin mərkəzinə çevrildi. 2025-ci il oktyabrın 30-da qəbul edilən sərt qətnamə Tbilisini açıq şəkildə "demokratiyadan geri dönüşdə" ittiham edərək Brüsselin uzun müddət səsləndirdiyi, lakin Gürcüstanın milli suverenlik qalxanı arxasında cavablandırdığı bütün tələbləri, o cümlədən "LGBT hüquqlarının təminatı" kimi həssas məsələni yenidən gündəmə gətirib.**

# Gürcüstan "Avronest"i şantajda təqsirləndirir

## *Tbilisi İrəvandakı mübahisəli qətnamədən sonra Aİ-ni qərəzli mövqedə ittiham edir*

Bu, iki paytaxt arasındakı diplomatik gərginliyin yeni pərdəsi sayılmaz. Bu, daha dərin, mühüm toqquşmanın Gürcüstanın milli kimliyi, mühafizəkar dəyərləri və suveren maraqları ilə Avropa İttifaqının "ümumbəşəri" hesab etdiyi liberal dəyərlər sistemi arasındakı sivilizasiya xəttinin qırılmasıdır. İrəvanda alqışlanan qətnamə Tbilisidə şantaj kimi qəbul edildi və qarşıdurma həm Gürcüstanın Avropa yolunun taleyini, həm də Aİ-nin qonşuluq siyasətinin sərhədlərini, elastikliyini sual altına alan taleyüklü prosesin başlanğıcını qoydu.

İrəvanda qəbul edilən sənəd diplomatik eufemizmlərdən (sözləri yumşaltmaq sənəti) uzaq, kəskin və birbaşa ittihamlarla zəngindir. Qətnamədə "saxtalaşdırılmış seçkilər", "siyasi məhbuslar" və "vətəndaş cəmiyyətinə təzyiqlər" kimi ifadələr Brüsselin Tbilisiyə qarşı səbir kasasının daşdığını göstərən qırmızı siqnallardır. Saxarov mükafatı laureatı Mziya Amaglobelinin adının çəkilərək onun dərhal azadlığa buraxılmasının tələb edilməsi isə ümumi ittihamları konkretləşdirir və Gürcüstan hökumətini beynəlxalq ictimaiyyət qarşısında çətin vəziyyətə salmaq məqsədi daşıyır. Bu, Avropa Parlamentinin Gürcüstanın daxili işlərinə birbaşa müdaxilə etmək və Tbilisinin legitimliyini şübhə altına almaq üçün siyasi vasitədən istifadə etməsidir.

Siyasi hücumun kulminasiyası isə Aİ komissarı Marta Kosun bəyanatı oldu. O, Brüsselin Gürcüstan hakimiyyətinə qarşı daha sərt addımlar atmağa hazırlaşdığını və hətta Gürcüstan vətəndaşları üçün Avropaya sərbəst gediş-gəliş imkanı verən vizasız rejimin ləğvinin belə müzakirə oluna biləcəyini bəyan etdi. Bu, artıq diplomatik təzyiqin fövqündə dayanan şantaj dilidir. Vizasız rejim Gürcüstan cəmiyyətinin Avropaya inteqrasiyasının mühüm və hiss olunan nailiyyətidir. Həmin nailiyyəti hədəfə almaqla Brüssel Avropa yolunu dəstəkləyən milyonlarla sadə gürcü vətəndaşını cəzalandırmaqla hədələyir. Bu, Aİ-nin əlindəki ən güclü "çubuq"dur və onun masaya qoyulması münasibətlərin artıq geri dönülməz nöqtəyə yaxınlaşdığının göstəricisidir. Brüssel demək istəyir ki, Gürcüstan ya tamamilə onun oyun qaydalarını qəbul etməli, ya da Avropa ailəsinin ona bəxş etdiyi imtiyazları itirməyə hazır olmalıdır.

Gürcüstan tərəfinin reaksiyası da sərtliyi və barışmazlığı ilə diqqət çəkir. Parlamentin spikeri Şalva Papuaşvili cavabında "Avronest"i Gürcüstanın suverenliyinə qarşı istifadə edilən şantaj aləti adlandıraraq platformanın ölkəyə qarşı qərəzli və təhqiredici mövqe tutduğunu vurğuladı. Bu bəyanat Tbilisinin artıq Brüsselin tənqidlərinə qarşı müdafiə mövqeyindən çıxaraq, əks-hücuma keçdiyini göstərir. Gürcüstan hökuməti Aİ-nin tələblərini milli maraqlarına, cəmiyyətin mütləq əksəriyyətinin dəyərlərinə və ölkənin suveren hüquqlarına birbaşa təhdid kimi qiymətləndirir. Papuaşvilinin ritorikası "Gürcü arzusu"nun son illər yürütdüyü siyasətin məntiqi davamıdır: Gürcüstan Avropaya inteqrasiya etmək istəyir, lakin bunu öz kimliyini, mədəniyyətini və idarəçilik modelini qurban vermədən, bərabərhüquqlu tərəfdaş kimi etmək arzusundadır. Tbilisi Brüsselin təklif etdiyi yolu yeganə mümkün yol kimi qəbul etməkdən imtina edir və özünün "suveren Avropa yolu"nu cızmağa çalışır.

Brüssel və Tbilisi arasında dərinləşən siyasi qarşıdurma Gürcüstanın milli maraqları ilə Aİ-nin liberal dəyərləri arasında yaranan ziddiyyətin yeni və daha kəskin mərhələsinə çevrilib. Bu qarşıdurmanın köklərini anlamaq üçün bir neçə il geriyə, Gürcüstan hökumətinin "xarici agentlər haqqında" qanun kimi Qərbdə sərt tənqid olunan addımlar atmağa başladığı dövrə baxmaq lazımdır. Həmin addımlar Tbilisinin Qərbdən maliyyələşən vətəndaş cəmiyyəti təşkilatlarının daxili siyasətə təsirini məhdudlaşdırmaq və ölkənin suverenliyini gücləndirmək cəhdi kimi təqdim edilirdi. Brüssel üçün isə bu addımlar demokratiyanın və plüralizmin əsaslarına endirilən zərbə, avtoritarizmə doğru meylin göstəricisi idi.

Məsələnin digər həssas qatı isə məhz "LGBT hüquqları" ilə bağlı tələbdir. Gürcüstan dərin tarixi köklərə malik pravoslav mədəniyyətinə və mühafizəkar ictimai struktura sahib ölkədir. Cəmiyyətin mütləq əksəriyyəti üçün ənənəvi ailə dəyərləri toxunulmazdır. Bu kontekstdə, Aİ-nin məsələni siyasi təzyiq vasitəsinə çevirməsi hakim partiyanın əlinə güclü arqument verir. Qərb bizdən həm demokratik islahatlar, həm də milli kimliyimizə və mənəvi dəyərlərimizə zidd olan addımlar atmağı tələb edir. Bu, "Gürcü arzusu"na imkan verir ki, özünü Qərbin "mənəvi imperializminə" qarşı milli dəyərlərin müdafiəçisi kimi təqdim və mühafizəkar elektoratını səfərbər etsin. Brüssel isə öz növbəsində, insan haqlarının universallığı prinsipindən çıxış edir və namizəd ölkələrdən bu məsələdə heç bir güzəştə getməməyi tələb edir. Beləliklə, tərəflər bir-birini anlamayan və anlamaq istəməyən iki fərqli dəyər sisteminin içində kilidlənib qalırlar.



Bu qarşıdurmanın geosiyasi nəticələri isə bütün region üçün son dərəcə təhlükəli ola bilər. Birincisi, Gürcüstanın Avropaya inteqrasiya prosesinin tamamilə dalana dirənməsi ölkə daxilində dərin siyasi qeyri-sabitliyə və qütbləşməyə səbəb ola bilər.

İkincisi, Aİ ilə münasibətlərin korlanması Gürcüstanı istər-istəməz digər güc mərkəzlərinə daha çox yaxınlaşmağa sövq edə bilər. Hər nə qədər Tbilisi hökuməti özünün Qərbyönümlü olduğunu bəyan etsə də, siyasi təcrid və iqtisadi təzyiqlər onu Rusiya və ya Çin kimi liderlərlə daha sıx əməkdaşlığa məcbur edə bilər. Bu isə Brüsselin özünün strateji maraqlarına tamamilə zidd olan bir nəticə olardı. Avropa İttifaqının sərt mövqeyi, əslində Gürcüstanı itələyərək onu öz rəqiblərinin yanına göndərmiş olur.

Üçüncüsü, Gürcüstandakı proses Aİ-nin bütün Şərq Tərəfdaşlığı siyasətinin effektivliyini sual altına alır. Əgər Aİ bir zamanlar "demokratiyanın mayakı" adlandırdığı Gürcüstanla dil tapa bilmirsə, onun Ukrayna, Moldova və ya Ermənistan kimi ölkələrlə bağlı uzunmüddətli strategiyasının uğurlu olacağına kim zəmanət verə bilər? Bu hadisə Brüsselin qonşuluğundakı fərqli mədəni və siyasi reallıqları nəzərə almadan, hamıya eyni liberal şablonu tətbiq etməyə çalışmasının nə qədər əks-effekt verə biləcəyini göstərir.

İrəvanda açılan "tənqid atəşi" Tbilisidə müqavimət divarını daha da möhkəmləndirdi və Brüssellə Gürcüstan arasında körpülərin uçurulması prosesini sürətləndirdi. Qarşıdakı aylar tərəflərin qarşıdurmadan necə çıxacağını göstərəcək. Ya Aİ öz qonşuluq siyasətində daha çox elastiklik və praqmatizm nümayiş etdirərək Tbilisiyə güzəştə getməyin yollarını axtaracaq, ya da Gürcüstan hökuməti Avropa ilə münasibətlərin tamamilə qırılmasının ölkə üçün yaradacağı fəlakətli nəticələri anlayaraq bəzi tələbləri yerinə yetirməyə məcbur olacaq. Lakin ən real görünən məsələ "soyuq müharibə"nin bir müddət daha davam etməsi və nəticədə həm Gürcüstanın, həm də Aİ-nin strateji mövqelərinin zəifləməsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# ADA İbtidai Məktəbində Payız festivalı





**ADA Universitetinin nəzdində fəaliyyət göstərən ADA İbtidai Məktəbində artıq ənənə halını alan Payız festivalı – Məhsul bayramı böyük coşqu ilə qeyd edilib.**




Universitetdən verilən məlumatda bildirilib ki, tarixən xalqımızın ənənələri sırasında xüsusi yer tutan məhsul bayramı bu gün də bolluğun, ruzinin, bərəkətin və birliyin simvolu kimi qeyd olunur. Festivalın keçirilməsində əsas məqsəd ADA ailəsini və tərəfdaşlarını bir araya gətirərək şagirdlər və tələbələrdə məsuliyyətli vətəndaşlıq duyğusunu formalaşdırmaq, milli-mənəvi dəyərləri təbliğ etmək, xeyriyyəçilik adətlərimizi yaşatmaq və erkən yaşlardan cəmiyyət üçün faydalı şəxsiyyətlər yetişdirməkdir.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, dövlət rəsmiləri, ADA Universitetinin və ADA Məktəbinin müəllimləri, tələbələri, tərəfdaş şirkətlər, valideynlər və məzunlar bir araya gəliblər.

ADA Universitetinin rektoru Hafiz Paşayev tədbir iştirakçılarını salamlayaraq, müxtəlif sahələrdən olan insanların bu bayramda ümumi məqsəd ətrafında bir araya gəldiklərini vurğulayıb. O, hər il miqyası və əhatə dairəsi genişlənən bu vacib təşəbbüsün gələcəkdə də davamlı olacağına inandığını qeyd edib. Rəsmi hissədən sonra tədbir rəngarəng bədii proqramla davam edib. ADA Universitetinin tələbələri və məktəbin şagirdləri tərəfindən hazırlanan çıxışlar, musiqi və rəqs ifaları bayram ab-havasını daha da canlandırıb.

Bayram çərçivəsində tələbə və şagirdlərin əl işləri, eləcə də tərəfdaş şirkətlərin məhsullarından ibarət xeyriyyə məqsədli sərgi-satış təşkil olunub. Yığılan vəsait ADA İbtidai Məktəbinin şagirdləri və Azərbaycan Uşaq Fondu ilə birgə seçiləcək təhsil məqsədli sosial layihələrin həyata keçirilməsinə yönəldiləcək. Bu təşəbbüslər Məhsul bayramının mənəvi dəyərini daha da artıraraq paylaşma və xeyirxahlıq ruhunu yaşadır.

Ötən il keçirilən Məhsul bayramı zamanı toplanan vəsait 1 saylı Ailə tipli kiçik Qrup evi sosial xidmət müəssisəsində təşkil olunan təhsil layihələrinin reallaşdırılmasına sərf edilib.

*XQ*

# Avropa–Azərbaycan Məktəbində “EcoMind 2025” konfransı





**Noyabrın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Avropa Azərbaycan Məktəbində keçirilən “EcoMind 2025” konfransında iştirak edib.**



IDEA İctimai Birliyi və Avropa Azərbaycan Məktəbinin birgə təşkilatçılığı ilə baş tutan konfransın məqsədi uşaq və gənclər arasında ekoloji məsuliyyətin təbliği, məktəblərdə təhsil prosesində ətraf mühitə dair biliklərin və yaşıl düşüncə tərzinin təşviqidir.

Əvvəlcə Leyla Əliyeva məktəblilərin ətraf mühit problemlərinə, onun həlli yollarına, təbiətin qorunmasına dair ideyalarını əks etdirən əl işlərindən ibarət sərgiyə baxış keçirib. Sonra konfransın açılış mərasimində çıxış edən Leyla Əliyeva gənclərin ekoloji təşəbbüslərdə fəal iştirakının və ətraf mühitin qorunması prosesində onların məsuliyyətinin vacibliyinin vurğulayıb. O qeyd edib ki, hər bir məktəblinin ekoloji dəyərlərlə böyüməsi ölkənin “yaşıl gələcəyi”nin təminatıdır.

Digər çıxış edənlər təhsil müəssisələrində ekoloji məsuliyyətin artırılması, gənclərin ekoloji təşəbbüslərdə iştirakı və dayanıqlı inkişaf məqsədlərinin tədrisə inteqrasiyası istiqamətində öz fikirlərini bölüşüblər.

Məclisdə bədii hissə də nümayiş etdirilib.

Qeyd edək ki, ilk dəfə təşkil olunan “EcoMind 2025” konfransı gələcəkdə ənənəvi xarakter daşıyacaq və təhsil sahəsində ekoloji istiqamətdə əməkdaşlıq üçün yeni platforma formalaşdıracaq. Tədbirdə 30 universitet, 20 dövlət məktəbi, 21 özəl və beynəlxalq təhsil müəssisəsindən 450-dən çox iştirakçı bir araya gəlib.

*XQ*

# Daş Salnamə Muzeyində sərgilər

**Tədbirdə “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.**



Bakının mədəni həyatını zənginləşdirən “Art Weekend” festivalı çərçivəsində Daş Salnamə Muzeyində “Baku Steel Art 2025” və “Son dalğa” adlı sərgilər açılıb.

Tədbirdə “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər. Qonaqlar sərgi ilə tanış olublar.

“Baku Steel Art 2025” sərgisi poladla sənətin görüş nöqtəsi, gələcək nəsillərə ilham verəcək bir yaradıcılıq körpüsüdür. Nümayiş olunan işlərdə texnologiyanın sərtliyi ilə yaradıcılığın zərifliyi bir araya gəlir. Sərgidə sənətkarlar polada yeni nəfəs verərək, onu orijinal və unikal sənət əsərlərinə çeviriblər. Müxtəlif bədii yanaşmalarla yaradılan heykəltəraşlıq nümunələri poladla sənətin estetik dəyərlərini birləşdirir və müasir incəsənətin yeni ifadə formalarını ortaya qoyur.



Sərgidə yer alan “Lövbər” əsərinin müəllifi Zamik Rzayev öz əl işi barədə məlumat verərək deyib: “Xəzər dənizinin qurumasından təsirlənərək bu əsəri yaratmışam. Göründüyü kimi, lövbər kənarda yerləşir və aşağı hissədə güzgüdən istifadə olunub. Bunun səbəbi hər kəsin ekologiyanın gözəlləşdirilməsi ilə bağlı empatiya qurmasına şərait yaratmaqdır.”

Rumıniyalı heykəltəraş, “Torpaq və od” əsərinin müəllifi Çiprian Hopirtean isə sərgidə təqdim etdiyi işin müharibənin hekayəsindən bəhs etdiyini vurğulayıb. Bu layihənin Ağdam Cümə Məscidinin bərpası üzərində ikiillik təcrübə əsasında formalaşdığını diqqətə çatdıran heykəltəraş deyib: “Məscidin divarları güllə izləri və yanıq ləkələri ilə doludur. Çünki orada müharibənin nələr edə biləcəyinin şahidi oldum”.

“Son dalğa” adlı sərgidə heykəltaraşlıq və instalyasiya əsərləri ilə tanınan Elvin Nəbizadənin kinetik instalyasiyası təqdim olunub. Əsər səs və hərəkət arasında açılan iki paralel dünyaya dəvət edir.





*XQ*

# “Nə qədər kifayətdir?” tamaşasına baxış



**“Bakıya uçuş. İncəsənət həftəsonu. Gələcəyi İNDİ Duy” (Fly to Baku. Art Weekend. Sense the Future NOW) layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında “Nə qədər kifayətdir?” adlı inklüziv rəqs tamaşası təqdim olunub.**

Tədbirdə “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

“DanceAbility Azerbaijan”ın kollektivi tərəfindən hazırlanan teatr-rəqs performansı dövrümüzün ekoloji və sosial çağırışlarına bədii cavab olub.

COP29-un 2024-cü ildə Bakıda keçirilməsi kontekstində yaradılan tamaşa aldığımız geyimlərdən tutmuş istehsal etdiyimiz tullantılara qədər gündəlik seçimlərimizin planetin vəziyyətinə və bəşəriyyətin gələcəyinə təsirini tədqiq edir.

“DanceAbility Azerbaijan” şirkətinin direktoru Nigar Sultanova deyib ki, tamaşanın ideyası 2024-cü ilin əsas mövzusuna çevrilən iqlim dəyişikliyi və ətraf mühit məsələlərinə ictimai diqqət dalğasında yaranıb. İdeyanın əsasını iştirakçıların illər ərzində diqqətlə qoruduqları əşyalarla bağlı şəxsi hekayələri təşkil edib.

Problemi araşdırarkən “DanceAbility Azerbaijan” komandası hər il dünyada təxminən 92 milyon ton tekstil tullantısının əmələ gəldiyini və insanların əvvəlkindən orta hesabla 36 faiz daha az geyim geyindiyini öyrənib. Məhz bu, kollektivi istehlak mədəniyyətinə və davamlı inkişafa həsr olunmuş “Nə qədər kifayətdir?” adlı tamaşanın yaradılmasına ruhlandırıb.




Tamaşa insan, istehlak və planetin ən vacib resurslarından olan su arasındakı əlaqəni tədqiq edir. Hərəkət, hekayə danışma və kollektiv yaddaş vasitəsilə tamaşa həddindən artıq istehlak, çirkləndirmə və okeanların sağlamlığı arasındakı qarşılıqlı əlaqəni açır, davamlı inkişafı və sirkulyar iqtisadiyyat ideyalarını təşviq edir.

Tədbirin sonunda Nigar Sultanova peşəkar və həvəskar rəqqasları, müxtəlif qabiliyyətlərə və təcrübəyə malik insanları bir araya gətirən layihənin reallizəsi üçün dəstəyə və şərait yaradıldığına görə Heydər Əliyev Fonduna və Leyla Əliyevaya minnətdarlığını bildirib.

*XQ*

# Azərbaycanın informasiya savaşında növbəti uğuru

*Prezident İlham Əliyevin “La Repubblica” qəzetinə müsahibəsində Qərbin səlibçi təbliğatının mahiyyəti açıqlanmışdı*



**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan parlaq qələbə ölkəmizin müasir tarixində dönüş nöqtəsi olmaqla bərabər, beynəlxalq münasibətlər sistemində də yeni reallıqlar yaratdı. Dövlətimizin başçısı savaş dövründə informasiya cəbhəsində də yüksək səviyyəli diplomatik və siyasi çeviklik nümayiş etdirdi. İtaliyanın nüfuzlu “La Repubblica” qəzetinə verdiyi müsahibə məhz bu həqiqəti bir daha təsdiqlədi. Ölkə rəhbəri bu müsahibə ilə Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesinin həm hüquqi, həm də mənəvi əsasları haqqında fikirlərini beynəlxalq aləmə çatdırdı.**

Azərbaycan liderinin “La Repubblica”-ya vurğuladığı “Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq” söyləməsi, əslində, milli dövlətin 30 illik səbir, müdriklik və prinsipiallıqla davam etdirdiyi xəttin kulminasiya məqamı idi. Azərbaycan heç vaxt müharibə istəmədi, danışıqlar yolu ilə ədalətin bərpasına böyük ümid bəslədi. Lakin Ermənistanın ardıcıl təxribatları, xüsusilə 2020-ci ilin sentyabrında hərbi hücumu respublikamızı öz suveren hüquqlarını qorumaq üçün cavab tədbirləri görməyə məcbur etdi. Dövlətimizin başçısının dediyi kimi, “Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq, biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik”. Bu ifadə Azərbaycanın qələbəsinin təməlində revanşizm yox, ədalət və beynəlxalq hüquq normalarına sadiqliyin dayandığını sübut edir.

Ölkə rəhbəri bu müsahibədə beynəlxalq münasibətlər sistemindəki ziddiyyətləri də müdrikliklə diqqətə çatdırırdı. Prezident vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin beynəlxalq vasitəçilərin acizliyi üzündən həmin sənədlər uzun illər kağız üzərində qalmışdı.

Azərbaycan lideri bu situasiyanı “vasitəçilər neytral qalmasalar, vasitəçi ola bilməzlər” ifadəsi ilə aydın şəkildə xarakterizə edirdi. Bu cümlə yalnız diplomatik tənqid deyildi, həm də beynəlxalq münasibətlərdə obyektivliyin itirilməsinin doğurduğu təhlükənin xəbərdarlığı idi. Azərbaycan 30 il ərzində beynəlxalq hüququn prinsiplərinə sadiq qaldı, lakin dünya tarixi ədalətsizliyə göz yumdu. Nəticədə, ölkəmiz Vətən müharibəsində beynəlxalq hüququ reallığa çevirdi, ərazi bütövlüyünü “dəmir yumruq” hesabına bərpa etməklə BMT qətnamələrinin icrasını faktiki olaraq gerçəkləşdirdi.

Müsahibənin ən mühüm istiqamətlərindən biri də qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin qiymətləndirilməsi idi. Prezident İlham Əliyev bu dəstəyi “çox səmərəli” adlandıraraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycanın yanındayıq” bəyanatının savaşın ilk saatlarından həm regional, həm də qlobal miqyasda mühüm siyasi siqnal olduğunu bildirdi. Bu bəyanat iki dövlət arasındakı strateji müttəfiqliyin təsdiqi olmaqla bərabər, eyni zamanda, regionda güc balansının yenidən qurulmasının başlanğıcı idi. İlham Əliyev bunun hərbi deyil, mənəvi dəstək olduğunu, amma kifayət qədər güclü siyasi məna daşıdığını vurğulayırdı. Türkiyənin bu mövqeyi beynəlxalq ictimaiyyətə Azərbaycanın haqq, ədalət uğurunda savaşdığını, ölkəmizin azadlıq mübarizəsi apardığını göstərirdi. Bu dəstək, eyni zamanda, Türk dünyası birliyinin real siyasi təzahürünə çevrildi.

Dövlətimizin başçısı müsahibədə toxunduğu vacib məsələlərdən biri də “Azərbaycan ordusunun tərkibində guya muzdlu döyüşçülərin olması” barədə yayılmış əsassız iddialar idi. Prezident bu iddiaları faktlarla təkzib edərək “bizə bununla bağlı heç bir dəlil təqdim olunmayıb. Bu, indiyədək sübuta yetirilməyib”, – deyə vurğuladı. Ölkə rəhbəri daha sonra dedi: “Azərbaycan ordusu 100 mindən artıq nizami əsgərdən ibarətdir və lazım gəlsə, bundan bir neçə dəfə çox qüvvə səfərbər oluna bilər... Bizim müasir silahlarımız, mükəmməl texnologiyamız və yüksək döyüş ruhumuz var”. Prezident bu bəyanatı ilə bir tərəfdən Azərbaycan ordusunun peşəkarlığını və texnoloji üstünlüyünü vurğulayır, digər tərəfdən, Qərb mediasında yayılan dezinformasiyaların siyasi məqsədli olduğunu göstərirdi.

Azərbaycan lideri, əslində, bu həqiqətlə informasiya müharibəsində respublikamızın üstünlük qazandığını nümayiş etdirir, Ermənistanın və onun havadarlarının uydurduqları yalanları diqqətə çatdırırdı. Prezidentin “biz onlara kimin kim olduğunu sübut etdik” fikri isə həm mənəvi, həm də hərbi üstünlüyün ifadəsi idi. Bu, savaşda qazanılmış qələbə olmaqla bərabər, həm də beynəlxalq informasiya məkanında Azərbaycanın haqq səsinin qalib gəlməsindən xəbər verirdi.

Prezident İlham Əliyev Qarabağda erməni əhalisinin çoxluq təşkil etməsi barədə sualı da tarixi faktlara əsaslanmaqla cavablandırdı: “1970-ci illərin sonunda Dağlıq Qarabağ əhalisinin 25 faizi azərbaycanlı idi, lakin Ermənistanın apardığı etnik təmizləmə nəticəsində bu bölgədə bir nəfər olsun belə azərbaycanlı qalmadı. Xüsusilə Şuşa kimi tarixi bir şəhərin 98 faiz azərbaycanlı əhalisinin hamısı qovuldu”.

Bu faktların Avropa auditoriyasına çatdırılması təsadüfi deyildi. Belə ki, Prezident İlham Əliyev Qərb oxucusuna bölgədə “ermənilərin əzəli torpaqları” kimi təqdim edilən ərazilərin, əslində, süni şəkildə erməniləşdirilmiş yaşayış sahələri olduğunu açıq şəkildə diqqətə çatdırır, onların Qarabağa köçürülməsinin 1805-ci il “Kürəkçay” müqaviləsindən sonrakı rus imperiyasının siyasəti nəticəsində baş verdiyini bildirirdi. Bu faktlar tarixi ədaləti, eyni zamanda, Azərbaycanın mədəni irsinin bərpası hüququnu təsdiqləyirdi.

Prezidentin müsahibədə vurğuladığı “ermənilər bizim vətəndaşlarımızdır, onlar sülh və ləyaqət içində yaşayacaqlar” fikri isə postmüharibə mərhələsinin ideoloji bünövrəsi idi. Bu, sülhə yönələn milli siyasətin bəyanatı kimi diqqət çəkirdi. Bununla Azərbaycanın etnik təmizləmə aparmaq yox, 30 il əvvəl Ermənistanın törətdiyi ədalətsizliyi aradan qaldırmaq məqsədi nəzərə çarpırdı. Ölkə rəhbəri yeni mərhələdə Qarabağda yaşayacaq hər kəsə bərabər hüquq və təhlükəsiz şərait yaradılacağını dövlət siyasətinin prioritetinə çevriləcəyini bildirirdi.

Azərbaycan liderinin “La Repubblica”ya müsahibəsi yuxarıda vurğulananlarla bərabər, həm də Azərbaycanın gələcək baxışını əks etdirirdi. Prezident İlham Əliyev bir tərəfdən müharibənin gedişində prinsipial mövqe göstərir, digər tərəfdən isə postmünaqişə dövrü üçün inteqrasiya və sülh gündəliyini formalaşdırırdı. Onun “Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi reallaşdırılacaq, onların maddi vəziyyəti daha yaxşı olacaq” sözləri Azərbaycanın sivil, humanist dövlət siyasətinin bariz ifadəsi kimi səslənir, perspektivdə isə bu istiqamətdə gerçəkləşdiriləcəyi uğurlu layihələrdən xəbər verirdi.

Xatırladaq ki, bu cür yanaşma müharibədən sonra bölgədə davamlı sülhün bərqərar olunması üçün əsas ideoloji xətt idi. Belə bir dövrdə Azərbaycan tarixi ədalətə əsaslanan regional inteqrasiya modeli təşəbbüsünü irəli sürdü. Bu isə beynəlxalq ictimaiyyət üçün Azərbaycanın revanşist, təcavüzkar dövlət olmadığı, ədalətli sülhün tərəfində dayandığı haqqında dünyaya mühüm mesajı idi.

Prezident İlham Əliyev “La Repubblica”ya müsahibəsində müharibənin gedişini izah etməklə bərabər, Qərb auditoriyasına respublikamızın haqlı mövqeyinin siyasi, hüquqi və tarixi əsaslarını da aydın şəkildə çatdırdı. Bir sözlə, bu müsahibə Azərbaycanın beynəlxalq informasiya məkanındakı manifesti, ədalətin, sülhün və haqqın səsi idi.

Beləliklə, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər sadəcə hərbi uğur deyildi, həm də milli kimliyin, dövlət suverenliyinin və tarixi ədalətin bərpası idi. “La Repubblica”nın suallarına cavab isə əvvəlki müsahibələrdə olduğu kimi, tarixi Qələbənin ideoloji təməlinin mahiyyətini dünya ictimaiyyətinə çatdıran mühüm sənəd idi. Azərbaycanın səsi artıq təkcə döyüş meydanında deyil, beynəlxalq tribunalar və media platformalarında da qətiyyətlə eşidilirdi. Bu, Prezident İlham Əliyevin diplomatik iradəsinin və milli liderlik konsepsiyasının parlaq təzahürü kimi diqqət çəkirdi.

Dövlətimizin başçısı müsahibənin sonunda jurnalistin “İtaliya ilə Sizin xüsusi tərəfdaşlığınız var. Siz bizim birinci neft və qaz təchizatçımızsınız. Müharibə daha çox qanın tökülməsinə səbəb olarsa, bunun tərəfdaşlığa təsir etməyindən qorxmursunuz?” sualına cavabında bildirdi: “Mən belə hesab etmirəm. Birincisi, mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib. Kompromislər haqqında ona sual verildikdə o, həmişə öz müqəddəratını təyinetmədən danışır...”.

Prezident İlham Əliyev daha sonra öz müqəddəratını təyinetmənin Ermənistanın üzərinə götürdüyü kompromis olmadığını bildirərək, işğalçının qarşısında BMT Təhlükəsizlik Şurası qətnamələrinin və əsas prinsiplərinin icrasının əsas vəzifə kimi durduğunu vurğuladı. Eyni zamanda, həmin vaxt Ermənistanın hələlik müharibənin dayanmasını istəmədiyini, tapdaq altında saxladığı torpaqları bütünlüklə boşaltmaq niyyətində olmadığını, bunun isə Azərbaycanla tərəfdaşları arasında hər hansı bir mürəkkəblik yaratmayacağını diqqətə çatdırdı.

***Vaqif BAYRAMOV***
***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

## 2n ḅ r

• Prezident İlham Əliyev “Twitter” hesabında Müzəffər Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərinin işğaldan azad edilməsi barədə məlumat verib.

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, 10 müxtəlif tipli topu, sursatla dolu 3 yük maşını və digər avtomobil texnikaları sıradan çıxarılıb.

• Müdafiə Nazirliyinin məlumatına görə, cəbhənin müxtəlif istiqamətlərində düşmən şəxsi heyət və hərbi texnika baxımından itkilərə məruz qalıb. Səngərlərdə və yeraltı sığınacaqlarda gizlənən lahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən 2 sursat anbarının məhv edilməsinin videogörüntüsünü yayıb.

• Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərə cəlb edilən Ermənistan silahlı qüvvələrinin 2-ci motoatıcı alayının xeyli sayda şəxsi heyəti və döyüş texnikası məhv edilib.

• Cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərən düşmən ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

• Düşmənin snayper qrupu və əlahiddə zirehli tank taborunun komandiri məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən noyabrın 3-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2488 ev, 97 yaşayış binası və 461 mülki obyekt ya-



işğalçı ordunun canlı qüvvəsi Hərbi Hava Qüvvələrimizin zərbələri ilə məhv edilib. Ermənistanın hərbi qruplaşmalarında silah-sursat, ərzaq və hərbi texnika üçün ehtiyat hissələri çatışmazlığı müşahidə olunub.

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində düşmən hücuma cəhd göstərib. Döyüş nəticəsində canlı qüvvə sarıdan itki verən işğalçı ordu Ermənistan ərazisinə çəkilməyə məcbur edilib. Düşmənin Su-25 döyüş təyyarəsi vurulub.

• Ermənistan silahlı qüvvələrinin 4 BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, bir “KUB” zenit-raket kompleksi, daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərindəki canlı qüvvəsi məhv edilib.

## 3 noyabr

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sis-

rarsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

## 4n ḅ r

• Prezident İlham Əliyev özünün “Twitter” hesabında Azərbaycan ordusunun Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etdiyini bildirib.

• Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib.

• Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 topu, “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını sıradan çıxarılıb.

• Ermənistan silahlı qüvvələrinin bir ədəd “M-55” zenit qurğusu dəqiq atəşlə vurulub.



temi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və iki ədəd sursatla dolu yük maşını sıradan çıxarılıb.

• Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

• Cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

• Azərbaycan Respublikasının Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində düşmənin kəşfiyyat-diversiya qrupu zərərsizləşdirilib.

• Müdafiə Nazirliyi Ermənistan si-

• Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı alınıb.

• İşğalçı ordunun 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti və döyüş texnikası məhv edilib.

• Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

***Mustafa KAMAL***
***XQ***



*Vətən müharibəsi qəhrəmanları*

# Azadın azadlıq savaşı

**Laçın uğrunda ölüm-dirim savaşı gedirdi. Meydanda cövlan edən tankçılar taqımının komandiri Azad Hümbətovun gözündə zərrəcə qorxu yox idi. Çünki Füzulidə, Xocavənddə və Qubadlıda odun-alovun içindən çıxmışdı, döyüş həyəcanlarını çoxdan yenmişdi. Yeganə amalı şəhid dostlarının qisasını almaq, torpaqlarımızı yağılardan təmizləmək idi.**



Heyət üzvlərinə deyirdi ki, bu, millətimizin haqq savaşıdır. Yalnız irəli getməliyik. Gedirdi də. Həyatını təhlükəyə ataraq düşmənin 5 tankını mövqelərimizə gətirməyə də nail olmuşdu (Hazırda onlardan üçü Hərbi Qənimətlər Parkında sərgilənir). Azad dəfələrlə döyüş yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxarmışdı.

"Daha az qalıb, irəli", – deyə tank heyətinə əmr etdi. Düşmənin başına od yağdıra-yağdıra irəliləyirdilər. Mexanik eniş-yoxuş bilmir, atıcı verilən koordinatlarla hədəfi dəqiq vurur, erməni postları göyə sovrulur, salamat qalan düşmən əsgərləri canlarını götürüb qaçmağa çalışırdılar.



Birdən komandirin "tərkində olduğu" tank minaya düşüb "nərilti"sini kəsdi. İgid baş leytenant ayağından yaralandı. Buna baxmayaraq, tankı idarə edən mexanikin daha ağır xəsarət aldığını görərək özündə güc topladı və yaralı döyüş yoldaşını belinə alıb kənara süründü. Sonra onu meşə ərazisinə gətirdi. Nəfəsini dərib yenidən hərəkətə gəldi. Dostunu 2 gün ərzində 25 kilometrədək belində daşıyaraq, nəhayət, Azərbaycan Ordusunun postuna qədər gətirib çıxara bildi. Özü də haldan düşmüşdü. Amma sanitarları gəlib özlərini yetirəndə hiss etdirmədən gülümsündü. Çünki dostunu darda qoymamışdı.

Bundan sonra Azadın vəziyyəti ağırlaşdığından müalicə olunması üçün Beyləqana göndərirlər. Orada çox qala bilməyib, müalicəsini yarımçıq qoyaraq yenidən döyüş meydanına qayıdır. Düşmənin başına od yağdırmağa davam edir. Oktyabrın 27-də isə elə Laçında şəhadətə ucalır.

Əslən göyçəli olan Azad Hümbətov 24 yanvar 1996-cı ildə Bakı şəhərində doğulub. Valideynlərinin yurd həsrətli söhbətləri, kövrək xatirələri ilə böyüyüb. Onda soydaşlarımızı doğma el-obadan didərgin salan haylara nifrət yaranıb. Bu hisslərin təsiri ilə hərbçi olmaq istəyib. Paytaxtın Nərimanov rayonundakı 291 nömrəli "Araz" ekologiya liseyini (indi onun adını daşıyır) əla qiymətlərlə bitirəndən sonra tərəddüd etmədən sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verib və tank bölüyü ixtisası üzrə kursant olub. Seçdiyi sənəti sevə-sevə öyrənib. Həmişə öncüllər arasında olub. 2017-ci ildə ali təhsilini uğurla bitirib. Qarabağda – Füzuli rayonunun Horadiz şəhərindəki "N" saylı hərbi hissədə qulluğa başlayıb.

Azad Hümbətov xidmət dövründə rütbə və vəzifəcə yüksələrək nümunəvi zabit kimi tanınır. 2020-ci ilin sentyabrında düşmənin növbəti silahlı təxribatına cavab olaraq Ali Baş Komandan tərəfindən döyüş əmri veriləndə artıq baş leytenant olan qəhrəmanımız sevinir. "Axır ki, qisas məqamı yetişdi" – deyir. O, Füzuli rayonunda ermənilərin keçilməz sədd adlandırdıqları cəbhə xəttinin yarılmasında qəhrəmanlıq göstərir. Sonra, Xocavənddə, Qubadlıda və nəhayət, Laçında Vətən uğrunda savaşın öncüllərindən biri olur...

Liseydə Azada dərs demiş Zeynəb müəllimin söylədiyinə görə, 26 iyun 2021-ci ildə – Silahlı Qüvvələr Günündə onun vaxtilə yaşadığı binanın qarşısında büstünün açılışında çıxış edib. Şagirdinin necə çalışqan, vətənpərvər gənc olduğundan danışıb. Onu da xatırladıb ki, bir dəfə – 20 Yanvar ərəfəsində Şəhidlər xiyabanını ziyarətə gediblərmiş. Qayıdarkən Azad deyib: "Müəllim, Şəhidlər xiyabanında əsl kişilər yatır..."

Artıq 5 ildir ki, Azad özü də əsl kişi kimi, qəhrəman kimi gənclərin and yeri olan İkinci Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıqda) uyuyur. General olmaq istəyən igid baş leytenantın məzarı Milli Qəhrəman olan general Polad Həşimovla bir sırada qərar tutub. Vətən Müharibəsi Qəhrəmanı Azad Hümbətov eyni zamanda "Vətən uğrunda", Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib. Bakıdakı küçələrdən biri onun adını daşıyır.

Azadın qısa, lakin şərəfli ömür yolu haqqında ssenarist və rejissor Turqut Ali Ardabilin çəkdiyi qısametrajlı filmə həyəcansız baxmaq olmur. Kadrlarda onun igidliyi canlandırılıb. Eyni zamanda Ali Baş Komandanın qələbə motivli çıxışı və xalqımızın zəfər sevincini əks etdirən kadrlar filmə sanbal gətirib. Filmin sonunda Birinci Qarabağ müharibəsinin qazisi, rəssam Şəmsəddin Böyükdüzlünün əl işi olan şəhid baş leytenantın möhtəşəm portreti də yer alıb.

Ötən həftə – oktyabrın 27-də onun məzarı önündə növbəti anım tədbiri keçirilib, ruhuna dualar oxunub. Qeyd olunub ki, canını torpaqlarımızın azadlığına qurban vermiş Azad Hümbətovun işıqlı xatirəsi onu sevənlərin qəlbində daim yaşayacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Bir qəhrəmanın hekayəti...

**Bir gün əvvəl vədələşmişdik. Zəng vurmuşdum. Dedi ki, kənddə təsərrüfatla məşğulam. Yaxşı olar ki, sabah görüşək. Nə deyəsiydim ki... Razılaşdım.**



İstər-istəməz, neçə il qabaq atası ilə bağlı söhbətimizi xatırladım. Zəhmətkeş bir ailədə böyüməsindən qürurla söhbət açmışdı. Atası Vaqif Əliyevin ömrünün sonuna qədər əkin-biçin işləri ilə məşğul olmasından ürəkdolusu danışmışdı. Ona görə telefon danışığımda istədim soruşam ki, deyəsən, atanın yolunu davam etdirirsən? Heç nə demədim. Fikirləşdim ki, sabah görüşəndə soruşaram.

...Vədələşdiyimiz vaxt zəng vurdum. "Evdəyəm, – dedi. Ünvanı söylədi. "Yeni Balakən" qəzetinin Baş redaktoru Ramazan Abalovla deyilən ünvana yollandıq. Çöl qapısının qarşısında dayanıb gözləyirdi. Görüşdük, bizi evə dəvət elədi. Əməlli-başlı hazırlıq görüblər. Stolun üstündə Balakən nemətləri düzülüb. Həyat yoldaşı əvvəlcə çay gətirir. Görən kimi tanıyıram. Toylarında iştirak etmişəm. Onda da Ramazan mənimlə idi. Fəridin demək olar ki, bütün cəbhə yoldaşları gəlmişdi. Heç vaxt unudulmayacaq bir gün idi. Diqqətli oxucunun bəlkə yadındadır. Bu möhtəşəm toy barədə "Xalq qəzeti"ndə yazmışıq.

Fərid 1990-cı il dekabrın 7-də Balakənin Qazma kəndində doğulub. 3 qardaş olublar. Yuxarıda qeyd etdiyim kimi, atası Vaqif Əliyev təsərrüfatla məşğul olan zəhmətkeş bir insan olub. Anası Mehriban xanım isə bağçada tərbiyəçi işləyib.

Məktəbi Qazmada oxuyub. 2005–2008-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi İnstitutuna daxil olub. 4 il təhsil aldıqdan sonra bir il Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində, 2013-cü ildən 2016-cı ilə qədər Goranboyda, Yuxarı Ağcakənddə taqım komandiri, "N" saylı əlahiddə kəşfiyyat taborunda xüsusi təyinatlı bölük komandiri, hərbi hissə komandirinin müavini olub.

Bu, Fəridin özünün danışdığı, qısaca da olsa, tərcümeyi-halıdır. Mehriban xanım söhbətə qoşulur. Atam nəvəsinin həkim olmağını istəyirdi. Yaxşı oxuyurdu. Əlaçı idi. Amma nə qədər etdiksə, razılaşmadı. O vaxtlar bizim tərəflərdən hərbiyə meyillilər, demək olar ki, az idi. Belə olan halda Fəriddə bu arzu necə yaranmışdı? Düzü, bilmədik.

Bəlkə, sözü indi Fəridə verək? Ona qulaq asaq. Bir dəfə görüşümüzdə mənə, qısaca da olsa, döyüş yolundan bəzi epizodları danışıb. Çox maraqlıdır. İstər-istəməz həyəcan keçirirəm. Yaxşısı budur, siz də qulaq asın...

"Döyüşə bölük komandiri kimi Murovdağ zirvəsindən başladıq", – deyir Fərid Əliyev. – 40 nəfər idik. Oktyabr ayının 1-də ilk şəhidimizi verdik. Xızıdan idi, Natiq Verdiyev. Minaatan mərmisi düz yanımıza düşmüşdü... Təcili onu döyüş meydanından çıxarıb, quru qoşunların əsgərlərinə təhvil verdik. Məhz bundan sonra hücum istiqaməti dəyişdirildi. Bizi Suqovuşan istiqamətinə göndərdilər. Tapşırıq Suqovuşanın üstündə olan yüksəkliyi götürmək idi. Talışa qədər avtomobillə, sonra isə piyada getdik. Dəqiq yadımdadır, oktyabrın 6-sı idi. Ermənilərlə üz-üzə gəldik. Aramızdakı məsafə 100–150 metr olardı. Mənim gizirim vardı. Özü Kürdəmirdən idi. Erməni dilində təmiz bilirdi. İsrail Həbilov onlarla danışanda bilmədilər ki, biz azərbaycanlıyıq. Çəkildik təpənin arxasına. Qrup komandirinə dedim ki, uşaqlara deyin ermənilər buralardadır. Goranboylu İxtiyar İlqaroğlu yamaca tərəf gedəndə dedi ki, komandir, aşağıda gizləniblər. Baxdıq ki, quyular qazılıb, ağaclarla üstünü örtüblər. Düşündüm ki, yəqin 9-10 nəfərdirlər. Biz isə 14 nəfər idik. Onları rahatca məhv etmək olar. Mən tapşırıq verdim ki, 10 nəfər yuxarıda qalsın. Mən və 3 nəfər arxadan rahatca vura bilək.

Biz arxaya gedəndə bir də gördük ki, həmin qazılan deşiyin hər yerindən 4-5 nəfər çıxdı, yolda isə təxminən 20-25 erməni səngər qazıb uzanmışdı. Bax, beləcə, gözləmədiyimiz bir döyüşə atıldıq. Bu uğurlu döyüşdə 67 nəfəri məhv etdik. Amma çox təəssüf ki, həm kürdəmirli balası İsrail Həbilovu, həm də İxtiyar İlqaroğlunu itirdik. Mən isə ayağımdan yaralandım. Amma sən demə, ermənilər tam təmizlənməyibmiş. Günortaüstü onlar təkrar əks-hücuma keçdilər. Bu döyüşdə isə düşmən tərəfin atdığı minaatan mərmisi mənimlə yan-yana vuruşan leytenant Şükür Hacıyevin arasına düşdü".

Arxasını danışa bilmir. Gözünü uzağa dikib. Hiss edirəm ki, qəhərlənib. Bayaqdan evdə ora-bura qaçıb, az qala söhbətimizə mane olan anasının adını verdiyi yeganə övladı Mehribanın "Ata, ata" deməsini də eşitmir. Gözləri yaşarıb. "Həmin döyüşdə 7 şəhid verdik. Gənc bir əsgərin söylədiyi son sözü unuda bilmirəm, – deyir, – "Anama deyərsiz ki..." Nə deyim, nə danışım. Bu yarımçıq sözü ilə görəsən nə demək istəyirdi?.. O gün yenə yuxuma girmişdi. Soruşdu: "Dedinizmi?". Donub qaldım. Axı, nə deyəydim?

Hamımız kövrəlmişik. Aradan neçə gün keçib. Vətən Müharibəsi Qəhrəmanı Fərid Əliyevin söhbəti yadımdan çıxmır...

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
***Balakən***

# İstedadlı rejissor, cəsur döyüşçü

**Bu yaxınlarda Sumqayıt Bələdiyyəsinin əməkdaşı, yaxın dostum Səbuhi Allahverdiyev öz statusunda Vətən müharibəsi şəhidi olan qardaşı Elnurun şəkillərini və haqqında məlumat paylaşmışdı. Zəfər Günündə torpağa tapşırılan qəhrəman oğlumuzu oxuculara təqdim etməyi özümə mənəvi borc bildim.**

2020-ci il sentyabrın 27-də Qarabağın işğaldan azad edilməsi uğrunda başlanan Vətən müharibəsi noyabrın 8-də möhtəşəm qalibiyyətlə başa çatdı. Bu yolda xüsusi fədakarlıq göstərmiş cəsur döyüşçü Elnur Allahverdizadə isə təəssüf ki, o günün sevincini yaşaya bilmədi. Çünki noyabrın 7-də Ağdam-Xocavənd istiqamətində gedən döyüşlər zamanı Yuxarı Qiyaməddinli kəndində düşmən mərmisinə tuş gələrək şəhid olmuşdu.



Əslən Zəngilan rayonundan olan Elnur Əli oğlu Allahverdizadə 1995-ci il mayın 15-də Sumqayıtda dünyaya göz açıb. 2012-ci ildə şəhərdəki 41 nömrəli tam orta məktəbi, 2016-cı ildə isə Bakı Slavyan Universitetinin (BSU) tərcümə fakültəsini çex-Azərbaycan dili ixtisası üzrə bitirib. Tələbəlik illərində nümunəvi davranışı, elmə, təhsilə xüsusi maraq göstərməsi, universitetin ictimai-mədəni həyatında fəal iştirakı ilə seçilib. Elnur ordu sıralarında müddətli həqiqi hərbi xidmətdən sonra səs rejissoru kimi fəaliyyət göstərib. İstedadlı gənc "İlk media", "Pismus production" ilə əməkdaşlıq edib. "Barama", "Atılmışlar" seriallarının, "Buğlama" komediya serialının "Son iclas" bədii-sənədli filminin, bir çox reklam çarxlarının səs rejissoru olub.

Vətən müharibəsi başlanandan 1 gün sonra o, könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər Baş İdarəsindən müharibəyə yollanıb. Quru qoşunlarının tərkibində artilleriya qüvvələrimizin topçusu olaraq döyüşlərə qatılıb. Ağdam və Xocavəndin azadlığı uğrunda son nəfəsinədək vuruşub. Silahdaşları bildirirlər ki, Elnur topun arxasında olanda sərrast atıcı kimi hədəfdən heç zaman yayınmayıb. Daim cəsurluq nümunəsi göstərib. Bütün döyüş yoldaşlarına ürək-dirək verib, qələbəyə ruhlandırıb. İgid döyüşçü işğalçılar üzərində böyük qələbə qeyd olunan gün Sumqayıtdakı Şəhidlər xiyabanında ehtiramla dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Elnur Allahverdizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Vətən yolunda canını qurban verən şəhidin yaşadığı binanın divarında xatirə lövhəsi açılıb. İndi bu ünvan vətənsevər gənclərin ziyarət yeridir.

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***

# "Qarabağ" ordenli şəhid

**Həmid Cavanşir oğlu Abbasbəyli 17 noyabr 1991-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. İlk təhsilinə Binəqədi rayonu, Famil İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə başlasa da, sonradan anası və qardaşı ilə Şəkiyə köçüb. 2002-ci ildən təhsilinə Şəkidə davam edib və orta məktəbi 2006-cı ildə başa vurub. Hərbçi olmaq onun uşaqlıq arzusu olduğundan Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Liseydə təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində sevimli sənətinin dərinliklərinə yiyələnib.**



Həmid Abbasbəyli ali hərbi təhsilini başa vurduqdan sonra Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyan bölükdə taqım komandiri vəzifəsində xidmət edib. Amma arzusu Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək olub. Valideynlərinin sözlərinə görə, Həmid həmişə deyərmiş: "Mənim iki arzum var: biri hərbçi olmaq, biri də XTQ-də xidmət etmək".

2015-ci ildə Həmid ərizə yazaraq Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək üçün təşkil edilən təlimlərə qatılıb. Ağır sınaqları, çətin təlimləri bacarıqla başa vurandan sonra XTQ-də xidmətə başlayıb. O, Aprel döyüşlərində iştirak edib və cəsarəti, bacarığı ilə seçilib. 4 xarici dil bilən Həmid Abbasbəyli Xüsusi Təyinatlı Qüvvələrdə baş leytenant rütbəsində hərbi fəaliyyətini davam etdirib. 2016–2017-ci illərdə Türkiyədə, 2017–2018-ci illərdə isə Çində xüsusi təlim kurslarını birinciliklə başa vurub. O, həm də idmanla ciddi məşğul olub, boks və qaydasız döyüş üzrə yarışlarda da iştirak edib. Həmişə qələbə qazanıb.

Həmidin silahdaşı, qazi Sənan Zamanovun sözləri: "Mən 2015-ci ildə döyüş tapşırığı zamanı qəflətən minaya düşdüm. Partlayış nəticəsində sol ayağımı itirdim. Heç 1 dəqiqə keçməmişdi ki, o biri ayağım da minaya düşdü. Yarım saat ötdü, artıq düşündüm ki, şəhid oldum. Gözümü yumub gözlədim. Bir də gördüm ki, şıqqıltı səsi gəlir. "Kimsən? – soruşdum. Gur səs məni silkələdi: "Mənəm, Zamanov, Abbasbəyli Həmid. Bura qədər dözmüsən, sənə komandirin olaraq əmr edirəm: Ölmə!" Və məni çəkə-çəkə oradan çıxardı... Bu gün yaşayıramsa, ona borcluyam".

Həmid Abbasbəyli həmişə seçilən hərbçilərdən olub. O, Xüsusi Təyinatlı Qüvvələrin tərkibində 2018-ci ildə iyunun 26-da Bakıda və Moskvada keçirilən paradlarda iştirak edib. Medallarla təltif edilib.

Ailəsi ilə son dəfə 2020-ci il sentyabrın 25-də görüşüb. Həmin gün qardaşını, nənəsini öpüb. Anasını öpəndən sonra qucaqlayıb bağrına basıb, xeyli beləcə dayanıb, qoxusunu özünə çəkərək "oxxay" deyib. Xeyli bir-birinə baxıblar, anasının xeyir-duasını dinlədikdən sonra qapıdan çıxıb.

Həmid müharibə başlayan gündən döyüşlərdə iştirak edib. Ayağından ağır yaralansa da, hospitalda yatmaqdan imtina edib və ilkin tibbi yardımdan sonra cəbhəyə qayıdıb. Füzuli, Cəbrayıl, Zəngilan şəhərləri, Hadrut qəsəbəsi, Ərgünəş və Laçın dəhlizinə yaxın yüksəkliklərin işğaldan azad olunmasında qrup rəhbəri kimi böyük şücaət göstərib. Düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edib. Onun komandirliyi altında olan əsgərlər deyirmişlər ki, döyüş tapşırığında kim Abbasbəylinin qrupuna düşürdüsə, rahat olurdu. Bilirdi ki, o, şəxsi heyəti sağ-salamat aparacaq, elə də geri qaytaracaq.

Həmid Abbasbəylinin son döyüşü oktyabrın 19-dan 20-nə keçən gecə Laçın dəhlizinə nəzarəti təmin edən yüksəklik uğrunda olub. Silahdaşları ilə düşmənin 500-dən çox canlı qüvvəsini məhv ediblər. Həmid həmin gecə qəhrəmancasına şəhid olub. Onun nəşi 3 gün neytral zonada qalıb. Oktyabrın 23-də şəhid Bakıya, doğulduğu evə gətirilib. Oktyabrın 24-də avtomobil karvanının müşayiəti ilə İkinci Şəhidlər Xiyabanında (indiki Hərbi Memorial Məzarlıqda) torpağa tapşırılıb.

Həmid subay idi. Ona "evlən"– deyən dostlarına deyibmiş ki, "həmişə istəmişəm ailəm olsun, kim istəməz ki? Müharibə bitsin, qayıdım, inşaallah, toy çaldıracağam", amma o toy çalınmadı...

Prezident İlham Əliyevin sərəncamlarına uyğun olaraq, Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasında igidlik və mərdlik nümunəsi göstərdiyinə, xidməti borcu və hərbi qulluq vəzifəsini layiqincə yerinə yetirdiyinə görə Həmid Abbasbəyli "Qarabağ" ordeni ilə, həmçinin "Vətən uğrunda", Cəbrayılın, Xocavəndin və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

Paytaxtın Xətai rayonunda şəhidin yaşadığı ünvanda xatirə lövhəsi qoyulub, şəhid bulağı inşa edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Azərbaycan – Qırğız İnkişaf Fondu fəaliyyətini genişləndirir

*Qurum dost ölkədə investisiya layihələrinə 14,4 milyon dollar ayırıb*

**İqtisadiyyat nazirinin birinci müavini, Azərbaycan – Qırğız İnkişaf Fondu Şurasının sədri Elnur Əliyev Qırğız Respublikasına səfəri çərçivəsində Azərbaycan – Qırğız İnkişaf Fondu Şurasının 6-cı iclasında iştirak edib. Toplantıda hər iki tərəfdən fond şurasının üzvləri və idarə heyətinin həmsədrləri olublar.**




Elnur Əliyevin sədrliyi ilə keçirilən iclasda bildirilib ki, dövlətlərimizin başçıları tərəfindən iqtisadi sahədə əməkdaşlığın gücləndirilməsi üçün qarşıya qoyulan vəzifələrin icrası uğurla davam etdirilir. Qeyd olunub ki, ölkələrimiz arasında bir sıra istiqamətlər, xüsusilə iqtisadi-ticarət, investisiya və nəqliyyat üzrə əməkdaşlıq getdikcə genişlənir. İclasda gündəlikdə duran məsələlər, fondun fəaliyyətini tənzimləyən sənədlər və reallaşdırılacaq layihələr müzakirə olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycan–Qırğız İnkişaf Fondu iki ölkə arasında dostluq və iqtisadi tərəfdaşlığın inkişafında mühüm alət kimi çıxış edir. Fondun fəaliyyəti çərçivəsində həyata keçirilən layihələrin ikitərəfli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Söhbət zamanı, həmçinin Azərbaycan – Qırğız İnkişaf Fondunun fəaliyyəti çərçivəsində ikitərəfli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi və yeni layihələrin reallaşdırılması istiqamətində işlər müzakirə edilib.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev səfər çərçivəsində Qırğız Respublikasının iqtisadiyyat və kommersiya naziri Bakıt Sıdıkovla da görüşüb. Görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin inkişafı məsələləri müzakirə olunub. Qeyd edilib ki, Azərbaycan və Qırğız Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb və iqtisadi əlaqələr bu əməkdaşlığın mühüm istiqamətini təşkil edir. Azərbaycan – Qırğız İnkişaf Fondunun fəaliyyəti və həyata keçirilən layihələrin tərəfdaşlığımızın möhkəmlənməsinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Eyni zamanda, sənaye, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi vurğulanıb. Tərəflər ticarət dövriyyəsinin artırılması, investisiya axınlarının stimullaşdırılması, sənaye kooperasiyası və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, Azərbaycan – Qırğız İnkişaf Fondunun yaradılması ilə bağlı saziş 2022-ci il oktyabrın 11-də də Bişkekdə imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin həmin il dekabrın 1-də imzaladığı qanunla sözügedən saziş təsdiq olunub. 2023-cü il iyulun 27-də Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycan – Qırğız İnkişaf Fondunun Şurasının ilk iclası keçirilib. Toplantıda fondun funksional olaraq fəaliyyətə başlaması istiqamətində müzakirələr aparılıb, fondun yaradılması ilə bağlı sazişin qüvvəyə minməsi üzrə hər iki tərəfdən dövlətdaxili prosedurların başa çatdırıldığı bildirilib.

Xatırladaq ki, iqtisadi əməkdaşlığa, iqtisadiyyatın modernləşdirilməsi və imkanlardan səmərəli istifadə olunmasına yardım məqsədilə yaradılan fond müxtəlif maliyyə alətlərindən istifadə etməklə Qırğızıstanda qeydiyyatda olan və fəaliyyət göstərən sahibkarlıq subyektlərinin aqrar-sənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə prioritet layihələrinə investisiyalar yatırmağı hədəfləyir. Eyni zamanda, fond Azərbaycan və Qırğızıstanın biznes qurumlarının birgə fəaliyyətinə dəstək göstərməyi qarşısına məqsəd qoyub ki, bu da ölkələrimiz arasında əlaqələrin inkişafına və genişləndirilməsinə təkan verəcək.

Ötən müddətdə fond ümumi dəyəri 52,7 milyon ABŞ dolları olan 4 investisiya layihəsinə 14,4 milyon dollar məbləğində maliyyə vəsaiti ayırıb. Bunlar 9 meqavat gücündə "Tyup HES" kiçik su elektrik stansiyası, "Tanar Group" sosial yaşayış kompleksi daxilində çoxfunksiyalı mərkəz, "KG Tex" 300 iş yerlik tikiş fabriki və "Orion Grand" kovrolin istehsalı zavodu layihələridir. Azərbaycanlı nazir səfər çərçivəsində Azərbaycan – Qırğız İnkişaf Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən həmin layihələrlə yerində tanış olub.

Qeyd edək ki, mənzil-qərargahı Bişkek şəhərində yerləşən Azərbaycan–Qırğız İnkişaf Fondunun nizamnamə kapitalı 25 milyon ABŞ dolları təşkil edir. 2024-cü il aprelin 24-də tarixində Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri zamanı imzalanmış əlavə saziş əsasən, Azərbaycan–Qırğız İnkişaf Fondunun nizamnamə kapitalının 100 milyon ABŞ dollarına qədər artırılması nəzərdə tutulur.

**2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,7 faiz artaraq 2,6 milyard ABŞ dolları təşkil edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəşr etdirdiyi "İxrac icmalı"nın oktyabr sayında ətraflı məlumat verilib.**

# 9 ayda qeyri-neft ixracı 2,6 milyard dollar olub

Nəşrin məlumatına əsasən, hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 20,5 faiz artaraq 841,4 milyon dollara çatıb. Bu növ məhsulların ixracında ən yüksək artım şəkərin payına düşüb. Belə ki, ötən 9 ayda Azərbaycandan xaricə ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nisbətən 14,9 milyon dollar və ya 46,9 faiz artıb. Bundan əlavə, yanvar- sentyabr aylarında meyvə-tərəvəz ixracı 143,7 milyon dollar və ya 31,3 faiz, kimya sənayesi məhsulları 45,6 milyon dollar və ya 22 faiz, pambıq

Hesabat dövründə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci olub. Belə ki, cari ilin 9 ayında xaricə 238 milyon dollar dəyərində qızıl satılıb ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə artım deməkdir. Xatırladaq ki, ötən ilin yanvar-sentyabr aylarında ixrac olunmuş qızılın dəyəri 115,3 milyon dollar təşkil edib. Bu siyahıda pomidor (157,2 milyon dollar) ikinci, pambıq lifi (134,7 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.




iplik 2,7 milyon dollar və ya 12,5 faiz, çay 159,4 min dollar və ya 3,3 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 3,9 milyon dollar və ya 2,6 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 708,1 min dollar və ya 1 faiz artıb.

"İxrac icmalı" xəbər verir ki, 2025-ci ilin 9 ayında Azərbaycanda aqrar məhsullar üzrə ixrac 27,8 faiz çoxalaraq 667,1 milyon dollara, aqrar-sənaye məhsulları üzrə ixrac isə 233,1 milyon dollara bərabər olub. Bütövlükdə isə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı əvvəlki ilin müvafiq dövrünə nisbətən 19,2 faiz artaraq 900,2 milyon dollar təşkil edib.

Yeri gəlmişkən, sentyabr ayı üzrə ixrac olunmuş qeyri-neft mallarının siyahısında birincilik yenə də qızıla (27,4 milyon dollar) məxsus olub. Siyahıda karbamid (17,1 milyon dollar) ikinci, meşə fındığı (12,1 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Nəşr cari ilin 9 ayı üzrə ixracın coğrafiyası barədə də məlumat yayıb. Bildirilib ki, hesabat dövründə Azərbaycandan Rusiya Federasiyasına 878,9, Türkiyəyə 435,8, İsveçrəyə 247,8, Gürcüstana 244,8 milyon dollar, Ukraynaya isə 147,3 milyon dolları dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

# "OPEC plyus" neft hasilatını artırır

*Gələn ilin I rübündə isə 8 ölkə istehsalı sabitləşdirəcək*

**"OPEC plyus"un 8 aparıcı ölkəsinin (Əlcəzair, Küveyt, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Oman və Rusiya) nazirləri sabit qlobal iqtisadi proqnozu və əlverişli cari bazar şərtlərini nəzərə alaraq bu ilin dekabr ayında neft hasilatını noyabr ayı ilə müqayisədə gündə 137 min barel artırmaq qərarına gəlib. Eyni zamanda, iştirakçı ölkələr 2026-cı ilin birinci rübündə hasilatı artırmaqda fasilə verəcəkləri ilə bağlı da razılığa gəliblər.**



Bununla bağlı keçirilən görüşdən dərhal sonra "OPEC plyus" bəyanat yayıb. Sənəddə hasilatın artırılması qərarının sabit qlobal iqtisadi perspektivlər və əlverişli bazar şərtləri fonunda verildiyi vurğulanıb. Bundan əlavə, mövsümiliyə görə, 8 ölkə 2026-cı ilin birinci rübündə neft hasilatının daha da artırılmasını dayandırmaq qərarına gəlib. Tərəflər təsdiqləyiblər ki, dəyişən bazar şərtlərindən asılı olaraq və tədricən 1,65 milyon barel/gün qismən və ya tam şəkildə geri qaytarıla bilər. "Dekabrdan sonra mövsümilik səbəbindən 8 ölkə 2026-cı ilin yanvar, fevral və mart aylarında hasilatın artımını dayandırmaq qərarına gəlib", – deyə məlumatda bildirilib.

Bununla razılaşma iştirakçıları təsdiqləyiblər ki, 1,65 milyon barel dəyişən bazar şəraitindən asılı olaraq tədricən, qismən və ya tam bərpa oluna bilər. Müstəqil hesablamalara əsasən, "OPEC plyus" ölkələrinin dekabr ayı üçün ümumi kvotası sazişi əvvəllər pozan ölkələrin kompensasiya həcmləri nəzərə alınmaqla gündəlik 38,185 milyon barel təşkil edə bilər ki, bu da noyabr üçün elan edilmiş planından 101 min barel çoxdur. Bəs kvotaların artırılması bazara necə təsir edəcək?

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham ŞABANIN** sözlərinə görə, bildirdi ki, dünya bazarındakı qiymətlərin monitorinqi göstərir ki, bu sahədə heç bir ciddi enmə yoxdur. Hazırda bazar iştirakçılarının daha çox ABŞ və Çin arasındakı ticari münasibətlərə diqqət etdiklərini vurğulayan ekspertin sözlərinə görə, ümumilikdə, neft qiymətləri 2026-cı ildə cari illə müqayisədə azalmağa meyilli olacaq.

İ.Şaban daha sonra dedi:

– Ötən həftə Dünya Bankı 2025-2026-cı illər üzrə "Brent" markalı neftin orta qiyməti ilə bağlı proqnozunu yeniləyib. Proqnoza əsasən, bu növ neftin orta qiyməti 2025-ci ildə 68 dollar səviyyəsində ehtimal edilir, 2026-cı ildə isə qiymətlərin 60 dollara qədər ucuzlaşacağı gözlənilir. Maraqlısı isə odur ki, Dünya Bankının ekspertləri gələn illə bağlı proqnozlarını artıq 2-ci dəfədir ki, dəyişmirlər. Yəni neft qiymətlərinin ucuzlaşması ehtimalı hələ də yüksəkdir.

Bu ehtimalı dünyanın tanınmış neft-qaz şirkəti olan "Shell" şirkətinin baş direktoru Vael Savanın üçüncü rübün nəticələrindən sonra keçirdiyi telekonfrans zamanı ifadə etməsi də təsdiqləyib. O bildirib ki, gələn il qlobal neft bazarında təklif bolluğunun yaranması ssenarisi daha çox ehtimal edilir, lakin uzunmüddətli perspektivdə qiymətlərin artacağını gözləyir. Bu da səbəbsiz deyil. Çünki "yaşıl enerji" dünyada yaşanan hazırkı gərginlikdən sonra qlobal iqtisadiyyatın artım templərini qarşılamağa yetərli olmayacaq.




# Azərbaycan – Çin nəqliyyat əməkdaşlığında yeni layihə

*Sian limanı heyəti Abşeron Logistika Mərkəzində*

**Çin Xalq Respublikasının Sian şəhərinin meri Ye Niu Pinin başçılıq etdiyi nümayəndə heyəti Abşeron Logistika Mərkəzində olub. Burada qonaqlara mərkəzin fəaliyyət istiqamətləri ilə bağlı ətraflı məlumat verilib, tərəflər arasında iqtisadi və logistika sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.**



Görüş çərçivəsində Abşeron Logistika Mərkəzi və Çinin Sian Limanı arasında Anlaşma Memorandumu imzalanıb. Abşeron Logistika Mərkəzi İdarə Heyətinin sədri Ziya Ağayev və "Xi'an International Port Group"un baş direktoru Yuan Syaodzyunun imzaladığı sənəddə hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulmasını və möhkəmləndirilməsini, sahibkarlıq sahəsində təcrübə və informasiya mübadiləsinin təşviqini, eləcə də uzunmüddətli və etibarlı tərəfdaşlıq üçün dayanıqlı şəraitin yaradılmasını nəzərdə tutur.

Sian Beynəlxalq Terminalının baş direktoru Yuan Syaodzyun bildirib ki, Azərbaycan və Çin arasında tranzit daşımaları və Orta Dəhlizin inkişafı istiqamətində əməkdaşlığın genişləndirilməsi artıq günün tələbinə çevrilib. Onun sözlərinə görə, imzalanmış memorandum Orta Dəhlizin potensialının artırılması və bu istiqamət üzrə yük axınlarının optimallaşdırılması baxımından mühüm addımdır. Qonaq onu da bildirib ki, əməkdaşlığın genişlənməsi iki ölkə arasında dəmir yolu nəqliyyatı sahəsində inteqrasiyanın güclənməsinə, daşımaların səmərəliliyinin artırılmasına töhfə verəcək. Yeri gəlmişkən, 2024-cü il noyabrın 24-də Abşeron Logistika Mərkəzi vasitəsilə Çinə dəmir yolu ilə ilk ixrac uğurla həyata keçirilib.

Qeyd edək ki, Abşeron Logistika Mərkəzi Azərbaycanın ən böyük logistika infrastrukturu layihələrindən biri olmaqla Orta Dəhliz çərçivəsində Avropa – Asiya ticarət axınlarının təmin edilməsində strateji rol oynayır. Azərbaycan və Çin arasındakı ticarət əlaqələrinin daha da gücləndirilməsinə xidmət edən bu təşəbbüs ölkəmiz üçün regional və qlobal miqyasda mühüm strateji imkanlar açır. Eyni zamanda, bu təşəbbüsün uğurla reallaşdırılması ölkəmizin beynəlxalq logistika sahəsindəki nüfuzunu artırır.

*Səhifəni hazırladı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Suverenlik xalqın milli kimliyinin ən yüksək təsdiqidir

**Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etməsi ilin strateji və mənəvi baxımdan aparıcı yönünü müəyyənləşdirib. Bu qərar müstəqil dövlətimizin 34 illik tarixində 2 önəmli hadisənin – Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu və suverenliyimizi ölkə miqyasında bərpa etmiş Vətən müharibəsində Qələbənin 5-ci ildönümlərinin ilboyu yüksək anlayış və təntənələrlə qeyd olunması ilə yanaşı, müstəqil dövlətimizin hüquqi və siyasi inkişaf yolunda çatdığı səviyyənin dəyərləndirilməsini də nəzərdə tutub.**

Sərəncamın mahiyyətində Azərbaycanın müstəqil dövlət kimi keçdiyi 34 illik suverenlik yolu, eləcə də 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın 30 illik təcrübəsi dayanır. Bu iki tarixi hadisə Azərbaycanın müasir dövlətçiliyinin hüquqi, siyasi və ideoloji əsaslarını müəyyən edir və hazırda da milli inkişaf strategiyasının ideya qaynağı kimi diqqət çəkir.

Xatırladım ki, Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilib. Həmin vaxtdan etibarən bu sənəd xalqımızın müstəqillik arzularının hüquqi təsdiqinə, dövlət quruculuğunun bünövrəsi və gələcək inkişaf modelinin xəritəsinə çevrilib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Konstitusiya dövlətin demokratik, hüquqi və unitar əsaslar üzərində qurulmasını gerçəkləşdirib.

Əsas Qanunumuzun preambulasında diqqət çəkən “Azərbaycan xalqı dövlət müstəqilliyini qoruyub saxlamağa, insan hüquq və azadlıqlarını təmin etməyə qərarlıdır” müddəası müstəqil ölkəmizin azadlıq, ədalət və xalq hakimiyyəti kimi əsas ideya prinsiplərini ehtiva edib. Konstitusiyanın qəbulu Azərbaycanın dünyəvi, hüquqi və demokratik dövlət kimi beynəlxalq aləmdə tanınmasını şərtləndirib. Bu sənəd ötən müddətdə həm də xalqın tarixi iradəsinin və milli kimliyinin hüquqi ifadəsi kimi diqqət çəkib.

Onu da vurğulayım ki, 1991-ci il




oktyabrın 18-də qəbul edilən “Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı” Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Uzun illərdən sonra xalq öz suverenliyinə sahib çıxdı. Çünki müstəqilliyin ilk illərində siyasi xaos, iqtisadi tənəzzül və separatçılıq təhlükəsi dövlətçiliyin əsaslarını sarsıtmışdı. Məhz belə bir şəraitdə 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev Azərbaycanın dövlətçiliyini xilas etdi. Dahi şəxsiyyət qısa müddətdə hüquqi-siyasi sabitlik yaratdı, konstitusion dövlətin əsaslarını formalaşdırdı və milli müstəqilliyi dönməz etdi. Ümummilli liderin rəhbərliyi ilə hazırlanan Konstitusiya aktı isə hüquqi sənəd olmaqla bərabər, həm də milli iradənin siyasi manifesti idi. Bu sənəd Azərbaycan dövlətçiliyinin XXI əsrə keçidini şərtləndirdi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Konstitusiyasının müddəaları həyatın bütün sahələrində praktik məzmun qazanıb. Dövlətimizin başçısı Ulu öndərin əsasını qoyduğu hüquqi dövlət konsepsiyasını yeni dövrün tələblərinə uyğun inkişaf etdirib. 2009-cu və 2016-cı illərdə keçirilən ümumxalq referendumları nəticəsində Konstitusiyada mühüm dəyişikliklər olunub.

Bu dəyişikliklərlə dövlət idarəçiliyinin çevikliyi artırılıb, insan hüquqlarının müdafiəsi gücləndirilib, dövlət orqanlarının məsuliyyəti və səmərəliyi gerçəkləşdirilib. Bu islahatlarla Azərbaycanda hüquqi dövlətin normativləri ilə yanaşı, həm də real modeli yaradılıb. Belə bir şəraitdə isə təbii ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, “Azərbaycan dövlətinin əsas məqsədlərindən biri vətəndaşın rifahını yüksəltməkdir. Dövlətin əsas məqsədi insanı, onun hüquq və azadlıqlarını qorumaqdır” prinsipi önə çəkilib.

Azərbaycanın müstəqillik tarixinin ən möhtəşəm hadisəsi 2020-ci il sentyabın 27-də başlanan və 44 gün çəkən Vətən savaşında əldə edilən Böyük Qələbə oldu. Bunun nəticəsində respublikamızın beynəlxalq hüquqla tanınmış sərhədləri üzərində real nəzarət gerçəkləşdirildi. Bu Zəfər hərbi-siyasi önəmi ilə bərabər, həm də hüquqi məzmun daşıması ilə diqqət çəkdi. Başqa sözlə, Konstitusiyada təsbit olunmuş “Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi toxunulmazdır” prinsipi reallığa çevrildi. Eyni zamanda, ölkəmiz bu Qələbə ilə suverenliyini bəyan etməklə yanaşı, həm də onu qorumaq və bərpa gücünə malik olduğunu sübuta yetirdi. Bu, müstəqil dövlətimizin hüquqi-siyasi qüdrətinin ən ali təzahürü idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar isə dövlət idarəçiliyində keyfiyyətcə yeni bir mərhələ açdı. Məhkəmə sisteminin humanistləşdirilməsi, korrupsiya ilə mübarizə, ədalətə əlçatanlığın artırılması istiqamətində ardıcıl layihələr reallaşdırıldı. “Elektron məhkəmə”, “ASAN xidmət”, “DOST mərkəzləri” kimi təşəbbüslərin gerçəkləşdirilməsi ilə vətəndaş məmnunluğuna əsaslanan idarəçilik modelinin təməli qoyuldu. Bu institutların vasitəsilə Konstitusiyanın şəffaflıq, bərabərlik, hüququn üstünlüyü və dövlətin sosialyönümlüyü kimi əsas prinsiplərin həyata keçirilməsinə başlandı.

Respublikamız artıq təkcə milli qanunvericilik səviyyəsində deyil, həm də beynəlxalq hüquq sistemində etibarlı tərəfdaş kimi tanınır. İnsan hüquqlarının müdafiəsi, gender bərabərliyi, sosial rifah, ekoloji hüquqlar və vətəndaş cəmiyyəti institutlarının inkişafı sahəsində atılan addımlar ölkəmizin hüquqi modernləşmə modelini formalaşdırıb.

Azərbaycan bu gün beynəlxalq aləmdə suverenliyini qorumaqla yanaşı, hüquqi ədalətin təntənəsi uğrunda da fəal mövqe tutur. Qarabağ Zəfərindən sonra regionda formalaşan yeni hüquqi-siyasi reallıqlar respublikamızın beynəlxalq hüquq prinsiplərinə sadiqliyinin bariz sübutudur. Ölkəmizin milli qanunvericilik səviyyəsində, eləcə də beynəlxalq tribunada ədalət, bərabərlik və dövlət suverenliyinin qorunması prinsiplərinin müdafiəçisinə çevrilməsi də bunun bariz ifadəsidir.

Respublikamızın son 30 illik dövlətçilik yolu hüquqi dövlət və suverenlik anlayışlarının bir-birini tamamlayan milli inkişaf sütunları olduğunu təsdiqləyib. Ulu öndər Heydər Əliyevin dövlət idarəçiliyi məktəbi və Prezident İlham Əliyevin müasir modernləşmə strategiyası bu iki prinsipi yeni məzmunla zənginləşdirib.

Azərbaycan bu gün regionda hüquqi dövlətçilik ənənələrinə, siyasi sabitliyə, vətəndaş həmrəyliyinə və iqtisadi dayanıqlığa malik nadir ölkələrdəndir. “Konstitusiya və Suverenlik İli” isə bu nailiyyətlərin üzərində qurulan milli dövlətçilik fəlsəfəsinin yeni mərhələsinin möhtəşəmliyini – hüququn aliliyi, milli iradə və suveren dövlət ideyası təntənəsini dünyaya çatdırır.

Sonda bildirirəm ki, 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması yubiley hadisəsi olmaqla bərabər, eyni zamanda, Azərbaycan cəmiyyətinin hüquqi düşüncəsinin inkişafı üçün geniş bir ideoloji platformadır. Bu il ərzində dövlət və cəmiyyətin bütün sahələrində hüquqi maarifçiliyin gücləndirilməsi, dövlətçilik ənənələrinin təbliği və vətəndaş məsuliyyətinin artırılması istiqamətində mühüm təşəbbüslərin həyata keçirilməsi də bu fikrin bariz ifadəsidir.

Bu təşəbbüslər gənc nəslin milli dəyərlərə, dövlət atributlarına və Konstitusiya prinsiplərinə hörmət ruhunda tərbiyə olunmasını şərtləndirir və Azərbaycan hüquq elminin, idarəetmə təcrübəsinin və vətəndaş cəmiyyəti institutlarının daha da inkişafına təkan verir.

***Hümbət SƏLİMOV,***
***Balakən Rayon Məhkəməsinin sədri***

# Avropa İttifaqı–Azərbaycan media əməkdaşlığının perspektivləri

**Azərbaycanın Rumıniyadakı səfirliyində Avropa Parlamentinin deputatı Kristian Terheşlə görüş keçirilib. Görüşdə Audiovizual Şuranın sədri İsmət Səttarov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov iştirak ediblər.**



Söhbət zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında informasiya, kommunikasiya və media sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də regionda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri müzakirə olunub.

Kristian Terheş qeyd edib ki, Avropa Parlamenti Cənubi Qafqaz regionunda sülhün möhkəmlənməsinə və dialoqun təşviqinə böyük önəm verir. O, Azərbaycanın müasir informasiya siyasətini, medianın müstəqilliyinin və rəqəmsal transformasiyanın dəstəklənməsini yüksək qiymətləndirib.

İsmət Səttarov, Əhməd İsmayılov, Vüqar Əliyev çıxışlarında Azərbaycan mediasının beynəlxalq inteqrasiyasının və Avropa informasiya məkanında fəal iştirakının vacibliyini vurğulayıblar. Səfir Qüdsi Osmanov bildirib ki, Azərbaycan ilə Rumıniya arasında siyasi və iqtisadi münasibətlərin yüksək səviyyəsi media əməkdaşlığında da yeni imkanlar açır.

Görüşdə, həmçinin dezinformasiya ilə mübarizə, rəqəmsal media savadlılığı, gənc jurnalistlərin Avropa təcrübəsinə çıxışı və enerji təhlükəsizliyi ilə bağlı ictimai kommunikasiyanın gücləndirilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan nümayəndə heyəti Rumıniyanın Milli Audiovizual Şurasının qərargahında qurumun vitse-prezidenti, prezident vəzifəsini icra edən Valentin-Aleksandru Jukan ilə də görüşüb. Tədbirdə Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov və digər nümayəndələr iştirak ediblər.

Görüşdə tərəflər media tənzimləməsi, yayım etikası, dezinformasiya ilə mübarizə, audiovizual istehsal bazarının inkişafı kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Dəyərləndirmədə yüksək şəffaflıq

## *Azərbaycan Qiymətləndiricilər Palatası elektron nəzarət sistemi yaradıb*

**“Azərbaycan Qiymətləndiricilər Palatası keyfiyyətin idarə edilməsi və beynəlxalq standartlara uyğunluq istiqamətində yeni mərhələyə start verib”. Bu barədə “Xalq qəzeti”nə Azərbaycan Qiymətləndiricilər Palatasının (AQP) sədr müavini Günay İsmayılqızı məlumat verib.**



Palata rəsmisi bildirib ki, Beynəlxalq Qiymətləndirmə Standartları Şurasının (IVSC) yeni tələbləri qiymətləndirmə sahəsində qlobal dönüş yaradır və artıq Azərbaycan da bu sistemə inteqrasiya olunur. Onun sözlərinə görə, bu istiqamətdə atılan əsas addımlardan biri “Keyfiyyətə elektron nəzarət sistemi”nin tətbiqidir: “Bu sistem hər bir qiymətləndirmə hesabatının arxasında dayanan məsuliyyətin ölçülməsini təmin edir. Nəticədə, keyfiyyətin idarə edilməsi prosesinin müasir texnoloji mühitdə həyata keçirilməsinə şərait yaranacaq. Bu yanaşma palata üçün nəzarət vasitəsi olmaqla yanaşı, qiymətləndirici təşkilatların öz daxilində keyfiyyət idarəçiliyinin formalaşmasına da zəmin hazırlayacaq”.

Günay İsmayılqızı onu da bildirib ki, “IVSC 2025” standartlarının əsas yeniliyi qiymətləndirmə prosesinin yalnız bazar dəyərinin hesablanması kimi deyil, həm də keyfiyyət, məsuliyyət və şəffaflıq prinsipləri ilə dəyərləndirilməsidir: “Yeni standartlar tələb edir ki, hər bir qiymətləndirmə hesabatında məlumat mənbələri, istifadə olunan metodlar və nəticələrin əsaslandırılması tam sənədləşdirilsin. Bu, qiymətləndirici, sifarişçi və nəzarət orqanı arasında ümumi etimad və şəffaflıq mühiti formalaşdırır. AQP beynəlxalq standartların tələblərini Azərbaycan reallıqlarına uyğunlaşdırmaq istiqamətində sistemli fəaliyyət göstərir. Məqsəd təkcə yekun nəticəyə deyil, bütün qiymətləndirmə prosesinə nəzarəti təmin etməkdir. Hər bir üzv təşkilatın daxilində keyfiyyətə nəzarət sistemi qurulmalı və bu sistem AQP portalı vasitəsilə vahid nəzarət mühitinə inteqrasiya olunmalıdır. Bu, bazar etimadının və peşə reputasiyasının güclənməsinə, eləcə də beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edir”.

Portalda formalaşacaq məlumat bazasının gələcəkdə “Bakı əmlak qiymət xəritəsi”, ESG göstəriciləri əsasında analitik hesabatlar və bazar trendlərinin proqnozlaşdırılması kimi layihələrin əsas mənbəyinə çevriləcəyini söyləyən palata rəsmisi bu islahatların qiymətləndirmə peşəsini strateji qərarların ayrılmaz hissəsinə çevirəcəyinə əmindir: “Düzgün və keyfiyyətli qiymətləndirmə olmadan nə real investisiya planlaşdırması, nə dövlət əmlakının idarə olunması, nə də şəffaf bazar iqtisadiyyatı mümkündür. Bizim məqsədimiz bu sahəni strateji qərarvermənin etibarlı dayağına çevirməkdir. Azərbaycan Qiymətləndiricilər Palatası artıq təkcə peşəkar birlik deyil, həm də qiymətləndirmə sektorunun institusional beyin mərkəzi kimi formalaşır. “IVSC 2025 standartları ilə AQP elektron portalının sintezi qiymətləndirmə sahəsini keyfiyyətcə yeni mərhələyə yüksəldir. Hər rəqəmin arxasında məsuliyyət, hər hesabatın arxasında etimad, hər sistemin arxasında isə şəffaflıq dayanır”.

AZƏRBAYCAN QİYMƏTLƏNDİRİCİLƏR PALATASI

Sədr müavini qeyd edib ki, yeni mərhələnin texnoloji əsasını palatanın elektron portalı təşkil edir: “Bu portal qiymətləndirmə təşkilatlarının fəaliyyətini vahid mərkəzdən izləməyə, hesabatların keyfiyyətini təhlil etməyə imkan verir. Əvvəllər keyfiyyətə nəzarət prosesi kağız daşıyıcılar üzərində və insan amili ilə həyata keçirilirdisə, indən belə bütün mərhələlər – işin icrasından auditə qədər portal üzərindən avtomatik və şəffaf şəkildə izlənəcək. Bu sistem qiymətləndirici təşkilatlar üçün bələdçi rolunu oynayacaq. Hər bir təşkilat portaldakı “Keyfiyyət reytinqi” vasitəsilə öz fəaliyyət göstəricilərini görəcək, çatışmazlıqları müəyyən edərək təkmilləşmə planı hazırlaya biləcək”, – deyə palata rəsmisi açıqlayıb.

***İ.RÜSTƏMOV***
***XQ***

# Mədəniyyət elçilərimiz Antalyada

**Noyabrın 3-də Türkiyənin Antalya şəhərində Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu öz işinə başlayıb. Forum Azərbaycan Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilir.**






Mədəniyyət naziri Adil Kərimli çıxışında bildirib ki, Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu ölkəmizin mədəni diplomatiyasının inkişafında mühüm mərhələ hesab olunur. Bu təşəbbüs Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən mədəniyyətin və milli kimliyin qorunması, eləcə də onun beynəlxalq müstəvidə tanıdılması istiqamətində həyata keçirilən uzaqgörən siyasətin məntiqi davamıdır.

Nazir deyib ki, forumun məqsədi mədəniyyət elçiləri və onların şəbəkəsi vasitəsilə mədəniyyətimizin beynəlxalq səviyyədə mütəşəkkil təbliği, xaricdə yaşayan mədəniyyət xadimlərinin fəaliyyətinin stimullaşdırılması, incəsənət və yaradıcılıq sahələrinin inkişafına əlavə dəstəyin verilməsidir. Xaricdəki Azərbaycan Mədəniyyət mərkəzləri və Azərbaycan evlərinin daha sıx əməkdaşlığına nail olunması da forumun əsas hədəfidir.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, ötən il ərzində dünyanın müxtəlif ölkələrində soydaşlarımız tərəfindən 800-dən çox mədəni tədbir, layihə və təşəbbüslər həyata keçirilib. O vurğulayıb ki, Mədəniyyət Nazirliyi başda olmaqla, bütün dövlət qurumları bu prosesə həssaslıqla yanaşır və hər bir təşəbbüsə dəstək göstərir.

Milli Məclis sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov, Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu, Azərbaycan Mədəniyyət Elçiləri Forumu TK-nın sədri, Xalq artisti Cahangir Novruzov çıxış edərək Azərbaycan mədəniyyətinin zənginliyini, tarixi irsini və bədii dəyərlərinin dünyaya çatdırılmasının vacibliyini vurğulayıblar.

Qeyd edək ki, Azərbaycanın Türkiyədəki səfirliyinin dəstəyi ilə reallaşan Forum noyabrın 5-dək davam edəcək. Forum çərçivəsində yaradıcılıq təqdimatları, mədəniyyət layihələrinin nümayişi, plenar müzakirələr, eləcə də mədəni əməkdaşlıq protokollarının imzalanması nəzərdə tutulur. Tədbirin gedişində, həmçinin Azərbaycan musiqisi, teatr və rəqs sənəti əsasında maraqlı bədii proqramlar da təqdim olunacaq.

***XQ***

# Qazax ruhunu tablolarda canlandıran ustad sənətkar

## *Rəssam Yerbolat Tolepbay rənglərin dili ilə insanları mərhəmətli olmağa səsləyir*

**Səhərdir. Azərbaycan Dövlət Kukla Teatrı ilə üzbəüz, yolun əks tərəfindəki "Ağ zanbaqlar" bağına çatan kimi saata baxıram. 10 tamama bir neçə dəqiqə qalıb. Vaxtında özümü yetirmişəm. Görkəmli qazax rəssamı Yerbolat Tolepbay bu məkanda XQ-yə müsahibə verəcəyini vəd edib.**

Hava ilıq, günəşli və yağmursuzdur. Ətrafa boylanıram. Kafenin qarşısında səliqə ilə düzülən masaların birində hörmətli qonağın əyləşdiyini görürəm. Rəssamı internetdən vizual olaraq tanıyıram. Baxışlarımız toqquşur və lütfkarcasına məni əyləşdiyi stola dəvət edir. İlk sözə də özü başlayır:

– Dünyanın, az qala, yarısında olmuşam. Heç yerdə Bakıdakı kimi dadlı çay içməmişəm. Sizin mətbəxiniz də çox zəngin və ləzzətlidir. Düz deyirlər ki, dünyanın cənnət-məkanıdır Azərbaycan!

Yerbolat Tolepbayı, haqlı olaraq Qazaxıstanın çağdaş rəngkarlıq sənətinin canlı əfsanəsi adlandırırlar. Məndən cəmi yaş yarım böyükdür. Bu il oktyabrın 2-də 70 yaşı Astanada böyük təntənə ilə qeyd olunub. Paytaxtdakı Milli Muzeydə 65 tablosundan ibarət "Məbədə yol" adlı sərgisi açılıb. Qazaxıstan Senatının sədri mərasimdə yubilyarın qazax xalqının mədəniyyətindəki yeri və rolu barədə dəyərli fikirlər söyləyib.

Çox sadə insandır, həyatsevərdir. Danışıq və davranış tərzindən, mehriban, səmimi sözlərindən hiss edirəm ki, qeyri-adi coşqusu, xarizması olan yaradıcı insanlardandır.

Bakıya neçənci dəfə gəldiyini soruşuram. Sən demə, yanılmışam:

– Bu gözəl şəhərə ilk dəfədir ki, gəlmişəm. Bakıda çox sayda dostlarım var. Onlar məni çoxdan bura dəvət edirdilər. Allaha şükür, nəhayət, bu, mənə qismət oldu. Bir neçə gündür ki, buradayam. Şəhər sakinləri çox səmimi, təmiz qəlbli, insanlardır.

Dünya şöhrətli rəssamın paytaxtımız və onun dostcanlı, qonaqpərvər sakinləri barədə xoş sözləri ürəyimə yağ kimi yayılır. Bunun cavabında qonağa nə deyim? Deyim ki, eşitdiyimə görə, ucsuz-bucaqsız bərəkətli çöllərə, nəhayətsiz düzənliklərə malik olan Qazaxıstanın müstəqillik dönəmində parlaq uğurları barədə çox eşitmişəm. Deyim ki, Stalin repressiyası dövründə qazaxlar bura sürgün olunmuş azərbaycanlı ailələrlə bir tikə çörəklərini bölüşüblər, çoxlarını aclıq və ölümdən xilas ediblər. Bunu həmin hadisələrin canlı şahidlərinin dilindən eşitmişəm.

Yaxud deyim ki, 1990-cı ilin 20 yanvarında sovetin hərb maşını şəhərimizin meydanlarında "azadlıq!" hayqıran insanları gülləbaran etdiyi zaman böyük qazax şairi, o vaxt SSRİ Ali Sovetinin deputatı Oljas Süleymenov təcili Bakıya gələrək Kremlə qarşı kəskin etiraz səsini yüksəldib. "Az i ya"nın müəllifi hər bir azərbaycanlının qəlbində özünə əbədi heykəl ucaldıb.

Ürəyimdən keçənləri təbii ki, dilə gətirib səsləndirməyə bilməzdim. Qonaq məni diqqətlə dinləyib məmnun qalır. Hətta müsahibə götürməli olduğumu da, az qala, unutmuşdum.

Birdən-birə ağlıma belə bir sual gəlir:

**– Yerbolat bəy, necə hesab edirsiniz, səsin rəngi varmı?**

O, sanki bu qəfil sualı gözləyirmiş kimi, gülümsəyərək cavab verir:

– Səsin də, sözün də, hətta fikir və düşüncəsində minlərlə rəng çalarları var. Məsələn, əsl, həqiqi dostların səsi mavi rəngdə olur. Sizin və bizim Xəzərin rəngi kimi...

**– Amma mən Xəzəri onun qəzəbli çağlarında qaramtıl rəngdə də görmüşəm...**

– Yəqin ki, həmin anlarda Xəzərin xətrinə dəyənlər olub. Bundan sonra heç kim bu gözəl dənizin xətrinə dəyə bilməz. Xəzərin suları onun sahillərində yerləşən xalqlar və dövlətlər arasında dostluq, qardaşlıq körpüsü olacaq!

**– Bildiyimə görə, atanız partiya işçisi olub. Bəs necə oldu ki, siz erkən yaşlarınızdan rəssamlıq sənətinə meyil göstərdiniz?**

– Böyük qardaşım Tokbolat çox istedadlı rəssam olub. Xalq rəssamı idi. Bu sənətə qəlbimdəki yanğının ilk qığılcımlarını məhz o alovlandırıb. Təəssüf ki, qardaşım həyatda az yaşadı, cavan vaxtlarında dünyasını dəyişdi.

***Araya pauza çökür. Sükutu rəssam özü pozmalı olur:***

– Rəhmətlik qardaşımla bağlı bir məqam məni bu gün də çox üzür. Jurnalistlər tez-tez qardaşımla birgə fotomuzu xahiş edirlər. Ailə albomumuzda bir dənə də olsun, birgə fotomuzu tapa bilmədim. Halbuki çox mehriban olmuşuq...

***Əziz oxucu, bu məqamda hörmətli qonaq barədə bəzi avtobioqrafik məlumatları ayrıca qeyd etməyi gərəkli bilirəm. O, 1955-ci ildə Cənubi Qazaxıstan vilayətinin Kaskasu şəhərində dünyaya göz açıb. Əməkdar mədəniyyət işçisi, Dövlət mükafatı laureatıdır. Qazaxıstan, Rusiya, Çexiya və Qırğızıstan Rəssamlıq akademiyalarının akademikidir. Müasir dünya rəngkarlığında sürrealizm cərəyanının parlaq təmsilçilərindən, dahi ispan rəssamı Salvador Dalinin ən istedadlı davamçılarından sayılır. Titulları və yüksək mükafatları hədsiz çoxdur, hamısını sadalasam, böyük bir siyahı alınar.***

Yenidən həmsöhbətimə müraciət edirəm:

**– Sənət kredonuz barədə düşüncələrinizi dilinizdən eşitmək istərdik...**

– Bütün yaradıcı peşələrin təmsilçiləri kimi, fırça ustalarının həyatda və yaradıcılıqda yalnız bir məramı var. O da yaratdıqları sənət əsərləri vasitəsilə insanların ruhunu sevindirmək, həyatını gözəlləşdirməkdir. Mənim nəzərimdə əsl insan qəlbində, düşüncəsində, əməllərində mərhəmət hissi daşıyan insandır. Ürəyində xeyirxahlıq olmayanlar şeytanın məkrinə tez aldanırlar, onun qulu olurlar.

Düşünürəm ki, məhz hər bir gözəl rəngkarlıq əsəri, ecazkar musiqi, ruha və ağla qida verən dəyərli bədii kitab və s. bəşər övladını pisliklərdən qoruyur, onu daxilən zənginləşdirir. Mən bu əqidə ilə hər dəfə yeni tablolarımı yaradıram.

Düşünürəm ki, dinsiz, Allahsız fərdlər və cəmiyyətlər bəşəriyyət üçün təhlükədir. Amma din mədəniyyətlə birlikdə qoşa addımlamalıdır. Hər hansı bir toplum inkişaf və tərəqqi yoluna çıxmağı arzulayırsa, bu amili mütləq nəzərə almalıdır.

**– Sizin həyat fəlsəfənizi bəyənir və qəbul edirəm. Özüm də belə düşünürəm. İndi isə belə bir sualım da var: Sənətşünaslar sizin yaradıcılığınızı əsasən 2 hissəyə bölürlər. Onların fikrincə, siz yaradıcılığınızın təxminən ilk 25 ilini, yəni 2000-ci illərə qədər olan dönəmini geniş profilli, çoxfiqurlu tablolar yaratmağa həsr edibsinizsə, hazırkı dövrdə isə daha çox insanın daxili aləminə nüfuz etməyə çalışırsınız. Belə qəbildən olan mülahizələrə münasibətiniz necədir?**

– Fikrimcə, sənətşünas dostları, bütövlükdə, öz qənaətlərində haqlıdırlar. Amma yaradıcılığın sərhədlərini müəyyənləşdirmək çox çətin, bəlkə də qeyri-mümkündür. Janrından, hansı cərəyana aid edilməsindən asılı olmayaraq, yaratdığım əsərlərin hər biri mənim üçün əzizdir. Ən əsası odur ki, hər bir sənət əsəri qəlblərdə humanist duyğuları cücərtsin.

***Bu arada ofisiant çayı təzələyir. Mən limonlu, pürrəngi çay içə-içə həvəslə onu dinləyirəm. O isə həyat və sənət fəlsəfəsinin ən incə məqamlarını böyük şövqlə dilə gətirir:***

– Bilirsinizmi, yaradıcı insanlar xalqının qəlbindəki işığı üzə çıxarmağa cəhd etməlidir. Mən doğma Qazaxıstanı, onun geniş çöllərində köçəri həyat sürən, hər zaman azadlıq təşnəsi ilə qurub-yaradan xalqımın ruhunu, bənzərsiz həyat tərzini bütün dünyaya nümayiş etdirməyə çalışıram.

Bir vaxtlar deyirdilər ki, böyük ədəbiyyatı yalnız böyük millətlərin nümayəndələri yarada bilərlər. Bu fikrin səhv olduğunu dahi Çingiz Aytmatov öz parlaq yaradıcılığı ilə sübuta yetirdi. Bu gün Yer kürəsində ondan çox oxunan yazıçı yoxdur.

Maraqlıdır, təkcə ədəbiyyatda, incəsənətdə deyil, böyük siyasətdə də sayca elə də böyük olmayan xalqların görkəmli siyasətçilər yetişdirə bildikləri bəlli oldu. Hesab edirəm ki, Azərbaycanın bugünkü parlaq uğurlarının bünövrəsində dahi şəxsiyyət Heydər Əliyevin titanik səyləri dayanır.

Yeri gəlmişkən, əziz Heydər Əlirza oğlu ilə bizim Nursultan Abışoviç (Nazarbayev nəzərdə tutulur – müəllif) ilə çox yaxın dost olublar. Xoşbəxtlikdən, bu gözəl ənənəni Azərbaycan və Qazaxıstanın hazırkı prezidentləri cənab İlham Əliyev və Kasım-Jomart Tokayev davam etdirirlər.





Bir müddət əvvəl Ağ Evin hazırkı sahibi Donald Tramp İlham Əliyevi və Türkiyə dövlətinin başçısı sayın Rəcəb Tayyib Ərdoğanı böyük siyasətçilər adlandırdı. Bunu Amerika kimi dünyanın başçısı deyir. Biz Qazaxıstanda bunu eşidəndə dünyalar qədər sevindik. Bilirik ki, Türkiyə və Azərbaycan ən çətin anda qazax xalqının yanında olacaqlar. Qazax xalqı da eyni əqidədədir. Dünyanın bu çətin, təlatümlü dönəmində türk dövlətləri və xalqlarının qardaşlıq ənənələrini davam etdirməsi son dərəcə vacibdir.

**– Siz müsahibələrinizdə dəfələrlə görkəmli rəssam Tahir Salahovdan ürəkdolusu söz açmısınız. Bu böyük fırça ustası ilə bağlı düşüncələrinizi növbəti dəfə oxucularımızla bölüşməyinizi rica edirəm.**

– Böyük məmnuniyyətlə. Unudulmaz Tahir Salahov böyük sənətkar olmaqla bərabər, böyük ürək sahibi, çox xeyirxah insan idi. Bir nümunə göstərim. 1987-ci il idi. Necə deyərlər, söz vaxtına çəkər. Elə indiki kimi ilıq payız günlərindən biri idi. Qazaxıstanın o vaxtkı mədəniyyət naziri ilə Nyu-Yorkda keçirilən tədbirdə iştirak edirdik. Vətənə qayıtmaq ərəfəsində bir mağazaya getdik. Oradakı videopleyerlərdə gözümüz qaldı. Nə mənim, nə də nazirin videopleyeri vardı. Almaq istədik, amma pulumuz çatmadı. Sovet dönəmində xaricə səfər edənlərə çox az valyuta dəyişməyə icazə verirdilər.

Mağazadan çıxıb qarşıdakı parka tərəf gedəndə bahalı maşından son dəblə geyinmiş 2 nəfərin düşdüyünü gördük. Mən əvvəlcə elə bildim ki, bunlar hansısa milyonerlərdir, məsələn, Rokfellerin qohum-qardaşlarıdır. Aramızda 20 metr məsafə olanda qarşıdakı şəxslərdən biri məni çağırdı:

– Yerbolat, əzizim, nə yaxşı oldu, sən də burdasan?!

Bu, Tahir Salahov idi. Yanında isə dünya şöhrətli heykəltaraş Zurab Sereteli durmuşdu. Qucaqlaşdıq. Biləndə ki, yaxınlıqdakı mağazadan videopleyer almağa valyutamız çatmır, Tahir Salahov cibindəki bütün pulu çıxarıb güclə cibimə basdı. Dedi ki, sabah Moskvaya uçacaq, orada isə ona dollar lazım olmayacaq. Belə kişi idi Tahir Salahov!

**– Sabah türk qardaşlarımızın dililə desək, uçaqla Ankaraya yola düşürsünüz. Sirr deyilsə, orada hansı planlarınız var?**

– Ankarada məni türk dövlətlərində rəngkarlığın inkişafı ilə bağlı toplantıya dəvət ediblər. Ola bilər ki, eyni zamanda, yubileyimlə bağlı məni bir qədər tərifləyəcəklər (gülümsəyir).



Bir neçə il əvvəl qardaş ölkədə ağır zəlzələ olanda, bundan çox sarsılmışdım. Bu dəhşətli fəlakətdən zərər çəkən ailələrə gücüm çatan qədər maddi dəstək göstərdim. Bunu özümü reklam üçün demirəm. Sadəcə, insanlıq borcum idi. İmkan olsa, zəlzələ bölgəsinə də baş çəkəcəyəm.

**– Hörmətli Yerbolat bəy, səmimi söhbət üçün çox sağ olun!**

– Siz də sağ olun, gəlin, xatirə şəkli çəkdirək. Son illər hara getsəm, dostlarla birgə şəkil çəkdirirəm. Lütfən, "Xalq qəzeti"nin kollektivinə salamlarımı çatdırın. Bizim Alma-Atıya yolunuz düşsə, şad olaram.

*Söhbəti yazdı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

**Azad Xankəndini dolaşdıqca həsrətin acısı insanın canından zərrə-zərrə çıxır, ruhuna xoş vüsal duyğusu hakim kəsilir. Dörd tərəfdə gedən bərpa-quruculuq, təmir edilən binalar, yeni açılan iaşə obyektləri, insan "qaynayan" parklardan boylanan güllər, çiçəklər bu tarixi şəhərimizi daha da gözəlləşdirir. Xankəndiyə həyat qayıdıb, Xankəndi əsl sahiblərinə, doğma övladlarına qucaq açdığı üçün xoşbəxt görünür. Ancaq Xankəndini, ümumilikdə, Qarabağımızı, Şərqi Zəngəzurumuzu xoşbəxtliyə qovuşduran başqa bir məqam da var...**

# Xankəndidən havalanır "Qarabağın şikəstəsi"

### Ucadan çalıb-oxuyun!

Azərbaycan prospekti ilə qalxıb "Pianino parkı"na çathaçatda, yolun sol tərəfindəki binanın qarşısından keçəndə çal-çağır eşitsəniz, həzin muğamımızın canlı ifasından yayılan sehrli səslər iliyinizə qədər işləsə, təəccüblənməyin. Burada hərdən ən vacib işini belə təxirə salıb həmin sehrli səslərə qulaq asmaq üçün dayananlar az olmur. Lap məşhur "Bəxtiyar" filmindəki kimi.

Düz bir ildir belədir, Qarabağ Universitetinin İncəsənət fakültəsi fəaliyyətə başlayandan. Bu binada illər boyu düşmən tapdağı altında inləyən torpaqlarımızın eşitməyə həsrət qaldığı muğamımız yenidən not-not, pərdə-pərdə yazılır, mədəniyyətimizin, incəsənətimizin yeni Qarabağ erasının ilk mizrabları vurulur. İşğaldan azad olunmuş yurd yerlərimizin ruhunu canlandıran, xoşbəxt edən həm də budur.

Yəqin, indi yarımbaşlığın bir zarafat olmadığı aydınlaşdı. Çünki bu binada yerləşən otaqlarında müəllimlər öz yetirmələrinə "dərs gedir, sakit olun" əvəzinə, "səsiniz ucadan gəlsin" deyirlər. Şikəstəyə çevrilərək elə ucadan gəlsin ki, axşamüstü uzaqlara, Qarabağın dağlarına, dərələrinə yayılsın, havalansın!



### Qarabağın havası, suyu şirin səs qaynağıdır

Bu bina haqqında söhbəti səbəbsiz salmadıq. Dəyərli sənətkarımız, Azərbaycanın Əməkdar artisti, Qarabağ Universitetinin müəllimi Ehtiram Hüseynovla burada görüşdük. Ehtiram müəllim dedi ki, ən yaxşı yer mənim dərs otağımdır. Yüksək səviyyədə təmir edilmiş, müasir təhlükəsizlik sistemi ilə təhciz olunmuş binanın işıqlı, geniş otağında sənətkar öz yetirmələri ilə dərsin son akkordlarını vurmaqda idi. Həm Ehtiram müəllim, həm tələbəsi elə ürəklə oxuyurdu ki...

**Dərs bitir, hal-əhval tuturuq, sənətkar deyir:**

– Yaxşıyam, əhvali-ruhiyyəm də əladır. Burada başqa cür ola da bilməz. Həqiqətən, Qarabağın havasından, suyundandır, nədirsə, bura gələn özünü yaxşı hiss edir. Dostlarım da məni tək qoymurlar, elə sizdən əvvəl qonaqlarım vardı. Qarabağda, Xankəndidə ürəyin istədiyi insanlarla görüşmək ona görə çox xoşdur ki, uzun illər bu doğma yerlərimizin həsrəti ilə yaşamışıq. Özü də təkcə qarabağlılar, məcburi köçkün düşmüş insanlar deyil, bütün xalqımız nə vaxtsa işğaldan azad ediləcək torpaqlarımızda görüşməyi arzulayıb, burada yaşamağın, işləməyin xəyallarını qurub. Çox şükür ki, Müzəffər Ali Baş Komandanımızın uğurlu siyasəti, dəmir iradəsi, sarsılmaz qətiyyəti sayəsində bu günləri görmək bizə qismət oldu. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin.

**Ehtiram Hüseynovun Xankəndiyə gəlişi bəzi sənət dostları üçün gözlənilməz olmuşdu. Elə səsinin heyranlarından da sənətkarın Bakıdakı işlərini qoyub yaşamaq, çalışmaq üçün Qarabağa üz tutmasını təəccüblə qarşılayanlar az olmadı. Səbəbini soruşuram. Bildirir ki, torpaqlarımız işğaldan azad olunandan sonra imkan düşdükcə özümü veriridim bu tərəflərə, necə deyərlər, bir yanım qaçaq idi:**

– Çox istəyirdim ki, birdəfəlik gələm. Antiterror tədbirlərindən sonra bu istəyim daha da artdı. Düzü, müvəqqəti işləmək üçün deyil, daimi yaşamaq üçün gəlməyi arzulayırdım. Cənab Prezidentimizin Sərəncamı ilə Qarabağ Universiteti yarananda İncəsənət fakültəsinin fəaliyyət göstərəcəyini öyrəndim. Bildirdim ki, böyük məmnuniyyətlə gedib orada işləmək istəyərəm. Qismətdən, elə ilk tədris ilindən tələbə çox oldu, müəllimə ehtiyac yarandı və məni dəvət etdilər. Qətiyyən tərəddüd etmədən Xankəndiyə gəldim, bir ildir buradayam. İşimdən də, bizim üçün yaradılmış şəraitdən də razıyam. Çox dəyərli sənətkarlardan ibarət kollektivimiz var. Biz burada böyük bir ailəyik. Bu ab-havanı yaradan Qarabağ Universitetinin rəhbərliyinə təşəkkür edirəm.

**– Qərarınıza təəccüblənənlər də oldu...**

– Hə, axı hər bir xanəndənin arzuladığı bütün imkanlara malik idim. Milli Konservatoriyada dərs deyirdim, uzun illərdir Akademik Filarmoniyanın solisti idim, eyni zamanda, Azərbaycan Dövlət Televiziyasında işləyirdim. Bütün bunları qoyub Qarabağa gəlməyimi təəccüblə qarşılayanlar da oldu. Ancaq gəlməyimə peşman deyiləm. Biz bura gəlməliyik, burada olmalıyıq.

### "Yenidən 11 yaşından yaşamağa başlamışam"

**Ehtiram Hüseynov bir neçə il əvvəl müsahibələrindən birində demişdi ki, Laçını hansı yaşda tərk etmişdimsə, geri qayıdanda həmin yaşdan yaşamağa başlayacam. İndi soruşanlara da zarafatla cavab verir ki, sözümə əməl etmişəm:**

– Düzdür, hərdən bu günləri görə bilməyən, itirdiyimiz insanları xatırlayıb kövrəlirəm. Ancaq Laçını, Qarabağı gəzdikcə, dağlara çıxdıqca, yaylaqlara köçmüş insanları, orada otlaqlara yayılmış sürüləri, atları gördükcə şükür edirəm. Elə bil ömrümün illərində montaj edib məcburi köçkünlük dövrünə düşən 30 ilini kəsib götürmüşəm və yenidən 11 yaşımdan yaşamağa başlamışam.

**Bəs, muğam ifaçılığının sirlərini öyrənmək məqsədilə Qarabağ Universitetini seçən, Xankəndiyə üz tutan gənclər ümidləri doğruldurmu? Bir ilin müşahidələri nə göstərir? Ehtiram müəllim qürurla yaxşı səsi olan, ürəklə, həvəslə oxuyan tələbələrinin olduğunu deyir:**

– Onlardan biri, Səma Sultanova IX "Muğam" Televiziya Müsabiqəsində ilk iyirmiliyə qədər irəlilədi. İnşallah, bu uğurlar davamlı olacaq, Qarabağ Universitetinin tələbələrinin səsi daha yüksəklərdən gələcək. Ancaq bir məqamı qeyd etməliyəm. Qarabağın havasının, suyunun, təbiətinin bəxş etdiyi yeni istedadlar nəslinin yetişməsi üçün zaman lazımdır. O nəsil geri qayıdan əhali bir müddət burada yaşayandan sonra yaranacaq.

**- Xanəndə Ehtiram Hüseynovun məxsusi Qarabağda, Laçında oxumaq üçün saxladığı hansısa muğam, təsnif, yaxud mahnı olubmu?**

Yox, çünki burada nəinki oxumağın, gəzməyin, yaşamağın, hətta çay içməyin özü də fərqlidir, özünəməxsusdur. Ona görə də, Qarabağda nə oxusam yeni ifa kimi alınır. Ağdamdan, yaxud Füzuli istiqamətindən işğaldan azad olunmuş ərazilərə daxil olanda əhvalım yaxşılaşır, ürəyimə sevinc, qürur hissi dolur. Fikirləşirəm ki, ömrümüzün ən gözəl yaş dövrünü, uşaqlığımızı, məhsuldar illərini itirdik, ancaq çox şükür ki, yenidən azad yurdumuzdayıq. Mən yayda demək olar, Bakıya getmədim, Xankəndidə qaldım, Laçında oldum. İndi Xankəndiyə necə öyrəşmişəmsə, hətta Laçına gedəndə də bura üçün darıxıram. Burada biz həm işləyir, həm də istirahət edirik. Xoşbəxtəm ki, sevdiyim yerdə sevdiyim işlə məşğulam. Qarabağımızın, Şərqi Zəngəzurumuzun işıqlı gələcəyi başlayıb. Biz də çalışırıq yeni yazılan bu tarixə töhfə verək.

Bəli, işıqlı gələcəyə sürətlə addımlayan, inkişafı, dirçəlişi dost sevindirən, düşmən gözü çıxaran Qarabağımızda musiqi kimi xoş söhbətimizi bitirib, Laçın kəklikotusu ilə dəmlənmiş can dərmanı çayımızı içib, Azərbaycanın Əməkdar artisti Ehtiram Hüseynovla sağollaşırıq. Qəzetimiz vasitəsilə azad Xankəndidən hamıya salam və cansağlığı arzularını göndərir. Və "arada gəlin, çay içək, söhbətləşək" deyir...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Türkiyənin İraqda su layihələri



(əvvəli 1-ci səhifədə)

İraq hökuməti su infrastrukturu sahəsində genişmiqyaslı layihələr həyata keçirməyə hazırlaşır. Bu layihələrə üç su anbarı və üç meliorasiya təşəbbüsü daxildir. Məqsəd illərlə davam edən su qıtlığını aradan qaldırmaq, kənd təsərrüfatını bərpa etmək və iqlim dəyişikliklərinin təsirlərini azaltmaqdır. Maliyyələşdirmə mənbəyi kimi neft gəlirlərinin seçilməsi həm praktik, həm də simvolik məna daşıyır: İraq öz təbii sərvətlərindən istifadə etməklə daxili ehtiyaclarını ödəməyə çalışır, Türkiyə isə regional iqtisadi təsirini artırmaq üçün mühəndislik və texnologiya potensialını dövriyyəyə salır.

İraq və Türkiyə arasında su ehtiyatları məsələsi uzun illərdir ən həssas mövzulardan biridir. İraq su ehtiyatlarının, təxminən, 70 faizini qonşu ölkələrdən alır və bu axın əsasən Türkiyə ərazisindən keçən Dəclə və Fərat çaylarına bağlıdır. Son onilliklərdə Türkiyənin "Güneydoğu Anadolu Layihəsi" çərçivəsində inşa etdiyi iri bəndlər, o cümlədən Atatürk, İlısu və Karakaya bəndləri - İraqa axan suyun miqdarını xeyli azaldıb. BMT-nin 2024-cü il hesabatına görə, İraqda hər adambaşına düşən illik təmiz su həcmi 2000-ci illə müqayisədə 2 dəfə azalıb və 900 kubmetrdən aşağı səviyyəyə enib. Bu göstərici ölkəni su stressi yaşayan dövlətlər kateqoriyasına daxil edir.

İqlim dəyişiklikləri fonunda vəziyyət daha da pisləşir. Dünya Bankının proqnozuna əsasən, 2040-cı ilə qədər İraqda su qıtlığı səbəbindən kənd təsərrüfatı məhsuldarlığı 20–25 faiz azalacaq. Əgər bu tendensiya davam edərsə, 2050-ci ilə qədər ölkə əhalisinin üçdəbiri, təxminən 15 milyon nəfər su çatışmazlığından birbaşa təsirlənəcək. Eyni zamanda, BMT-nin məlumatına görə, Dəclə və Fərat çaylarında suyun səviyyəsi son 40 ildə 30 faiz azalıb. Bu proses təkcə İraq üçün deyil, həm də Suriyanın şimal bölgələri və Fars körfəzi hövzəsi üçün ciddi ekoloji risklər yaradır.

Yeni razılaşma məhz belə bir şəraitdə formalaşır. İndi tərəflər suyun miqdarını deyil, onun idarə edilməsini və iqtisadi dəyərini ön plana çəkirlər. Ankara bu sazişlə təkcə axının idarəçisi deyil, həm də texnoloji və investisiya tərəfdaşı rolunu möhkəmləndirir. Bu isə gələcəkdə su siyasətinin iqtisadi əməkdaşlıqla birləşdirildiyi "praktik diplomatiya" modelinin yaranmasına səbəb ola bilər.

Sazişin əhəmiyyəti təkcə iqtisadi deyil, həm də geosiyasi xarakter daşıyır. Türkiyə Orta Şərqdə artan təsirini enerji və infrastruktur layihələri vasitəsilə gücləndirir, İraq isə infrastruktur asılılığını Qərb şirkətlərindən qismən azaldaraq regional tərəfdaşlara daha balanslı əməkdaşlığa üstünlük verir. Suyun, neftin və texnologiyanın bu formada birləşdirilməsi həm də regionda yeni güc balansının formalaşmasına təkan verir.

İraq–Türkiyə sazişi göstərir ki, regionun gələcəyi sərt geosiyasi rəqabətdən daha çox qarşılıqlı asılılıq üzərində qurula bilər. Neftin suya, suyun isə sabitliyə çevrilməsi bu yeni mərhələnin əsas fəlsəfəsini təşkil edir. Əgər layihələr uğurla icra edilərsə, bu əməkdaşlıq Yaxın Şərqdə "resurs diplomatiyası" adlana biləcək yeni anlayışın əsasını qoya bilər - yəni enerji və suyun bir-birini tamamladığı, qarşılıqlı faydaya əsaslanan inteqrasiya modelinə üstünlük verilə bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# İran səfiri Naxçıvanda

**Noyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu ilə görüşüb.**



Görüşdə dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri nəticəsində iki ölkə arasında yaranan qarşılıqlı əlaqələrdən, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının bu əlaqələrdə rolundan danışılıb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İran İslam Respublikasının Naxçıvandakı baş konsulu Əziz Mənsuri görüşdə iştirak edib.

***XQ***

**Əmanətlərin Sığortalanması Fondu Lənkəran Dövlət Universitetində (LDU) maliyyə savadlılığının artırılması məqsədilə "Beynəlxalq Əmanət Günü: Əmanətlərin qorunması – sabit maliyyə sisteminin əsası" mövzusunda əsas hədəf qruplardan olan tələbələr üçün təlim keçib.**

# Lənkəranda əmanətlərin qorunması mövzusunda təlim








Təlimdə LDU-nun iqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Gülbəniz Əliyeva, Əmanətlərin Sığortalanması Fondunun risklərin idarə edilməsi, təhlil və investisiya departamentinin direktoru Cəlal Rayi, ümumi işlər departamentinin direktor müavini Emil Bayramov, hüquq departamentinin əməkdaşı Mirzəhra Miriyeva, risklərin idarə edilməsi, təhlil və investisiya departamentinin baş mütəxəssisi Lalə Cəfərli iştirak ediblər.



Spikerlər tələbələri əmanətlərin sığortalanması sisteminin təkamülü, əmanətlərin sığortalanması sistemi və qanunvericilik, risklərin idarə edilməsi, risk əsaslı sığortalanma mexanizmi, habelə böhran zamanı kommunikasiyanın rolu mövzularında maarifləndiriblər. Təlimin sonunda iştirakçılara Fond tərəfindən sertifikat və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Əmanətlərin Sığortalanması Fondu maliyyə savadlılığının artırılması məqsədilə tələbə gənclər üçün bu səpkili təlimləri, eləcə də əhalinin maliyyə bilik və bacarıqlarının artırılmasına yönəlmiş müxtəlif tədbirləri gələcəkdə də davam etdirəcəkdir.

Əmanətlərin Sığortalanması Fondu bundan sonra da ölkənin müxtəlif regionlarında tələbə və digər əhali kateqoriyaları üçün oxşar maarifləndirici tədbirlər keçirməklə maliyyə savadlılığının artırılmasını və əmanətçilərin hüquqlarının müdafiəsinə dair biliklərin genişləndirilməsini davam etdirməyi planlaşdırır.

***Q.YUSİFOĞLU***
***XQ***

# Ermənistan Azərbaycan qazının idxalçısına çevrilə bilər

(əvvəli 1-ci səhifədə)

Son dövrlər baş nazir Nikol Paşinyan və hökumət üzvlərinin çıxışlarında bu reallıq açıq şəkildə etiraf olunur. Onlar bildirirlər ki, Azərbaycanla qarşılıqlı əməkdaşlıq ölkənin iqtisadi durumuna müsbət təsir göstərə bilər. Rəsmilərin xüsusilə enerji sektorunda Azərbaycanın geniş imkanlarından faydalanmaq istəkləri diqqət çəkir. Hazırda təbii qaz idxal edən Ermənistan hakimiyyəti yaxın gələcəkdə Azərbaycan qazının alınmasını istisna etmir. Bu məsələni ilk dəfə açıq şəkildə gündəmə gətirən Ermənistan parlamentinin sədri Alen Simonyan olub. O, ötən il parlamentdəki çıxışında qeyd etmişdi ki, "Ermənistanın Azərbaycandan qaz alması ideyasını mən müsbət qiymətləndirirəm, bu barədə danışıqlar aparmaq lazımdır. Onsuz da hazırda Rusiya Federasiyasından aldığımız qazın bir hissəsi Azərbaycan mənşəlidir".

Qeyd edək ki, bu günlərdə mövzu Ermənistanda yenidən aktuallıq qazanıb. Erməni politoloq Benyamin Matevosyan deyib ki, Ermənistan hökuməti Azərbaycandan təbii qaz almağı planlaşdırır. O, fikrini bu cür əsaslandırıb: "Avronest"in İrəvanda keçirilən son plenar iclasında Avropa Parlamentinin bir üzvü Ermənistanı Rusiya qazı və işığından imtina etməyə çağırmışdı. Avropalı parlamentari, əslində, Ermənistanın hakim partiyası Mülki Müqavilənin mövqeyinin ifadə edib". Politoloq partiyanın deputatı Qagik Melkonyandan sitat da gətirib: "Azərbaycan qazı zəhərlidirmi ki, onu almayaq? Bir gün Rusiya qazından imtina etmək lazımdır ki, müstəqil yaşaya bilək".

Bəs Ermənistanla bu sahədə əməkdaşlıq mümkündürmü? 14 ölkəyə təbii qaz ixrac edən Azərbaycan Ermənistanın bu sıraya qoşulmasına icazə verəcəkmi? Rəsmi Bakının bu məsələ ilə bağlı mövqeyinə gəldikdə deyə bilərik ki, ötən il aprelin 25-də Prezident İlham Əliyev məsələyə münasibət bildirib. Dövlət başçısı qeyd edib: "Əgər Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli toqquşmaya son qoyulsa və yaxın zamanda sülh sazişi imzalansa, onda dayanıqlı sabitlik və təhlükəsizlikdən, region ölkələrinin əməkdaşlığından danışmaq olar". Ölkə rəhbəri əlavə edib: "...Gürcüstanın qaz təchizatının təxminən 100 faizini Azərbaycan təmin edir. Potensial qaydada xüsusən də, Gürcüstan üçün təbii qazın qiymətinin çox əlverişli və güzəştli olmasını nəzərə alaraq, Ermənistan da Azərbaycan qazını ala bilər. Yaxınlıq, infrastruktur baxımından, əlbəttə ki, bu cür əməkdaşlıq təbii olardı".

Bir sözlə, Prezident İlham Əliyevin fikirlərindən də aydın görünür ki, sülh müqaviləsi imzalandığı təqdirdə, belə bir əməkdaşlıq ola bilər. Nəzərə alsaq ki, avqust ayında Vaşinqtonda XİN rəhbərlərinin iştirakı ilə 17 maddədən ibarət saziş layihəsi paraflanıb və hazırda regionda de-fakto sülh hökm sürür. Yekun sülh sazişinin imzalanması isə Ermənistanın sonuncu ev tapşırığını yerinə yetirməsi ilə reallaşacaq. Bu da məlum olduğu kimi, qarşı tərəfin konstitusiya dəyişikliyi ilə bağlıdır. Bütün bunlar gerçəkləşəcəyi təqdirdə, Ermənistanın Azərbaycanın təbii qazından yararlanması baş tuta bilər.

Xatırladaq ki, uzun illər düşmən münasibətlərində olan dövlətlərin sonradan iqtisadi maraqlar naminə əməkdaşlıq etməsi beynəlxalq münasibətlərdə tez-tez rast gələnən haldır. Məsələn, Almaniya–Rusiya (SSRİ) İkinci Dünya müharibəsində amansız düşmən idilər. Müharibədən sonra, xüsusilə 1970-ci illərdən etibarən Almaniya SSRİ-dən (sonradan Rusiyadan) təbii qaz idxal etməyə başladı. "Qaz üçün boru" razılaşması Avropanın enerji xəritəsini dəyişdi. Bu əməkdaşlıq siyasi gərginliyə baxmayaraq, onilliklərlə davam etdi. Daha bir nümunə İsrail və Misirdir. 1948–1973-cü illərdə İsrail və Misir bir neçə dəfə müharibə apardılar. 1979-cu ildə sülh müqaviləsi imzaladıqdan sonra enerji və təhlükəsizlik sahəsində əməkdaşlığa başlayıblar. Hazırda İsrail Misirə təbii qaz ixrac edir, Misir isə bu qazı mayeləşdirərək Avropaya satır. Bu, düşmən ölkələrin enerji sahəsində əməkdaşlığının bariz nümunələrindəndir. Siyahıya Çin–Hindistan, Vyetnam–ABŞ, Yaponiya–Cənubi Koreya iqtisadi əməkdaşlığını da əlavə etmək olar.

Sonda bir məqamı xüsusi vurğulayaq ki, Azərbaycan Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı əməkdaşlığın möhkəmlənməsini daim təşviq edib və regionun təcriddən çıxmasına çalışıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən Zəngəzur dəhlizi (TRIPP) ideyası təkcə Azərbaycanın deyil, bütövlükdə bölgənin iqtisadi inkişafı və uzunmüddətli sabitliyi üçün mühüm əhəmiyyət daşıyır. Uzun illər blokada şəraitində qalan Ermənistan üçün Azərbaycan vasitəsilə regional və beynəlxalq iqtisadi məkanlara inteqrasiya imkanı yaranıb. Hərçənd Ermənistan uzun müddət Azərbaycan ərazilərini işğal altında saxlayıb, rəsmi Bakı buna baxmayaraq, humanist və konstruktiv siyasətini davam etdirir. Azərbaycan artıq Ermənistana yük daşımaları ilə bağlı işğal dövründən qalan bütün nəqliyyat məhdudiyyətlərini aradan qaldırıb. Bunun ilk real nümunəsi Qazaxıstandan Ermənistana taxıl daşınması olub. Bundan əlavə, Azərbaycan tərəfi Rusiya məhsullarının ölkə ərazisindən Ermənistana tranziti üçün dəmir yolu infrastrukturundan istifadəyə razılıq verib.

***Musa BAĞIRLI***
***XQ***

***Ekspert rəyi***

**Tural İSMAYILOV,**
**politoloq**



Ermənistanın bəzi hökumət nümayəndələrinin və politoloqlarının Azərbaycandan qaz almağa müsbət baxması ölkəmizin regional və qlobal liderlik rolunu bir daha göstərir. Azərbaycanın iqtisadi və enerji gücü artıq siyasi və strateji nüfuz yaradır və onu regionda real diqqət obyekti kimi çıxış edir. Bu yanaşma göstərir ki, ölkəmizin mövqeyi təkcə hərbi və diplomatik sahədə deyil, enerji və iqtisadi sahədə də etibar və önəm qazanıb.

Azərbaycanın qlobal lider kimi nüfuzu region ölkələrinin enerji siyasətinə və strateji düşüncəsinə təsir imkanlarını artırır. Alen Simonyanın timsalında Ermənistan tərəfi artıq bu reallığı nəzərə alır. Azərbaycanın rolunu dəyərləndirmək həm iqtisadi, həm də siyasi baxımdan önəmlidir. Bu, Azərbaycanın nüfuzu və gücü ilə formalaşan liderlik modelinin açıq təzahürüdür.

Azərbaycanın mövqeyi və gücü Ermənistanın strateji düşüncəsində öz yerini tapır və regional əməkdaşlıq imkanlarının perspektivini genişləndirir. Rəsmi İrəvanın belə yanaşması gələcəkdə Zəngəzur dəhlizi və digər əməkdaşlıq təşəbbüslərinə stimul verə bilər. Nəticə etibarilə, Azərbaycanın diplomatik və strateji liderliyi artıq regional planlama və qərarvermə proseslərində önəmli faktor kimi çıxış edir. Bu, Azərbaycanın regiondakı nüfuzunun, həmçinin gələcək geosiyasi üstünlüyünün açıq göstəricisidir.



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 235 (30929) 4 noyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

## "Turan Tovuz" liderliyini qoruyur



**Dünən futbol üzrə Misli Premyer Liqasında X turunun son oyunu keçirilib. Paytaxtın "Sabah" komandası "Bank Respublika Arena"da "Qəbələ"ni qəbul edib. Bu oyuna qədər Bakı klubu turnir cədvəlində 15 xalla 6-cı, 5 xalı olan bölgə təmsilçisi isə 10-cu sırada yer alıb. Oyun 1:0 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb.**

Xatırladaq ki, turun ötən həftə keçirilən qarşılaşmalarında "Qarabağ" "İmişli"yə 2:0, "Zirə" "Karvan-Yevlax"a 3:2, "Neftçi" "Kəpəz"ə 5:1, "Turan Tovuz" "Şamaxı"ya 2:1, "Sumqayıt" isə "Araz-Naxçıvan"a 3:2 hesabı ilə qalib gəlib. X turdan sonra 21 xal tolayan "Turan Tovuz" turnir cədvəlinə başçılıq edir. Liderdən bir oyun az keçirən "Qarabağ" 20 xalla 2-ci pillədə yer alıb. 10 oyundan 18 xal toplayan "Zirə" isə 3-cü sırada qərarlaşıb.

Yevlaxın "Karvan" komandası 5 xalla 11-ci, Gəncənin "Kəpəz" futbolçuları isə 3 xalla sonuncu –12-ci yerdədir.

## "Qarabağ" – "Çelsi" oyununu kim idarə edəcək?



**UEFA Çempionlar Liqasının əsas mərhələsində Bakıda "Qarabağ" və İngiltərənin "Çelsi" komandaları arasında keçiriləcək IV tur oyununun hakim təyinatları açıqlanıb.**

Qarşılaşma Avstriyadan olan hakimlər briqadasına tapşırılıb. Baş hakim Sebastyan Qishamerə Roland Ridel və Santino Şrayner kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Valter Altmann yerinə yetirəcək. VAR-da Manul Şüettenquber, AVAR-da Yosef Spurni olacaq.

Xatırladaq ki, sabah Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək "Qarabağ" – "Çelsi" görüşü saat 21:45-də başlayacaq. 3 turdan sonra hər iki komandanın 6 xalı var. Ağdam təmsilçisi 13-cü, London klubu isə 11-ci pillədə yer alıb.

## Qol güləşçilərimiz Dünya çempionu olub

**Azərbaycanın qol güləşi yığması Bakıda keçirilən Dünya çempionatının qalibi olub. Komandamız yarışda 84 medal qazanıb.**

150-yə yaxın idmançı ilə mundiala qatılan Azərbaycan qazandığı medallardan 25-i qızıl, 32-si gümüş, 27-si isə bürünc olub. Beləliklə qol güləşi komandamız çempionatı birinci yerdə başa vurub.

Qeyd edək ki, dünya çempionatında 30 ölkədən 400-dən çox idmançı mübarizə aparıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

***✓ Xaçmaz rayon sakini Abdullayev Əlyar Qəzənfər oğlunun adına verilmiş Az 77 CD seriyalı, 889 dövlət nömrə nişanlı "HYUNDAI ACCENT" markalı minik avtomobilinə məxsus BD 685679 nömrəli texniki pasport itdiyi üçün etibarsız sayılır.***

***✓ Azərbaycan Respublikası DİN-in Daxili Qoşunları tərəfindən Allahverdiyev Loğman Ceyhun oğlunun adına verilmiş SX seriyalı, 0865890 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.***

*Dünyadan gələn sorağımız*

# Uzaq diyarlarda doğma dəyərlər...



**İnsan harada yaşasa da, hansı dildə danışsa da qəlbinin dərinliyində onu doğma torpağına bağlayan görünməz bağlar var. Bu mənəvi dəyəri qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək xüsusilə Vətəndən uzaqda böyüyən gənclərin üzərinə düşən həm mədəni, həm də tarixi məsuliyyətdir.**

Mədəniyyət xalqın ruhu, yaddaşıdır. Bu gün qloballaşma dövründə hər yerdə assimilyasiya təhlükəsi var. Amma beynəlxalq ictimaiyyət, mədəni və sosial platformalar artıq xalqların mədəniyyətini, tarixini və sənətini tanımağa maraqlıdır. Yəni qloballaşma sayəsində informasiya və ünsiyyət kanalları genişlənib. Bir mahnı paylaşmaq, milli rəqs təqdim etmək, hansısa bayramı izah etmək mədəni müqavimət formasıdır.

Unutmaq asandır, yaşatmaq isə iradə tələb edir. Odur ki, Vətəndən uzaqda yaşamaq milli kimlikdən uzaqlaşmaq demək deyil, əksinə, daha dərindən dərk etmək, onu daha geniş məkanda tanıtmaq fürsətidir. Çünki Vətənin bir parçası olmaq üçün ona ruhən bağlı olmaq gərəkdir. Milli kimlik sərhədlərlə ölçülmür, o, insanın qəlbində kök salıbsa, uzaqlardan da parlayır.

**Bu mədəni məsuliyyəti öz üzərinə götürən gənclərdən biri – 25 yaşlı Ayna Kərimova hazırda Rusiyanın Sankt-Peterburq şəhərində yaşayır və dövlət televiziya kanalında jurnalist kimi fəaliyyət göstərir, həm də peşəkar musiqi ilə məşğul olur. Vətəndən uzaqda olsa da, Sankt-Peterburqda müxtəlif dövlət və mədəniyyət tədbirlərində Azərbaycan musiqisini, adət-ənənələrini nümayiş etdirir:**

– Mən musiqini sadəcə səs və melodiya kimi deyil, həyatın mənası kimi dərk edən və yaşayan bir ailədə dünyaya göz açmışam. Anamın saxladığı köhnə arxiv lentlərinə qulaq asanda Azərbaycan xalq mahnılarını zümzümə edirdim. İki-üç yaşım olanda anam mənə həm sadə, həm də çətin mahnılar öyrədirdi. 5 yaşım olanda "Arşın mal alan" operasından Gülçöhrənin ariyasını oxuyurdum.

Bizim nəsildə musiqi istedadı miras kimi ötürülüb. Anamın babası Həmid Alkərəmov nəfəs alətlərinin mahir ifaçısı idi. Həyat yoldaşı Zinyət xanımın dayısı – məşhur Aşıq Surxay Qarabağda dövrünün seçilən aşıqlarından Aşıq Qurbaninin nəslindən olub.

Ulu nənə-babamın 13 övladından 7-si musiqi istedadı ilə seçilib. Nənəm Məlahət Həmidqızı bəstəkar idi. Birinci Qarabağ müharibəsindən sonra vətən həsrəti onun əsərlərinin əsas mövzusuna çevrilib. Bəstələdiyi mahnıları İslam Rzayev, Könül Xasıyeva, Mənsum İbrahimov, Baloğlan Əşrəfov, Gülüstan Əliyeva, Nisə Qasımova, Mələkxanım Əyyubova, Nəzakət Teymurova, Rəhilə Bəndəliyeva, Vüsal Zamanov və başqaları ifa ediblər. Hər zaman deyirdi ki, Ayna mənim davamçımdır. Nənəmin dörd övladının hər birinin səsi də, improvizasiya qabiliyyəti də özəldir. Ailədə hər görüşümüz kiçik konsertə çevrilir, uşaqlıq illərində Qarabağda hər həftə qohum-qonşular üçün təşkil etdikləri musiqi axşamları kimi...

**Müsahibimiz bildirdi ki, ailədə peşəkar sənətlə anası məşğul olub. O, müxtəlif müsabiqələrdə birincilik qazanıb, Tofiq Quliyev, Niyazi, Şövkət Ələkbərova, Sara Qədimova, Ülkər Həsənova, Arif Babayev və digər görkəmli sənətkarların qarşısında çıxış edib:**

– Mədəni-Maarif Texnikumunda xor dirijorluğu ixtisası üzrə təhsil alıb, Əfsər Cavanşirovun xorunda təcrübə keçib. O, hətta anama xor kapellasında iş də təklif etmişdi. Anam təhsilini qırmızı diplomla başa vursa da, ailə həyatını daha üstün tutub. Atam isə yeddiillik musiqi məktəbində tar sinfində oxuyub.

Sosial platformada minlərlə izləyicimiz var. Bizi məşhurlaşdıran videolarda atam zərb alətində müşayiət edir. Bacım hazırda Sankt-Peterburqdakı Qlazunov adına Konservatoriyada fortepiano üzrə təhsil alır. Onun da gözəl səsi var, amma konsertmeyster olmaq istəyir. Yəqin ki, gələcəkdə birgə işlərimiz daha çox olacaq.

Düzdür, müxtəlif mədəniyyətlərin təsiri altında böyümüşəm. Beş yaşımda musiqi məktəbinə qəbul olmuşam və on il ərzində dünya klassiklərinin əsərlərini ifa etmişəm. Eyni zamanda caz musiqisinin incəliklərini də öyrənmişəm. Lakin mənim üçün ən dərin iz buraxan, bəlkə də ən çox ruhuma toxunan janr klassik retro musiqisidir. Çünki bu musiqinin özünəməxsus ruhu və dərin mənası var.

**2020-ci ildə Aynanın yaradıcılıq axtarışları yeni istiqamət alıb. Əvvəlcə özünü ambient, daha sonra postrok janrında sınayıb və bu üslubları milli motivlərlə birləşdirməyə qərar verib:**

– Anamın sözlərinə bəstələdiyim "Taleyin oyunu" adlı eksperimental əsər bu istiqamətdə ilk uğurlu addım oldu. Onun ifasında muğam elementlərini müasir musiqi ilə sintez etdik və nəticədə həm janr, həm də duyğu baxımından fərqli bir əsər ərsəyə gəldi. Proses çox zaman və səbir tələb etsə də, imkan daxilində bu xətti davam etdirmək niyyətindəyəm. Məqsədim Azərbaycan musiqi mədəniyyətinin zəngin ənənələrinin beynəlxalq auditoriya tərəfindən tanınmasında iştirak etməkdir.

Xalq mahnılarımızı dinləyəndə kövrəlirəm, səbəbini özüm də bilmirəm. Artıq üç ildir ki, Azərbaycan musiqisini müxtəlif formatlarda təqdim etməyə çalışıram. Konsertlərdə xalq mahnılarımızı səsləndirir, "Azərbaycan xalq musiqisi axşamları" adlı proqram təşkil edirəm.

**Qarşıda onu böyük işlər gözləyir. "Muğam laboratoriyası" layihəsini reallaşdırmaq istəyir. Bu, Rusiyada belə formatda yaradılan ilk studiya olacaq:**

– Əsas məqsədim Vətəndən kənarda Azərbaycan musiqi irsini qorumaq, öyrənmək və yeni nəsillərə ötürməkdir. İlk mərhələdə uşaqlarla çalışacaq, onlara milli musiqimizin nəzəri əsaslarını, klassik əsərləri və musiqi tariximizi öyrədəcəyik. Artıq Azərbaycan Milli Konservatoriyasının materiallarını toplayıram. Daha sonra böyüklər üçün mühazirə və interaktiv proqramlar planlaşdırılır.

Yaxın aylarda Sankt-Peterburq və Moskvada iki konsertimiz keçiriləcək. Bu layihələrdə klassik və retro əsərlərlə yanaşı, öz bəstələrimiz də səslənəcək. Rimski-Korsakov adına Sankt-Peterburq Konservatoriyasının məzunları bir neçə klassik Azərbaycan kompozisiyasını ifa edəcəklər. Bütün bu fəaliyyətlərin arxasında bir məqsəd dayanır, mədəni mübadilə üçün körpü yaratmaq, xalqlar arasında anlayış və harmoniya bağını musiqi vasitəsilə möhkəmləndirmək.

Soydaşımız yaradıcı axtarışları çərçivəsində tanınmış iranlı musiqi prodüseri və bitboks ifaçısı Kia Rokni ilə də əməkdaşlıq edib. Bitboks ağız, dil və səs vasitəsilə ritm yaratmaq sənətidir. Başqa sözlə, ifaçı hər hansı alət olmadan, səsini ritm və melodiyaya çevirir. Bu texnika əsasən hip-hop və şəhər musiqisi (urban) mədəniyyətində istifadə olunur. Məqsədimiz müasir, ritmik janrı Azərbaycan xalq musiqisinin melodik və emosional xətti ilə birləşdirərək yeni və maraqlı musiqi təcrübəsi yaratmaq idi.

Layihədə bitboksla yaradılan ritmlər xalq mahnılarının melodiyasına və ritminə uyğun şəkildə "naxış" kimi yerləşdirildi. Nəticədə həm texniki, həm də estetik baxımdan fərqli, yenilikçi musiqi kompozisiyası yarandı. Sosial platformalarda təqdim olunan video cəmi bir neçə gün ərzində 1,8 milyon baxış topladı. Bu, həm layihənin uğurunu göstərdi, həm də milli musiqimizin müxtəlif mədəniyyət və janrlara uğurla inteqrasiya oluna biləcəyini sübut etdi.

Ümumiyyətlə, harada yaşamağımızdan asılı olmayaraq, sanki, eyni ürəyin ritmi ilə addımlayırıq. Son bir il ərzində səhifəm dünya ölkələrindən 117 min izləyici toplayıb. Yaşıdlarım arasında milli musiqimizə xüsusi maraq görürəm. Dinləyicilərdən aldığım dəstək olduqca böyükdür, demək olar ki, hər gün "şəhərimizə gəlin, konsert verin" deyə müraciətlər alıram.










**Ayna Kərimova muğamı elmi müstəvidə öyrənir, onun tarixi, melodik strukturu, ritmik xüsusiyyətləri və ifa üslublarını araşdırır. Bu prosesdə çoxsaylı tədqiqat işləri, not kolleksiyaları və musiqi araşdırmalarından istifadə edir:**

– Müxtəlif musiqi janrlarına qulaq assam da, doğma musiqiyə olan sevgim heç vaxt itmir. Bu sevgi ruhumda kök salıb. Uşaqlıq illərimdə, 12–13 yaşım olanda başa düşmürdüm ki, atam niyə xalq mahnılarımızdan ibarət disk hazırlayırdı? İndi onu çox yaxşı anlayıram.

Arzum budur ki, yalnız məhəbbət yox, bilgi və anlayışla musiqimizi yaşadaq. İstəyirəm ki, insanlar mədəniyyətimizin qaynaqlarını tanısın, xalqın səsinin necə formalaşdığını, aşıqların rolunu, muğamın niyə dünya səviyyəsində fenomen olduğunu öyrənsinlər. Mən bu missiyanı həyata keçirmək üçün kiçik, amma məqsədyönlü addımlar atıram və inanıram ki, bu, doğru yoldur.

*Söhbəti yazdı:*
*Fidan ƏLİYEVA*
*XQ*

## HAVA

# Bəzi rayonlarda yağış yağacaq, dolu düşəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın buludlu olacağı, gün ərzində arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-13, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 772 millimetr civə sütunundan 769 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam qərb rayonlarında yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 6-11, gündüz 17-21, dağlarda gecə 0-5, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin kollektivi Əməkdar jurnalist Fazil Güneyə əzizi

**MƏHƏRRƏM BABAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Mehparə Əliyevaya əzizi

**BƏŞİR QOCAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elçin Qasımov, Adil Əliyev və Rahim Rəhimov Sübhi Kazımova atası

**ƏLİ KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məmmədağa Sərdarov, övladları Elçin, Emin və Şahin Sərdarovlar Əməkdar elm xadimi, Prezident təqaüdçüsü

**KAMAL ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3462
SİFARİŞ 2209
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00